AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU

İKRAM AĞASİYEV

# DƏRBƏND ƏHALİSİ

**(1806 – 2010-cu illərdə əhalinin sayı və etnik tərkibinin dinamikası)**

BAKI – 2023

Azərbaycan Milli Elmlər Akademiyası
A.A. Bakıxanov adına Tarix İnstitutunun
Elmi Şurasının qərarı ilə çap olunur

**Elmi redaktor:** **İradə Bağırova**,
tarix elmləri doktoru

**Rəyçilər**: **Şahin Fərzəliyev**
tarix elmləri doktoru, professor,

**Nigar Axundova**
tarix üzrə fəlsəfə doktoru, dosent

Ağasiyev İkram. Dərbənd əhalisi (1806-2010-cu illərdə əhalinin sayı və etnik tərkibinin dinamikası). "Nəşriyyat" şöbəsi, Bakı, 2023, 134 s.

Qədim türk yurdu olan Dərbənd şəhərinin əhalisi rus işğalına (1806) qədər, əsasən, türkdilli xalqlardan ibarət olsa da, sonralar çar Rusiyasının və Sovet hökumətinin siyasəti nəticəsində burada azərbaycanlıların və başqa türk xalqlarının sayı azalmışdır. Monoqrafiyada tarixi Azərbaycan şəhəri Dəmirqapı Dərbəndin çar Rusiyası tərəfindən işğalından sonra əhalisinin sayı və etnik tərkibində baş vermiş dəyişikliklər təhlil edilir.

Əsərdən geniş oxucu auditoriyası faydalana bilər.

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2023.

# GİRİŞ

Şəhərlərin əhalisinin etnik tərkibinin formalaşması ilə bağlı məsələlərin araşdırılması böyük elmi əhəmiyyət kəsb edir. Belə ki, miqrasiya proseslərinin təsirinə daha çox məruz qalan şəhərlərin etnik tərkibində baş verən dəyişikliklər nəticədə milli zəmində münaqişələrin yaranmasına, xalqlararası, bəzən dövlətlərarası ziddiyyətlərə gətirib çıxarır. Bu baxımdan tarixi Azərbaycan şəhəri Dərbəndin taleyi səciyyəvidir.

Dərbənd kimi tarixi Azərbaycan şəhəri, 1806-cı ildə çar Rusiyası tərəfindən işğal edildikdən sonra onun əhalisinin etnik tərkibində baş verən dəyişikliklər və mənbələrə istinadən 1796-cı ildə şəhər əhalisinin böyük əksəriyyətini[1] təşkil etmiş azərbaycanlıların sayının faiz etibarı ilə 2010-cu ildə 32,3 %-ə enməsi Dağıstan[2] və Rusiya Federasiyasında bəzi ictimai qurumlar tərəfindən yanlış nəticələrin irəli sürülməsinə, bu şəhərdə azərbaycanlıların guya ki, gəlmə əhali olması, Dərbəndin qədimdən Dağıstanın dağlı xalqlarına məxsusluğu barədə qeyri-elmi, subyektiv fikirlərin söylənilməsinə əsas vermişdir.

Azərbaycan və Dağıstan xalqları arasında dərin tarixi köklərə dayanan  əlaqələr olmuşdur. Bu əlaqələr bu gün də  inkişaf etməkdədir və bu əlaqələrin bundan sonra da genişlənməsi böyük  əhəmiyyətə malikdir. Bu nöqteyi-nəzərdən  müasir dövrdə bəzi radikal  qüvvələrin və onların himayədarlarının Dərbənd ətrafında qurduğu siyasi oyunlar və bu oyunların şəhərin əhalisinin bugünkü etnik tərkibinin nəticələri ətrafında cərəyan etməsi baxımından   Dərbənd bölgəsində gedən demoqrafik proseslərin

---

[1] Броневский С.М. Историческия выписки о сношениях России с Персиею, Грузиею и вообще с горскими народами, на Кавказе обитающими со времен Ивана Васильевича доныне. РАН. Институт востоковедения СПб. 1996. // http://www.vostlit.info/ Texts / rus 9 / Bronevskij/frametext 32.htm. .(müraciət tarixi-06.04.2013).

[2] Население Дагестана.//  http://www.ethno-kavkaz .narod. ru/ rndaghes tan.html.(müraciət tarixi-15.01.2019).

tarixinin tədqiq olunması çox böyük aktuallıq kəsb edir. Dərbənd bölgəsinin əhalisinin etnik tərkibinin dinamikası ilə bağlı məsələlərin obyektiv tədqiqinə xüsusi ilə, böyük ehtiyac var.

Məlum faktdır ki, Dağıstan kimi, çoxmillətli bir respublikada əhalinin etnik tərkibindəki dəyişikliklər respublikanın siyasi iqliminə birbaşa təsir edir. Son illər Dərbənd ətrafında gedən siyasi proseslər bunu deməyə əsas verir ki, bu şəhərin tarixindəki Azərbaycan, türk izlərinin silinməsini arzulayan dairələr var. Bunun üçün Dərbənd əhalisinin etnik tərkibi, xüsusən də guya ki, azərbaycanlıların bu bölgəyə gəlmə əhali olması, bu ərazilərin qeyri-azərbaycanlılara məxsusluğu haqqında qeyri-obyektiv yazılar dərc olunur və bu zaman statistik məlumatlar təhrif olunaraq yanlış nəticələr söylənilir.

Dərbənd nəinki Qafqazın, eləcə də dünyanın ən qədim şəhərlərindən biridir. Bu şəhərin yaşı dəqiq bilinmir. Azərbaycan və eləcə də Dağıstan tarixçilərinin böyük əksəriyyəti Dərbəndin 5 min ildən çox tarixə malik olduğunu təsiqləyirlər[3]. Qədim türk yurdu Dərbənddə aparılan son arxeoloji qazıntı işləri onun təqribən eramızdan 3 min il əvvəl salındığını göstərir[4].

Dərbəndin adı ilk dəfə eramızdan əvvəl VI əsrdə yunan coğrafiyaşünaslarının əsərlərində çəkilib. Ümumiyyətlə, tarixdə Dərbəndin 20-yə yaxın adı məlumdur[5]. Farslar bu şəhəri Darbənd (qapı), oğuz türkləri isə Dəmirqapı Dərbənd və ya sadəcə olaraq, Dərbənd adlandırıblar. Dərbənd şəhəri və onunla qonşu olan ərazilər Azərbaycan Albaniyasında ən qədim yaşayış məs-

---

[3] Azərbaycan tarixi I cild. Bakı, 1998, səh. 375; Т.М.Мамедов. Кавказская Албания (IV-VIII вв.). Баку, «Маариф», 1993, с.70-72; T.M.Məmmədov. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, "Təhsil", 2006, s.139-143.

[4] Кудрявцев А.А. Древний Дербенд. Москва, «Наука», 1982, с.30.; Mübariz Xəlilov.Azərbaycanın Dərbənd şəhərinin salınması tarixi haqqında.// Elmi əsərlər. AMEA Tarix İnstitutu, 40-cı cild,Bakı, 2012, s.10-13.

[5] Далгат Э.М. Город и городская жизнь в Дагестане во второй половине XIX – начале XX в. / Институт истории, археологии и этнографии ДНЦ РАН. – Махачкала: Мавраевъ, 2015. – С.10.

kənlərindən biri hesab olunur. Bunu çoxsaylı ilk mənbələr və tədqiqat əsərləri birmənalı şəkildə təsdiq edir.

Böyük İpək Yolunun üzərində yerləşən Dərbənd həm də əhəmiyyətli ticarət mərkəzi kimi qədim və orta əsrlərdə Yaxın Şərqdə geniş şöhrət qazanmışdı. Strateji bir ərazidə yerləşdiyindən Dərbənd dəfələrlə şimaldan alanların, cənubdan isə iranlıların dağıdıcı hücumlarına məruz qalmışdır. Amma hər dəfə də şəhər yenidən dirçələrək ayağa qalxmağı bacarıb. Azərbaycan Albaniyası dövründə Dərbənd bu dövlətin ana şəhərlərindən birinə çevrilmişdi[6]. Alban tarixçisi Kalankatlı Musa (Moisey Kalankatuklu) öz əsərində Dərbəndi "hun darvazası" adlandırmışdır.[7]

Dərbənd dünyanın ən qədim şəhər mədəniyyəti mərkəzlərindən biri kimi türk xalqlarının tarixində mühüm rol oynamışdır. Böyük Qafqaz dağları ilə Xəzər dənizi arasında coğrafiyada yerləşən Dərbənd, eyni zamanda ən qədim dövrlərdən başlayaraq şimaldan cənuba doğru və əks istiqamətdə köç edən çoxsaylı xalqlar üçün əhəmiyyətli bir keçid rolu oynamışdır. Bu **şəhər ümumtürk məkanının şimal və cənub ərazilərini, bu ərazilərdə yaşayan hun, barsil, balas, qardman, bulqar, oğuz, xəzər, qıpçaq və sair türk tayfalarını əlaqələndirən başlıca qapı** idi. Buna görə də Azərbaycan xalqı, həmçinin digər qədim türk etnosları özlərinin ulu məskənlərindən biri olan bu keçidi "Dəmir qapı" adlandırırdılar. Təsadüfi deyil ki, "Kitab-i Dədə Qorqud"da Dəmirqapı Dərbəndin adı Dəmir qapu Dərbənd, Qara Dərbənd ağzı, Qapulu Dərbənd, Qanlu qara Dərbənd kimi çəkilir[8]. Dərbəndin qədim türk yurdu, qədim türk mədəniyyət

---

[6] Azərbaycan tarixi. Birinci cild, ən qədimdən – b.e. III əsri). Bakı, "Elm", 1998, s.362.

[7] Moisey Kalankatuklu. Albaniya tarixi; Mxitar Qoş. Alban salnaməsi. Bakı,"Avrasiya press", 2006, s.44.

[8] Kitabi-Dədə Qorqud ensiklopediyası: I cild.B akı, "Yeni Nəşrlər Evi", 2000, 622 s.; Kitabi-Dədə Qorqud ensiklopediyası: II cild.Bakı, XXI-"Yeni Nəşrlər Evi", 2000, 567 s.

mərkəzlərindən biri olması əksər tarixçilər tərəfindən sübuta yetirilib[9].

Dədə Qorqud eramızın ilk yüzilliklərində bu ulu yurd yerində at oynatmış, hündürboylu türk alp ərənlərin qəhrəmanlıqlarına söz qoşmuş, qopuzu ilə onları öymüş, tərifləmiş, onlara göstərdikləri igidliklərə uyğun da ad vermişdi. XVII əsrdə Azərbaycanda olmuş məşhur alman səyyahı Adam Oleari, türk səyyahı Evliya Çələbi və başqaları Dədə Qorqudun qəbrinin Dərbənddə olduğunu bildirmişlər. Adam Oleari səyahət zamanı Dərbənddə olarkən yerli əhalidən bir sıra maraqlı rəvayətlər yazıya almışdır ki, onlardan biri də Dədə Qorqud haqqındadır.

A.Oleari "Səyahətnamə"sində Dərbənddən danışarkən İmam Qorqudun qəbri haqqında belə bir rəvayət verir: "Burada biz daha iki müsəlman müqəddəsinin məzarlarını gördük: onlardan – Pir Mühərrininki düzənlikdə, İmam Qorqudunku isə dağ yamacında idi. Qorqud haqqında deyirlər ki, o, Məhəmməd peyğəmbərin dostu olmuş, həmişə onun yan-yörəsində dolanmış, ondan öyrənmiş və onun ölümündən sonra daha üç yüz il yaşamışdır. Danışırlar ki, o, Həsən şahın yanına yollanmış, onun üçün qopuz çalaraq nəğmələr oxumuş və bununla şahı ləzgilərə qarşı döyüşə inandırmışdır. Əvvəllər bütpərəst olmuş ləzgilərə və ya Dağıstan tatarlarına müraciət etdikdə və onların arasında islamı təbliğ etməyə başladıqda qətlə yetirilmişdir"[10]. "Dərbəndnamə" adlı tarixi əsərdə də məzmunca buna bənzər məlumat verilib.

---

[9] Hacıyev, T. Dədə Qorqud kitabı: tariximizin ilk yazılı dərsliyi: "Dədə Qorqud" eposunun elm aləminə bəlli olmasının 200 illiyinə həsr olunur /T.Hacıyev; red. M. Kazımoğlu, N. Qurbanov; AMEA, Folklor İn-tu.-Bakı: [Elm və təhsil], 2014, 343 s. ; Kitabi-Dədə Qorqud //Türk xalqları ədəbiyyatı: [4 cilddə] /tərt. ed. prof. dr. N.Cəfərov. - C.I: Qədim dövr.- Bakı, 2006.- s.201-218.

[10] Kitabi-Dədə Qorqud Ensiklopediyası, Bakı, "Öndər Nəşriyyat", 2004.// http:dede.musigi-dunya.az/o/oleari.html

Dərbənd şəhəri Azərbaycan xalq ədəbiyyatında qəhrəmanlıq rəmzi kimi göstərilir. Məsələn, Koroğlu dastanında Koroğlunun "Dərbənd səfəri" adlı qolda Dəmirqapı Dərbənd Azərbaycanın ana şəhərlərindən biri kimi sevgi ilə tərənnüm edilir.

Dərbənd erkən orta əsrlərdən Azərbaycanın ən şimal şəhəri kimi mənbələrə düşmüşdür. Olduqca əlverişli bir coğrafi mövqedə – Böyük Qafqaz dağlarının Xəzər dənizi ilə təmas nöqtəsində yerləşən bu şəhər tarixən təkcə Azərbaycanın deyil, həm də bütün Şərqin Şimali Qafqaza, Volqaboyuna, Avropaya və Orta Asiyaya açılan qapısı rolunu oynayırdı.

Ərəbdilli ilkin yazılı qaynaqların verdiyi məlumatlara görə, Ərəb xilafəti dövründə Azərbaycanın şimalında – Arranda mövcud olan ən böyük şəhərlərdən biri Dərbənd idi. VII əsrin ortalarında Dərbənd ərəblər tərəfindən işğal olundu[11]. Nəticədə, Dərbənddə islam dini sürətlə yayıldı. Xilafət dövründən son orta əsrlərədək və ondan sonrakı dövrlərdə - Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi imperiyaları zamanında da Dərbənd Azərbaycanın ana şəhərlərindən biri olaraq qalmaqda idi.

Çar Rusiyasının Dərbəndi işğal etməsindən sonra (əvvəlcə 1722, sonra 1806-ci ildə) da bu şəhər Azərbaycan mədəniyyətini yaşadan şəhərlərdən biri kimi qalmışdı. 1860-cı ildə çar Rusiyasının apardığı inzibati siyasət nəticəsində Dərbənd quberniyası ləğv edildi, Dərbənd bölgəsi Azərbaycanın iqtisadi, mədəni həyatından qoparılaraq yeni yaradılan Dağıstan vilayətinin tərkibinə qatıldı.

XIX əsrdə və XX əsrin birinci yarısında Dərbəndin əhalisinin etnik tərkibi haqqında müəllifin məqalələri dərc edilmişdir və bu tədqiqatlarda göstərilir ki, rus işğalına qədər, yəni 1806-cı ilə qədər Dərbənd əhalisinin təqribən 98%-i türksoylu xalqlardan ibarət olmuşdur[12]. Rusiyanın Qafqazda, o cümlədən Azər-

---

[11] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı,"Elm", 2005, s.74.

[12] Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi, fond 24, siyahı 1, iş.21, vərəq 44.

baycanda apardığı köçürmə siyasəti nəticəsində XIX əsrin əvvəllərində Dərbənd şəhərinin əhalisinin etnik tərkibində nəzərəçarpacaq dəyişikliklər baş vermişdir. Belə ki, 1897-ci ildə Dərbənd əhalisində artıq azərbaycanlıların çəkisi azalaraq 66,7 %-ə enmiş, əhalinin çəkisində slavyan xalqlarının və ermənilərin payı artmışdır[13].

Dərbənd şəhərinin əhalisinin etnik tərkibində taleyüklü dəyişikliklər XX əsrin əvvəllərində baş verdi. Rusiyada, o cümlədən Qafqazda kapitalizmin inkişafı, kənd əhalisinin şəhərə axını, daha sonra Birinci Dünya müharibəsi və Rusiyada Vətəndaş müharibəsi Dərbəndin də əhalisinin sayında və etnik tərkibində əsaslı dəyişikliklərə gətirib çıxardı. Belə ki, 1926-cı ilin əhalinin siyahıyaalınması göstərdi ki, Dərbənd şəhərində azərbaycanlıların sayı azalaraq 34%-ə enmişdir[14]. Azərbaycanlıların sayının azalması təkcə faiz etibarı ilə deyil, həm də say etibarı ilə baş vermişdi. Yəni, 1897-ci ildə 9767 nəfər olan azərbaycanlıların sayı 1926-cı ildə cəmi 7831 nəfər təşkil etmişdir[15].

XX əsrin ikinci yarısından sonrakı dövrdə keçirilən əhalinin siyahıyaalınmasının nəticələri göstərir ki, azərbaycanlıların Dərbənddə tarixi dominantlığı bir daha bərpa olunmadı. Müəlli-

---

[13] Броневский С.М. Историческия выписки о сношениях России с Персиею, Грузиею и вообще с горскими народами, на Кавказе обитающими со времен Ивана Васильевича доныне. РАН. Институт востоковедения СПб. 1996. http:// www. vostlit. Info /Texts/ rus9/ Bronevskij/ frametext32.htm.; Волкова Н.Г.Изменения в национальном составе городского населения Северного Кавказа.// http:// journal .iea.ras.ru/archive/1960s/1965/Volkova_1965.pdf. с.455.

[14] Материалы Всесоюзной переписи населения 1926 года по Дагестану. Выпуск 1.Список нселенных мест Дагестанской АССР.Издание Дагстатуправления, г.Махачкала,1927, с.XIX-XX.

[15] Всесоюзная перепись населения 1926 года. М.: Издание ЦУЦ Союза СССР 1928-1928. Т.9, стр.34-51. Т. 10, с. 9-13, т. 11, с8-17, т.14, с.6-16; т.15,с.8-13; т.16, с. 8-; т.17, с.8-25; таблица VI население по полу, народности. с.XX

fin təqdim olunan bu əsəri  məhz bu məsələnin tədqiqinə həsr olunmuşdur.

Əsərin  əsas məqsədi 1806-2010-cu illər ərzində Dərbənd şəhərinin əhalisinin sayında və etnik tərkibində baş verən dəyişiklikləri tədqiq etmək, şəhər əhalisinin etnik tərkibində baş verən dəyişikliklərin səbəblərini ayırd etməkdən ibarətdir.

Heç şübhəsiz, Dərbənd qədim türk yurdudur və qədim türk-müsəlman abidələri indi də şəhərin tarixən kimlərə məxsus olduğunu bildirən vizit kartı rolunu oynayır. Şəhərdə V əsrə aid edilən qədim Dərbənd qalası, Narınqala və dənizə doğru uzanan qədim qoşa divarlar görənləri indi də heyrətləndirməkdə davam edir. Dərbənddə həmçinin 733-734-cü illərdə inşa edilən  Cümə məscidi, Şirvanşah Fərrux Yasar tərəfindən XV əsrdə inşa edilən mədrəsə, minarəli məscid (XIV əsr), Şah Abbas məscidi, Qırxlar məscidi (XVII əsr), Sultan Bayat hamamı (XVII-XVIII əsrlər), Xan məqbərəsi (XVIII əsr), yeraltı su anbarı (VIII-XVII  əsrlər) və sair abidələr var. Bu qədim abidələr və yer adları Dərbəndin qədim zamanlardan Azərbaycan türklərinə aid olmasından  xəbər verir. Dərbənddə M.Ə.Kazım bəy qardaşları kimi görkəmli şərqşünaslar, Qumru, Şuai, Süpehri kimi şairlər, görkəmli alimlər, elm və mədəniyyət xadimləri, filosoflar yetişmişdir. Şirvanşahlar dövlətini idarə etmiş  Dərbəndilər sülaləsinin (1382-1538) görkəmli nümayəndələri: I İbrahim (1382-1417), I Xəlilullah (1417-1465), Fərrux Yasar (1465-1500), II İbrahim Şeyx Şah (1502-1524), II Xəlilullah (1524- 1535), Şahrux (1535-1538) öz dövrlərinin görkəmli şəxsiyyətləri olmuşlar.

“Kitabi-Dədə Qorqud Ensiklopediyası”nda göstərildiyi kimi, türk xalqlarının daimi yaşayış ərazilərinin relyefindən asılı olaraq Dərbənd adı iki dağ arası, dar keçid, dağ və çay arası keçid, keçid qapısı mənalarında geniş yayılmışdır. Xüsusən türk xalqları yaşayan ölkə və əyalətlərdə bu toponimə tez-tez rast gəlmək olur. Məs.: Dərbənd-Türkiyənin Konya elinin mərkəzinə bağlı bir bucaq; Türkiyənin Qoca eli ilə bağlı bir bucaq; Türk-

mənistanın Qeves rayonunda dağ keçidi; Bexerden rayonu ərazisində dağ keçidi; dağın ağzı və s.

Dərbənd, Dəmirqapı Dərbənd adı VI-VIII yüzilliklərin daş kitabələri olan Kültiqin yazılarında türk xaqanlarının geriyə hücum istiqaməti kimi dəfələrlə yad edilir[16].

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Dərbənd şəhərinin 2000 illiyinə həsr edilmiş təntənəli tədbirin iştirakçılarına ünvanladığı təbrikdə demişdir: "Ən qədim dövrlərdən Qafqazın Dəmir Qapısı kimi məşhur olan Dərbənd orada yaşayan çoxsaylı millətlərin və xalqların nümayəndələrinin sevgisini qazanıb. Bu şəhəri haqlı olaraq özlərinin vətəni sayan sakinlər ona xas olan çoxəsrlik multikultural ənənələri və tolerantlığı qoruyub saxlayırlar. Bizim tarixi yaddaşımızda alınmaz qala kimi iz qoymuş Dərbənd əsrlər boyu bu şəhərə gələnlərin hamısını öz möhtəşəmliyi ilə heyran edirdi. O, özünün bənzərsiz memarlıq nümunələri, mənəvi və mədəni sərvətləri ilə bu gün də bizi heyran qoyur, Dağıstanın sosial-iqtisadi həyatında mühüm rol oynamaqda davam edir.

Azərbaycan Respublikası və Rusiya Federasiyası, Rusiya Federasiyasının Dağıstan Respublikası çox sıx iqtisadi, siyasi və mədəni əlaqə saxlayırlar. Bizim dostluğumuz çoxəsrlik tarixə malikdir...Dərindən əmin olduğumu bildirirəm ki, Azərbaycan ilə Rusiya və Dağıstan Respublikası arasında münasibətlər bundan sonra da əcdadlarımızın bizə vəsiyyət etdikləri dostluq və qardaşlıq ruhunda inkişaf edəcək"[17].

---

[16] "Kitabi-Dədə Qorqud Ensiklopediyası", Bakı, "Öndər Nəşriyyat", 2004. D. DƏRBƏND, DƏMİRQAPU DƏRBƏND http://dede.musigi-dunya.az/d/derbend.html"(müraciət tarixi-09.07.2013).

[17] "Azərbaycan" qəzeti, 18 sentyabr 2015-ci il.

# I FƏSİL

## DƏRBƏNDİN RUS İŞĞALINA QƏDƏRKİ ETNO-SİYASİ TARİXİNƏ EKSKURS

Dərbənd eli - ən qədim insan məskənlərindən biridir. Bəzi mənbələrdə şəhərin, V əsrin sonu - VI əsrin əvvəllərində, sasanı şahı Qubad tərəfindən salındığı və şəhərə Dərbənd adının verilməsi ehtimal olunsa da [18], əslində bu şəhərin özülü VI əsrdən yüzillərlə öncə qoyulmuşdur. Sasani hökmdarları II Yezdəgirdin, Qubadın və Xosrov Ənuşirəvanın adları isə yalnız möhtəşəm qala divarlarının inşası ilə bağlıdır.

Məlumdur ki, qədim yunan tarixçisi Herodot e.ə. V əsrdə "Dərbənd keçidi" haqqında məlumat vermişdir. Həmin dövrdə Dərbənd şəhərinin yerləşdiyi strateji ərazi sak-masaget tayfalarının yaşayış məskəni olmuşdur. Arxeoloji qazıntılar zamanı tapilan ox başlıqları hələ e.ə. VIII-VII əsrlərdə Dərbənd ərazisində iskitlərin yaşadığını göstərir.[19].

E.ə. IV əsrin axırı - III əsrin əvvəllərində Araz çayından şimaldakı ərazilərdə Albaniya dövləti meydana gəlmişdir. Yunan coğrafiyaçısı Strabonun verdiyi məlumata görə Albaniya şimalda Sarmatiya (indiki Dağıstan), qərbdə İberiya (indiki Gürcüstanın şərqi), cənubda Azərbayqan (Atropatena) və cənubi-qərbdə Ermənistan ilə həmsərhəd olmuşdur. Albaniyanın paytaxtı yarandığı vaxtdan 551-ci ilə qədər Qəbələ, 551-ci ildən 705-ci ilə, yəni süqutunadək Bərdə şəhəri olmuşdur.

---

[18] Козубский Е.И. История города Дербента. Темур-Хан-Шура «Русская типография» В.М.Сорокина. 1906, с. 26.

[19] Далгат Э.М. Город и городская жизнь в Дагестане во второй половине XIX – начале XX в. / Институт истории, археологии и этнографии ДНЦ РАН. – Махачкала: Мавраевъ, 2015. – С.11.

Azərbaycan Albaniyasının ərazisi inzibati cəhətdən əyalətlərə və vilayətlərə bölünürdü. Bir əyalət bir neçə vilayətdən ibarət olurdu. Albaniya ərazisində 10 əyalət mövcud olmuşdur. Onlardan 6 əyalət Kür çayından şimalda 4 əyalət isə Kürdən cənub ərazilərdə yerləşirdi[20]. Bunlar aşağıdakılar idi:

1) Çola (Dərbənd) əyaləti indiki Dərbənddən Beşbarmaq dağına qədər Xəzər sahili əraziləri əhatə edirdi;

2) Lpina (Lupena) əyaləti Dərbənd və Şəki arasında yerləşirdi. Bu ərazilər təqribən indiki Azərbaycanın Quba, Qusar, İsmayıllı rayonlarının dağlıq hissəsinə və Dağıstanın Tabasaran, Məhərrəmkənd ərazilərinə uyğun gəlir;

3) Kambisena (Kambeçen) adlanan əyalətin əraziləri Qanıx çayından Kür çayına qədər torpaqları əhatə edirdi ki, bu əraziyə indiki Gürcüstanın şərqindəki Sığınaq, Qaraçöp, Qardabani əraziləri, Azərbaycanın Ağstafa, Qazax, Şəmkir rayonlarının şimal hüdudları aid idi. Ən böyük şəhəri Tibilis (Tiflis) şəhəri olmuşdur;

4) Əcəri (Həcəri) əyaləti Qəbələ vilayətinin cənubundakı Qarasu və Girdiman çayları arasındakı əraziləri əhatə edirdi və cənubda Kür çayına qədər uzanırdı. Bu vilayətin adı müasir Ucar şəhərinin adında qorunub saxlanılmışdır;

5) Kabalaka (Qəbələ) əyaləti cənubda Həcəri, şimalda Lpina, şərqdə Şəki, qərbdə isə Çola ilə həmsərhəd idi. Qəbələ şəhəri həm əyalətin, həm də dövlətin paytaxtı idi;

6) Şəki (erməni mənbələrində-Şako, gürcü mənbələrində Nuxpato kimi adlandırılmışdır) əyaləti Qəbələ, Lpina və Kambisena arasındakı ərazilərdə (indiki Oğuz, Şəki, Qax, Zaqatala, Balakən əraziləri) yerləşirdi. Mərkəzi Şəki şəhəri həm də kilsə - inzibati vahidi rolunu oynayırdı. Belə ki, burada VI-

---

[20] Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı, “Müəllim” nəşriyyatı, 2006, s.13.

VIII əsrlərdə Alban həvari kilsəsinə aid yepiskopluq fəaliyyət göstərmişdir;

7) Paytakaran əyalətinin adı müxtəlif mənbələrdə müxtəlif cür çəkilir. Erməni mənbələrində - Kaspk, Kazbk, antik mənbələrdə - Kaspiana, alban mənbələrində Paytakaran və yaxud Balasikan, fars və ərəb mənbələrində Balasakan kimi göstərilir. Mərkəzi şəhəri Balasakan (Beyləqan) olmuşdur. Bəzi ehtimallara görə, ərazisi indiki Beyləqandan şərqdə Xəzər dənizinə şimalda Abşeron yarımadasına qədər uzanırdı[21];

8) Uti (yunan mənbələrində – Otena) əyaləti Albaniyanın sahəsinə görə ən böyük əyaləti olaraq indiki Göycənin şimal sahillərindən Bərdəyə qədər, şimalda Kür çayından cənubda Mil düzünə qədər böyük bir ərazini əhatə edirdi. Mərkəzi şəhəri Bərdə olmuşdur. Bu əyalətin tərkibində 2 vilayət var idi-Sakasena və Girdiman. Sakasena vilayəti indiki Dağlıq Qarabağın şimalında Kür çayı arasındakı əraziləri əhatə edirdi. Girdiman vilayəti isə Sakasenadan qərbdə (indiki Gədəbəy, Tovuz, Şəmkir, Qazax, Ağstafa, Ermənistanın Dilican dərəsi) yerləşirdi. Girdiman vilayətinin adı indiki Gürcüstanın Qardabani rayonunun adında qorunub saxlanılmışdır;

9) Ərsak (yunan mənbələrində Orxistena) əyaləti indiki Dağlıq Qarabağ və Mil düzünün bir hissəsini əhatə etmişdir. Əyalət 12 xırda inzibati vahiddən ibarət idi;

10) Sünik (fars mənbələrində Sisakan) əyaləti Göycədən cənub və cənub-şərq (indiki Zəngəzur, Naxçıvan, Böyük Vedi) əraziləri əhatə etmişdir. Mərkəzi şəhəri Naxçıvan şəhəri olmuşdur[22].

Beləliklə, görünür ki, Albaniyanın tarixi əraziləri, tarixi mənbələrdə göstərildiyi kimi, Dərbənddən Tiflisə, Tiflisdən

---

[21] Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı, "Müəllim" nəşriyyatı, 2006, s.39.

[22] Yenə orada, s.41.

Naxçıvanın qərbinə, oradan isə Astaraya kimi uzanırdı. Bu məqamda alban tarixçisi M.Kalankatuklunun məşhur əsərinə müraciət etmək yerinə düşərdi. O, Cavanşirin hökmranlıq etdiyi vilayətlərin hüdudlarını göstərərək yazırdı ki, O, "İberiya sərhədlərindən Dərbəndə və Araz çayına qədər olan torpaqları hakimi-mütləq kimi idarə edirdi"[23]

Albaniya antik mənbələrdə şəhərlər ölkəsi kimi xarakterizə olunur. Belə ki, Strabonun "Coğrafiya" əsərində 30-a yaxın alban şəhərinin adı çəkilir. Albaniya sıx əhaliyə malik ölkə olmuşdur. Ölkənin əsas əhalisini albanlar təşkil edirdilər və Strabonun "Coğrafiya" əsərində albanlardan savayı öz ləhcəsində danışan daha 26 azsaylı tayfanın adı çəkilir. Albanlardan savayı ölkədə tabasaranlar (tavasparlar), çilblər (silvlər), leqlər, xeçmataklar, maskutlar, xəzərlər, hunlar, lpinlər, iskitlər və sakların varisləri savirlər, qatlar, bulqarlar, barsillər, utilər, zakenlər (tsekanlar), xenuklar, kaspilər, qardmanlar, balaslar, akasirlər, sakasenlər, qarqarlar, gellər, ingellər və sair tayfalar yaşayırdılar[24].

Albaniyanın əhalisinin böyük hissəsini türkdilli tayfalar və bu ad altında çıxış edən etnoslar təşkil edirdilər. Türklərlə yanaşı Albaniyada qafqazdilli tayfalar da əhəmiyyətli çəkiyə malik idi.

Albanların adları tarixi mənbələrdə e.ə. IV əsrə aid hadisələrlə bağlı çəkilir. Antik mənbələrdə "alban" anlayışını Albaniyanın bütün əhalisinə aid edirdilər. Lazım gəldikdə alban etnik birliyinə daxil olan ayrı-ayrı azsaylı tayfaların adları çəkilirdi. "Alban" sözünün mənasını Moisey Kalankatuklu ölkənin hakimi Aranın adı ilə izah edir. O, yazırdı: "Onlar öz ölkəsinə Ağvan (Alban) adını ona görə vermişlər ki, Aranın özünü yumşaq

---

[23] Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı,"Avrasiya press", 2006, s.134.

[24] Ağasiyev İ.K. Azərbaycan tarixi (sxemlərdə, xəritələrdə, cədvəl-lərdə). Dərs vəsaiti. Bakı, 2015, s.31.

xasiyyətinə görə "ağu" ("mehriban") deyə çağırırdılar" [25]. "Alban" sözü qədim türk dillərində "cəsur", "igid" deməkdir. Bu gün də türkmən dilində "alpan" və qazax dilində "alban" sözləri işlədilməkdədir.[26]

Albaniyanın əhalisinin müxtəlifliyi heç də bütün əyalətlərə eyni dərəcədə aid olmamışdır. Kür çayının həm sağ, həm də sol sahilləri böyunca eyni dildə danışan albanlar yaşamışlar. Çoxdillilik əsasən Albaniyanın dağlıq əyalətləri olan Çolaya, Lpinaya müəyyən dərəcədə Qəbələyə aid olmuşdur. Bu əyalətlərdə yerli albanlarla yanaşı, indiki Dağıstan ərazisindən köçüb gəlmiş leglər (ləzgilər), lpinlər, silvlər, sadilər, gellər və sair tayfalar məskunlaşmışdılar. Beləliklə, Albaniyanın Dağıstana yaxın ərazilərində hələ qədim zamanlarda ləzgi dil qrupunda danışan əhali məskunlaşmağa başlamış və tədricən cənuba doğru yayılmışdır. Onların varisləri (ləzgilər, buduqlar, qrızlar, xınalıqlar, udinlər və s.) bu gün də Azərbaycanın şimal hüdudlarında, Dağıstanla həmsərhəd ərazilərdə yaşamaqdadır. IV əsrdə xristianlığı qəbul etmiş albanların böyük əksəriyyəti VII əsrdə ərəblər Azərbaycanı işğal etdikdən sonra islam dinini qəbul etdilər. Ərsakda (Qarabağda), Kambisena və Şəki əyalətlərində yaşayan xristian albanların bir qismi öz dinini qorumaq üçün qonşu xristian xalqlara sığındılar. Nəticədə, Alazan ətrafında yaşayan albanlar gürcüləşməyə məruz qaldılar. Bu gün Gürcüstanın Kaxetiya bölgəsində yaşayan gürcülərin əksəriyyətinin albanların nəsillərindən olması ehtimal olunur.

Göründüyü kimi, Albaniyanın ən şimal əyaləti Çola (Dərbənd) əyaləti indiki Dərbənddən Beşbarmaq dağına qədər Xəzər sahili əraziləri əhatə etmişdir. Təqribən eramızdan əvvəl II əsrdə

---

[25] Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı,"Avrasiya press", 2006, s.19.
[26] Əliyarlı S. Tariximiz açılmamış mövzuları ilə. Bakı,"Mütərcim", 2012, s.28.

türkmənşəli massagetlərin yaylaq yerində antik mənbələrdə Çola kimi tanınan şəhər meydana gəlmişdir. E.ə. I əsrdə Çola massaget (maskut) tayfa birləşmələrinin yaratdığı Masqut çarlığının paytaxtı olmuşdur və eramızın I əsrində Çola Albaniyanın tərkibinə daxil olmuşdur[27].

V əsrin birinci yarısında Sasani şahı II Yezdəgirdin hakimiyyəti dövründə Çolada güclü müdafiə qurğuları, məşhur Dərbənd səddi ucaldılmışdı. Moisey Kalankatuklu[28] Çolanın strateji əhəmiyyətindən başqa, bütün Qafqazda ilk xristianlıq ocaqlarından biri kimi ideoloji cəhətdən mühüm əhəmiyyəti barədə də məlumat verir. O, eramızın I əsrində Albaniyada xristianlığı təbliğ etmiş missioner Yelisey haqqında yazaraq bildirir ki,"Yelisey öz sərəncamına Şərqi (Albaniyanı) alır. Qüdsdən ayrılıb İrana gedir və oradan ermənilərin gözündən qaçaraq Məskut elinə keçir. Öz təbliğini O, Çolada başlayır və müxtəlif yerlərdə şagird toplayaraq, onlara xilaskarı (İsanı) andırmağa çalışırdı"[29].

Bu sətirlər I əsrdən xəbər verir. Alban mənbələri bu hadisə ilə Çolanın VI əsrə qədər patriarxlıq mərkəzi olaraq qaldığını təsdiq edirlər[30].

Lpina isə Çolanın şimal-qərbində, Çola ilə Şəki arasında yerləşən vilayətdir. Bu ərazi demək olar ki, başdan-başa fındıq, qoz ağacları ilə zəngin meşələrlə örtülmüşdü. Çola və Lpina vilayətlərinin müəyyən mənada muxtariyyətə malik olması, separatçılıq meylləri Moisey Kalankatuklunun "Albaniya, Lpina və Çola" adlı triadasında öz əksini tapmışdır. Hələ I-II əsrlərdə, Müqəddəs Yeliseyin apostolluğu dövründə o üç ölkənin – Çola,

---

[27]Azərbaycan tarixi. Birinci cild, ən qədimdən – b.e.III əsri). Bakı, "Elm", 1998, s.386.

[28] Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı, "Avrasiya press", 2006, s.19.

[29] Yenə orada, s.20.

[30] Yenə orada, s. 83.

Lpina və Albaniyanın müqəddəsi adlandırılmışdı. Bu triada ilə 626-630-cu illərin siyasi hadisələrində, bütün Albaniyanın, o cümlədən Çolanın xəzərlər tərəfindən işğal edildiyi dövrdə də rastlaşırıq. Xaqan oğlu Şat deyirdi ki, onun atası üç ölkəni – "Albaniyanı, Lpinki və Çolanı əbədi olaraq almışdır[31]. Həmin mülahizəyə əsasən deyə bilərik ki, VII əsrdə Albaniyanın tərkibində olan Lpina və Çola vilayətləri müəyyən daxili müstəqilliyə malik idilər və görünür, elə bu fakt, Albaniyadan sonra həmin yerlərin adının sadalanmasına səbəb olurdu.

**Dərbənddə xəzər türklərinin məskunlaşması.** Erkən orta əsrlərdə Dərbənd ərazisində müxtəlif tayfaların məskunlaşması prosesi davam etmişdir: eramızın əvvələrində bu ərazidə çoxsaylı hun tayfaları məskunlaşdılar və hətta IV əsrdə mərkəzi Çola (Dərbənd) olmaqla Hun çarlığı da mövcud olmuşdur. Xəzərlərlə vuruşan Xosrov Ənuşiravan onlardan 10 minini Azərbaycanda yerləşdirmişdi. VI əsrin ikinci yarısındakı olaylardan bəhs edən əl-Bəlazuri hələ Ənuşirəvanın (531-579) vaxtında "xəzər axınının Dinəvərə  qədər uzandığını, Gürzan və Arranın bu dönəmdə xəzərlərin əlində olduğunu" söyləyir və məhz bu sasani şahının xəzərlərlə qohumluq əlaqəsi qurmağa cəhd etdiyini deyir[32].

VI əsrin ortalarında Dərbənddə yəhudilər yerləşməyə başlamışdılar. Bu dövrdə İrandan çox sayda yəhudi əhalisi Xəzər xaqanlığına və o cümlədən Dərbəndə köçmüşdür. 730-cu ildə xəzərlər yəhudilərin təsiri ilə iudaizmi qəbul etmişlər.

Xəzərlər  əsasən Şimali Qafqaz, Krım və Volqaboyu ərazilərdə yayılmış, bir çox türk mənşəli xalqların etnogenezinin formalaşmasında iştirak etmiş qədim türk tayfalarından biridir.

---

[31] Moisey  Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı, "Avrasiya press", 2006, s.118.

[32] Баладзори.Книга завоевания стран. Баку, 1927. стр. 7,8.

Müxtəlif tarixlərdə xatırlanan xəzər boyları haqqındakı məlumatlar min ildən artıq bir dövrü əhatə edir və belə böyük zaman kəsiyində onların yayıldığı ərazilərin zaman-zaman dəyişdiyini nəzərə almayan bəzi orta əsr salnaməçiləri və son iki əsrdə xəzər məsələsi ilə məşğul olan bəzi alimlər müəyyən yanlış fikirlər söyləmişlər. Hətta, vaxtilə ayrı-ayrı alimlər xəzər boylarını başqa xalqlara aid etmişlər. Ancaq xəzər problemi dərindən öyrənildikcə tarixi gerçəklikdən uzaq olan belə fikirlər gündəlikdən çıxmışdır. Lakin xəzərlərin türk olması artıq şübhə doğurmasa da, onların hansı türk dialektində danışması və ilkin yurdu barədə mübahisələr hələ də davam edir.

Attiladan sonra Hun imperiyası ayrı-ayrı hissələrə parçalandı. Bunlardan biri də az müddətdə Avar dövlətinin vassalına çevrilən xəzər toplumu idi. Bu dönəmlərdə Xəzər dənizinin şimal sahillərində xəzər yurdları şərqdə qüdrətli imperiyaya çevrilmiş Göytürk imperiyasının qərb sərhədlərini əhatələyirdi və bu səbəbdən xəzər bəyləri ilk dövrlərdə Göytürk dövlətinin qərbdə təmsilçisi sifətilə bəhrələnməyə çalışırdılar. Yalnız 558-ci ildən sonrakı dövrlərdə Xəzər toplumunu yönəltən bəylərin istəyi gerçəkləşməyə başladı. Xəzər toplumunun təşkil etdiyi mərkəzləşmə ilə başlanan bölgə bəylərinin birləşməsi nəticəsində tədricən dövlət qurumları ərsəyə gəldi və 630-cu ildə Göytürk imperiyasının süqutundan sonra bugünkü güney Rusiya çöllərində yeni qüdrətli bir Xəzər xaqanlığı doğuldu.

Xəzərlərin ətrafında birləşən türk boylarının bir qismi Xəzərin cənub və qərb qolları ilə yuxarı qalxanlar, bir qismi də saqat, hun və avarlardan qalan tayfalar idi: qamər, kabar, kedar, gögər, ağaçəri, hun, ağ hun, qara hun, haylanturk, saraqur, utiqur, kutriqur, bulqar, savir və s. Yəhudi dinini qəbul etmiş Xəzər xaqanı İosif isə yazdığı məktubda xəzərlərə daha yaxın qohum soy saydığı yalnız on boyun adını çəkir, məktubda bunlardan ikisinin adı tam oxunmur: Uqur, Turis, Avar, Uquz,

Biz.l, T.r.na, Xazar, Yanur, Bulqar, Savir[33]. Orduda muzdlu əsgərlərdən də istifadə edən xəzərlər mahir döyüşçülər idi. Savaşlarda Böyük Xaqan heç vaxt iştirak etməzdi; döyüşə gedən qoşunun başında şad titulu olan xaqanın oğlu və ya yabgu, eltəbər, tudun kimi yüksək dövlət məmuru, bölgə bəyləri, hakim sülalədən olanlar dururdu. Böyük müharibələr vaxtı isə komandan Xaqan bəy olurdu. Tarixi mənbələrdə deyilir ki, savaşda məğlub olub qayıdanları, xüsusilə Xaqan bəyi böyük cəza gözləyirdi, Böyük Xaqan onun var-dövlətini yağmaladır, özünü də ailəsi ilə birlikdə ictimaiyyət qarşısında rüsvay edir, bəzən ölümünə də fətva verirdi.

VII əsrin əvvəllərində Sasani-Bizans müharibəsinin yeni mərhələsi başlandı (603-628-ci illər) və bu müharibələrin əsas meydanı Azərbaycan torpaqları idi. Ümumilikdə, Sasani və Bizans imperiyaları Cənubi Qafqaz uğrunda fasilələrlə 200 ildən artıq bir dövrdə müharibələr aparmış və  bu müharibələr Azərbaycanın təsərrüfatının dağılmasına, məhsuldar qüvvələrin məhv edilməsinə səbəb olmuşdu. VII əsrin birinci rübündə o dövrün daha bir möhtəşəm dövləti – Dərbənddən şimalda yerləşən Xəzər xaqanlığının Sasani-Bizans qarşıdurmasına qoşulması regionda hərbi-siyasi vəziyyəti daha da mürəkkəbləşdirdi. Azərbaycan uğrunda gedən bu mübarizədə Bizans və Xəzər xaqanlığı müttəfiq kimi çıxış edirdilər. 628-ci ildə Bizansla Sasani imperiyası arasında bağlanan sülhə görə Cənubi Azərbaycan torpaqları (Adərbayqan) Sasani dövlətinin tərkibində qaldı. Şimali Azərbaycan (Albaniya) isə daxili müstəqillik elan etsə də, müəyyən dövr siyasi cəhətdən yenə Sasanilərdən asılı vəziyyətdə qalmışdı.

Sasani-Xəzər münasibətləri sabitliyi ilə seçilməmişdir. Xəzərlərə qarşı sasanilər davamlı olaraq digər Qafqaz xalqlarından bacarıqla istifadə edirdilər. Arşakilər sülaləsi dövründə

---

[33] Плетнева С.А. Хазары. М. 1976, стр. 7.

daha çox Bizansa qarşı birgə vuruşan xəzərlər, Sasani sülaləsi vaxtında əksər hallarda Bizansın müttəfiqi kimi çıxış edirdi. Bu siyasət xəzərlərin Azərbaycandakı maraqlarına uyğun qurulur, Azərbaycanda nüfuz dairəsini artırmaq istəyənlərə qarşı olurdu. Məhz, Bizans-Xəzər ittifaqı Sasani dövlətini çökdürdü və islam ordularının tapdağı altına düşən sasanilər 651- ci ildə birdəfəlik məhv oldular.

**Dərbənd Ərəb-Xəzər qarşıdurması dövründə.** Ərəb-Xəzər qarşıdurması 652-ci ildən başlandı. VII əsrin II yarısında IX əsrin I yarısına qədər fasilələrlə ərəblərlə xəzərlər arasında baş vermiş müharibələr ümumi adla xəzər-ərəb müharibələri adlanır. Döyüş əməliyyatları əsasən Azərbaycan, Dağıstan və onlara bitişik ərazilərdə keçirilirdi, Azərbaycan ərazisində olan dövlətlər bu döyüş əməliyyatlarında fəal iştirak edirdilər. Döyüş əməliyyatları əsasən Azərbaycan ərazisində baş verdiyi üçün bu qarşıdurmadan ən çox Azərbaycan xalqı əziyyət çəkirdi.

Sasani-Bizans-Xəzər müharibələri təzəcə ara vermişdi ki, tarixi səhnəyə yeni bir qüvvə - gənc Ərəb dövləti çıxdı.

VI yüzilliyin sonu-VII yüzilliyin başlanğıcı üçün Ərəbistan yarımadasının siyasi birləşməsi, müstəqil ərəb dövlətinin yaranması meyli güclənməkdə idi.

Sasanilər şimalda Bizansla və Xəzərlərlə ağır savaşlar aparırkən, ərəb qəbilələrinin siyasi birləşməsi yeni monoteist din olan İslamın bayrağı altında sona yetişməkdə idi. Fəqət bu din onun yaradıcısı olan Həzrəti Məhəmmədin ilk xələfləri illərində artıq ərəb ali təbəqələrinin istəklərinin silahına çevrildi. Başqa ölkələrə qarşı yürüşlərdə, bu ölkələrdə yaşayan “kafir” xalqların “gerçək, düzgün yola” gətirilməsi hər bir müsəlman üçün yüksək mənəvi borca, müqəddəs bir işə çevrildi. 632-ci ildə peyğəmbər Məhəmməd Həzrətlərinin ölümündən sonra onun yaxın silahdaşı və qayınatası Əbu Bəkr xəlifə seçildi (632-634).Onun hakimiyyəti illərində Ərəbistan yarımadasının dövlət şəklində

birləşdirilməsi prosesi başa çatdı. İslam bütün ərəblərin dini oldu. Zeyd ibn Sabitin başçılıq etdiyi komissiya Qurani-kərimi toplayıb vahid kitab halına saldı[34]. Ömər İbn Xəttabın onillik (634-644) xəlifəliyi dövründə isə islamın və bir dövlət olmaqla Xilafətin (Peyğəmbərin xələfləri tərəfindən idarə olunduğu üçün belə adlanırdı) yer üzünə yayılma dövrü başlandı. İraq, Suriya, Misir tutuldu. Ərəblər Bizans və Sasani imperatorluqlarının hüdudlarına çıxdılar. 633-cü ildə ərəblər Sasani imperiyasına hücum etdilər. Sasanilərdən asılı ölkələr, o cümlədən Albaniya ərəblərə qarşı döyüşmək məqsədilə sərkərdə Cavanşirin başçılığı ilə 20 minlik süvari qoşunu göndərməyə məcbur oldu. Alban çarı, Cavanşirin atası Varaz Qriqor (628-642-ci illər) ölkəni Xəzər basqınlarından qorumaq üçün Sasani imperiyası ilə yaxınlıq əlaqəsi saxlayırdı və bu səbəbdən oğlu Cavanşirin başçılığı ilə ərəblərə qarşı ordu göndərmişdi. Ərəblərlə Sasanilər arasında ilk böyük döyüş 636-cı ildə baş verdi. Tarixdə Kadisiyyə kimi tanınan bu döyüşdə Cavanşirin rəhbərlik etdiyi alban süvariləri böyük şücaət göstərdilər və buna görə Cavanşir Sasani şahı tərəfindən qiymətli mükafatlara layiq görüldü[35]. 638-ci ildə ərəblər Sasanilərin paytaxtı Ktesifonu (Mədaini) mühasirəyə aldılar və alban süvariləri də 6 ay bu şəhərin müdafiəsində iştirak etdilər. Lakin 7 il Sasanilərlə ərəblərə qarşı ağır döyüşlərdə iştirak edən Cavanşir bütün qüvvəsini Albaniyanın müdafiəsinə cəmləşdirməyi qərara aldı ki, bu da Sasani şahının Albaniyaya qarşı qoşun göndərməsi ilə nəticələndi. Mənbələrdən göründüyü kimi, Cavanşir Sasanilərlə üç dəfə döyüşməli oldu. Bərdəyə soxulan Sasanilər Cavanşirin ailəsini, qardaşları, ata və anasını əsir apardılar. Sasani qoşunlarının uğursuzluğu III Yezdəgirdi məcbur etdi

[34] Zeyd Bin Sabit (r.a.) Kimdir?// https://www.islamveihsan.com/zeyd-bin-sabit-r-a-kimdir.html.

[35] Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı, “Avrasiya press”, 2006,s.128.

ki, onun əsir götürülən ailə üzvlərini azad buraxsın. Albaniya ilə Sasani dövləti arasında müvəqqəti barışıq imzalandı. 642-ci ildə qoca Varaz Qriqor çarlıq taxt-tacını oğlu Cavanşirə verdi və Cavanşir 681-ci ilə qədər Albaniyanı idarə etdi. VII əsrin 30-cu illərində Sasani imperiyasının qərb hissəsini ələ keçirən ərəblər Azərbaycan istiqamətində kəşfiyyat xarakterli yürüşlər təşkil etdilər.

639-cu ildə ərəb qoşunu Urmiya gölü tərəfdən Adərbayqana (Azərbaycana) soxuldu. 642-ci ildə Nəhavənd döyüşündən sonra isə ərəblər baş şəhər Ərdəbil üzərinə gələrək, ölkəni tabe etməyə girişdilər. Yerli mərzban İsfəndiyar ibn Fərruxzad qardaşı Bəhramla birlikdə güclü müqavimət göstərdi, ancaq müqavimət bir nəticə vermədi. Mərzban ərəblərlə I Ərdəbil müqaviləsini bağlamağa məcbur oldu. Azərbaycan əhalisi ərəblərə tabe olub torpaq və can vergisi ödəməyi öhdəsinə götürdü. Evində bir ərəb əsgərini saxlayan şəxs bir il vergilərdən azad edilirdi.

Ərəb qoşunu Muğana yollandıqdan sonra Adərbayqan əhalisi Bəhram ibn Fərruxzadın başçılığı ilə üsyana qalxıb müqaviləni yerinə yetirməkdən boyun qaçırdı. 646-cı ildə Xilafətin göndərdiyi yeni qoşun üsyanı yatırdı və yenidən bağlanan II Ərdəbil sülhünə görə, Adərbayqan əhalisi ərəblərə ildə 800 dirhəm vergi ödəməli idi. 639-642-ci illərdə ərəblər Muğan əhalisinin müqavimətini qırdıqdan sonra Şirvana soxuldular. 642-ci ildə Şirvan tam ələ keçirildukdən sonra ərəblər Xəzər sahili ilə Dərbəndə doğru hərəkətə başladılar və ilə həmin il Dərbəndə çatdılar[36].

Ərəblərin şimal istiqamətində əsas məqsədi xəzərlərin nəzarəti altında olan çox mühüm strateji istehkam olan Dərbəndi ələ keçirmək idi. Belə ki, bu barədə Bəlazuri yazır: "639-cu ildə ərəb qoşunlarının bir hissəsi Azərbaycandan şimal-qərb tərəfə keçdi və bir neçə vuruşmadan sonra Mukanı tutaraq əhalisini

---

[36] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Elm", 2005, s.73,74.

cizyə verməyə məcbur etdi". Sonra o yazır: "Bu dəstənin komandanı Bukeyr ibn Abdullah mukanlılarla müqavilə bağladı..... Bukeyr ibn Abdullah Mukandan Xəzər dənizi sahili ilə şimala doğru hücum etdi və həmin il Bab-ül-Əbvaba çatdı"[37]. Dərbənd əhalisi müqavimət göstərmədən tabe oldu və ərəblərlə müqavilə bağladı. Müqavilənin şərtlərinə görə dərbəndlilər şəhərin xəzərlərin basqınlarından qorunmasında fəal iştirak etməli idilər və bunun müqabilində vergilərdən azad olunurdular.

Sonrakı 642-643-cü illərdə xəlifə Ömər Dərbəndə Suraka ibn Əmiri göndərdi. Suraka ordusunun ön dəstəsi Əbdürrəhman ibn Rəbiənin komandanlığı ilə şəhər hasarları yanında Bukeyr ilə birləşdi. Surakanın ölümündən sonra xəlifə Dərbənd yaxınlığındakı sərhəd xəttinə Əbdurrəhman ibn Rəbiəni təyin etdi və ona əmr etdi ki, xəzərlərə qarşı çıxsın. Ərəb atlıları əl -Beyda şəhərinə çatıb onu işğal etdilər. Lakin Bələncər yaxınlığında xəzərlər ərəbləri məğlub etdi və onların komandanı Əbdurrəhman ibn Rəbiə döyüşdə öldürüldü.[38] Bundan sonra 646-cı ildə onun qardaşı Salman ibn Rəbiə öz qoşunları ilə Azərbaycana göndərildi. Onun qarşısında strateji məntəqə olan Dərbəndi ələ keçirmək, xəzərlərin cənuba yürüşlərinin qarşısını almaq vəzifəsi qoyulmuşdu. Naxçıvandan keçərək Beyləqanı, Bərdəni, Şəmkiri, Şəkini, Qəbələni, Şirvanı, Şabranı ələ keçirən Salman ibn Rəbiə Dərbəndə çatdı və xəzərləri bu şəhərdən qovdu.

652-653-cü illərdə o Şimali Qafqaz ərazisinə soxulur və xəzər qoşunları ilə Bələncər şəhəri yaxınlığında qarşılaşır. İkinci Bələncər döyüşündə Salman ibn Rəbiənin də öldürüldüyü barədə məlumatlar var. Ziya Bünyadov bu barədə yazır: "Sonra Salmanın dəstəsi Dərbənddən şimala doğru hərəkət etdi, lakin Bələncər çayının o tayında xəzər qoşunları ilə qarşılaşdı və qanlı

[37] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Elm", 2005, s.93.
[38] Yenə orada.

vuruşmadan sonra, demək olar ki, bütün dörd minlik dəstə qırıldı, Salmanın özü isə öldürüldü”[39].

Göründüyü kimi, ilkin ərəb yürüşləri keçirilərkən, Cənubi və Şimali Azərbaycan torpaqlarında köklü sosial-siyasi-mənəvi sarsıntılar törədilməsi nəzərdə tutulmurdu. Ərəblər hələ yerli dini görüşlər üzərinə barışmaz yasaq qoyub islamın sözsüz qəbul edilməsini tələb etmirdilər. Ələ keçirilən bölgələrdə onlar ilk öncə Xilafət ağalığını hərbi-siyasi baxımdan qəbul etdirmək, bir də məğlub xalqı torpaq (xərac) və can vergisi (cizyə) ödəməyə məcbur etmək istəyirdilər. Buna görə də, Xilafət ağalığı “ikitərəfli” barışıq şəklində yazılı olaraq sənədləşdirilirdi. Ərəb yürüşləri hələ “yumşaq” xarakter daşıyırdı.

Albaniyanın siyasi vəziyyəti getdikcə mürəkkəbləşirdi. 639-653-cü illərin ərəb yürüşləri ölkənin müstəqilliyinin tam ləğvinə gətirməsə də, Cavanşir başa düşürdü ki, bu cür vəziyyət çox davam etməyəcək və gələcəkdə Xilafətin Albaniyaya iddiaları daha təcavüzkar xarakter alacaqdır. Ancaq vəziyyətdən çıxış yolu axtarışında olan alban əyanları heç də həmfikir deyildilər. Atası Varaz Qriqor daha çox ərəb asılılığına meyl göstərdiyi halda, Cavanşir özü Bizans imperiyası ilə yaxınlığa üstünlük verirdi. Cavanşir Bizans imperatoru II Konstantinə müraciət məktubu ünvanladı, onun himayədarlığını qəbul etmək arzusunu bildirdi və müsbət cavab aldı[40]. 654-cü ildə Albaniya ilə Bizans arasında müttəfiqlik haqqında müqavilə bağlandı. 660-cı ildə Cavanşirin II Konstantinlə ikinci görüşü baş tutdu. Cavanşirin Bizansla yaxınlaşması həm ərəblərə qarşı müharibədə müttəfiq qazanmaq, həm də dövlətin sərhədlərinin xarici basqınlardan qorunması məqsədi güdürdü. Bu dövrdə şimaldan xəzərlərin hücumları daha da kəskinləşmişdi. 662-ci ildə

---

[39] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, ”Elm”, 2005, s.95.
[40] Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı, “Avrasiya press”, 2006,s.134.

Albaniyaya soxulan xəzərlər Kür sahilində məğlub olub geri qayıtdılar. 665-ci ildə xəzərlər daha böyük qüvvə ilə Albaniyaya hücum etdilər. Xəzərlərin hücumlarının dəf edilməsində çətinlik çəkən Cavanşir onlarla sülh bağlamağa və Xəzər xaqanının qızı ilə evlənməyə məcbur oldu[41]. Xəzərlər qarət edilmiş mal-qaranı, əsir aparılan əhalini geri qaytardılar. Albaniya Xəzər xaqanlığından asılı vəziyyətə düşdü.

Xilafət daxilindəki çəkişmələr iki xəlifənin - Osman ibn Əffanın (644-656) və Əli ibn Əbu Talibin (656-661) öldürülməsi ilə başa çatdı. Haşimilər sülaləsi hakimiyyətdən uzaqlaşdırıldı. Əməvilər sülaləsinin (661-750) banisi, Suriya hakimi I Müaviyə hakimiyyəti ələ keçirdi. Beşinci xəlifə paytaxtı şimala, Bizans və Qafqaza yaxın olan Dəməşqə köçürdü. Albaniyanın vəziyyəti kəskin şəkildə pisləşdi. Bizans özü ağır günlər yaşadığı üçün Cavanşirə kömək əli uzatmaq durumunda deyildi. Cavanşir xilafətlə yaxınlaşmağı qərara aldı. O, 667-ci ildə Dəməşqə gedib danışıqlar apardı. Yaxşı qəbula baxmayaraq, I Müaviyənin ağır şərtləri ilə razılaşıb, xəzinə gəlirinin üçdə ikisini Xilafətə verəcəyini öhdəsinə götürdü. Bu birtərəfli güzəştlər qarşısında Cavanşir knyaz titulunu, daxili  hakimiyyətini saxladı, başlıcası isə ölkəsini ərəb qoşunlarının gözlənilən basqınından qurtardı.

Cavanşirin Dəməşqə ikinci səfəri 670-ci ilə təsadüf edir. Bu səfər zamanı Cavanşir böyük hörmətlə qarşılanmış, hətta Bizansdan gələn nümayəndələrlə danışıqlar zamanı Xəlifə ondan vasitəçi olmağı xahiş etmişdi. Xəlifənin isti münasibətindən yararlanaraq, Cavanşir əhalisindən toplanan verginin miqdarını endirməyə nail olmuşdu. İndi Albaniya yığılan verginin üçdə ikisini deyil, üçdə birini Xilafət xəzinəsinə göndərməli idi. Xəlifə Cavanşirə çoxlu hədiyyələr vermiş, Kür və Araz ərazilərini əhatə edən Sünik knyazlığının idarə edilməsini ona tapşırmışdı.

---

[41] Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı, “Avrasiya press”, 2006,s.140.

Kür çayından şimaldakı alban ərazilərini Xəzər türkləri idarə edirdilər. Cavanşirin uzaqgörən siyasəti Albaniyanı bizanslıların, ərəblərin və xəzərlərin qarətindən qurtardı. Ölkə sabitlik qazandı, inkişaf üçün şərait yarandı, şəhərlər abadlaşdırıldı, gözəl məbədlər inşa edildi. Ticarət yenidən canlanmağa başladı. Lakin Cavanşirin müsəlman ölkəsi Ərəb xilafətilə yaxınlaşması, islam dininə hörmətlə yanaşması, sarayda qərar tutmuş bizanspərəst knyazların ürəyincə deyildi və 681-ci ildə onlar Cavanşirə qarşı sui-qəsd təşkil etdilər. Arxadan ağır qılınc yarası alan Cavanşir üç gün yaralı yatdıqdan sonra dünyasını dəyişdi[42]. Hakimiyyət Cavanşirin qardaşı oğlu I Varaz Tridatın əlinə keçdi. Xəlifə I Yezid I Varaz Tridatı "Şərq vilayətlərinin padşahı, Alban hökmdarı..." kimi tanıdı. I Varaz Tridat taxta çıxan kimi Xəzər xaqanı Alp İlitverin böyük Xəzər ordusu, kürəkəni Cavanşirin qisasını almaq və ailəsini qorumaq məqsədi ilə Albaniyaya hücum etdi, Qəbələ və Bərdə talan edildi. I Varaz Tridat böyük məbləğdə xərac verərək xəzərlərlə sülh bağlamağa məcbur oldu[43].

Cavanşirin öldürüldüyü 681-ci ildə, xəlifə I Müaviyə də dünyasını dəyişdi və bundan sonra xilafətdə hakimiyyət uğrunda mübarizə kəskinləşdiyindən ərəblər Albaniyada baş verənlərə qarışa bilmədilər. Lakin VIII əsrin əvvəllərindən xilafət yenidən Albaniyanın daxili işlərinə qarışmağa başladı. Bunun səbəblərindən biri də Albaniyanın tamamilə Bizansyönümlü siyasət aparması idi. Belə ki, Alban kilsə patriarxı Nerses Bakurun dövründə (688-704) dualarda daha çox Bizans imperatorunun adı çəkilir, Xilafətin hökmləri rədd edilirdi. Alban patriarxlığının ləğv edilməsinə çalışan erməni katalikosu bu fürsəti əldən vermədi və

---

[42] Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı,"Avrasiya press", 2006, s.155

[43] Yenə orada, s.161.

patriarx Bakurun siyasəti haqqında xəlifəyə məktub yazdı və albanları cəzalandırmağı xahiş etdi[44].

Məktub Əməvilər sarayında narahatlıq yaratdı və tezliklə xəlifə Əbdülməliyin göstərişi ilə Albaniyaya qarşı cəza qoşunu göndərildi. 705-ci ildə sərkərdə Məhəmməd ibn Mərvanın qoşunları Albaniyanı işğal etdi və ərəblər Albaniyanın müstəqilliyinə son qoydular. Bu hadisədə alban hökmdarlarının Bizansyönümlü siyasət aparması əsas səbəb olmuşdu. Bununla da, 705-ci ildə Albaniya bir dövlət kimi siyasi səhnədən silindi. Sonuncu alban çarı olan Şeruyyə ailə üzvləri ilə birlikdə həbs olunaraq Dəməşqə aparıldı və 3 il həbsdə saxlanıldıqdan sonra edam edildilər. Bu hadisədən sonra Azərbaycanı tutmaq uğrunda Xəzər-Ərəb qarşıdurması yenidən qızışdı.

100 ilə yaxın davam edən bu qarşıdurmada gah ərəblər, gah da xəzərlər uğur qazanırdılar. 707-708-ci illərdə Cənubi Qafqaz canişini təyin olunmuş Məhəmməd ibn Mərvan qardaşı oğlu Məsləməni Xəzərlərə qarşı göndərdi. 707-708-ci illərdə Məsləmə Azərbaycanda təslim olmamış bütün qalaları tutub, türklərlə döyüşə-döyüşə Babül - Əbvaba çatdı[45].Göründüyü kimi türklər (yəni xəzərlər) artıq o dövrdə Azərbaycanda Dərbənddən cənubda da yerləşmişdilər. Xəzərləri Dərbənddən şimala qovan Məsləmə geri - əmisinin yanına qayıtdı.

709-710-cu illərdə Məsləmə türklərə qarşı yeni hücuma keçdi “və Azərbaycan vilayətində əl-Baba çatdı, burada şəhər və qalaları aldı”. 710-711-ci illərdə Məsləmə Dərbəndə çatdı, lakin şəhəri yalnız 714-cü ildə ala bildi[46]. Ərəblər bilavasitə Xəzər xaqanlığının ərazisində müqavimətlə qarşılaşdılar və geri çəkildilər.

---

[44] Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı, “Avrasiya press”, 2006, s.187.

[45] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, ”Elm”, 2005, s.121.

[46] Yenə orada, s.124.

Xəlifə II Yezidin vaxtında 722-723-cü illərdə xəzərlər qıpçaq və başqa türk tayfalarının köməyilə təqribən 30 minlik qoşunla yenidən Arrana soxuldular. Mərc əl Həcərdə onları ərəblər qarşıladılar. Ərəblər məğlub oldular və onların düşərgəsi xəzərlərin əlinə keçdi. Həmin ildə II Yezid Cənubi Qafqaz canişini vəzifəsini Məsləmənin qardaşı Əl-Cərraha tapşırdı. O, 722-725-ci illərdə Cənubi Qafqaz canişini vəzifəsini tutmuşdu. Xəlifə Əl-Cərraha 25 minlik qoşun verərək, xəzərlərə qarşı müharibəyə başlamasını əmr etdi. Lakin xəzərlər böyük ərəb ordusunun hücuma keçdiyi xəbərini alıb Dərbəndə tərəf çəkildilər. Cərrah Bərdəyə yaxınlaşdı, orduya dinclik verdi, sonra Kürdən keçərək, Dərbəndə yaxınlaşdı. Xəzərlərin xaqanı Barçikin komandası altında 40 minlik ordu Cərraha qarşı göndərildi. Vuruşma nəticəsində xəzərlər məğlub oldu, onların çoxu isə əsir düşdü. Əl-Cərrah xəzərlərə qarşı bir necə uğurlu yürüş təşkil etdi. Ərəblər Hamzin və Tarqu şəhərlərini tutdular və Bələncərə çatdılar. Qala qarnizonu qısa vuruşmadan sonra təslim oldu və ərəblər çoxlu qənimət əldə etdilər[47].

Mənbələrdə göstərilir ki, Cərrah bu şəhərlərin əhalisini Arran ərazisinə, xüsusi ilə Qəbələ mahalına köçürtdü ki, əvvəlki dövrlərdən burada xəzərlərin məskən saldığı kəndlər var idi[48]. Bu barədə Abbasqulu ağa Bakıxanov belə yazır: “103-cü (722) ildə Əbd-ül-Əziz öldü. O vaxtkı xəlifə Yezid ibn Əbd-ül-Malik Əbu Übəyda Cərrahı 6 minlik qoşunla Dərbənd qarnizonun köməyinə göndərdi. Cərrah Müskürə gəldi, bütün ətrafdan qoşunları yığdı və Rubas çayı qırağında düşərgə saldı. Orada o, hələ islamı qəbul etməmiş tabasaranlı və qaytaqlı əmirləri yanına çağıraraq, onlara dedi: “Mən bura Ərəbistandan xəzərlərlə döyüşmək üçün gəlmişəm və istəyirəm ki siz mənə kömək edəsiniz”[49].

[47] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, ”Elm”, 2005, s.123.
[48] Yenə orada.
[49] А.А.Бакиханов. Гюлистани-и Ирам, Издательство «Эльм», Баку -1991, s.51

Göründüyü kimi, buranın yerli əhalisi kitab əhli idi, əks halda Cərrah müsəlman olmayan əhalidən zimmi kimi açıq-aşkar yardım istəməzdi. Çox guman ki, burada yaşayan əhali əvvəllər, Albaniya dövründə xristianlığı qəbul etmiş və bir müddət Albaniyanın tərkibində olmuşdu.

Dəhşətli vuruşma başladı. Xəzərlər darmadağın edildi və onların düşərgəsi qalibə çatdı. Müsəlmanlar onları qovaraq talan və qətl imkanını əldən vermirdilər. Həmin gün 7000 xəzər və 2000 ərəb döyüş meydanında qaldı. Xaqanın oğlu çətinliklə Ənci (indiki Maxaçkala-**müəllifdən**) şəhərinə çatdı.

Cərrah, Qayakənd yanındakı yüksəklikdə yerləşən, və dəniz görsənən Hasin qalasını aldı, Səməndərə (Tərki) getdi. Bələncərdən sonra Cərrahın ordusu Vəbandər (ya da Vənandər) şəhərini aldı. Burada 40 min türk evi vardı. Bu ordu xaqanlıq ərazisinə daha bir neçə yürüş etdikdən sonra, qışlamaq üçün Şəki vilayətinə çəkildi. Tezliklə Cərrah, Tiflisi almaqla və Gürcüstanı və alanları Xilafətə tabe etməklə, Qafqazda daha bir neçə uğurlu kampaniya keçirdi[50].

730-cu ildə Xəzər xaqanının oğlu Barsbəyin başçılıq etdiyi 300 minlik xəzər ordusu bütün Azərbaycanı ələ keçirib Savalan dağı yaxınlığında ərəb ordusunu darmadağın etdi. Ərəblər daha da cənuba irəliləyən xəzərləri yalnız Hilat şəhəri yaxınlığında dayandıra bildilər. Əks-hücum nəticəsində ərəblər xəzərləri bütün Azərbaycandan qovub Dərbənddən şimala sıxışdıra bildlər. 709-732-ci illərdə fasilələrlə Cənubi Qafqaz canişini təyin olunan Məsləmə ibn Əbdulmalik şimalda Bələncərə qədər irəliləyərək xəzər türklərini məğlub etməyi bacardı.

737-ci ildə Mərvan ibn Məhəmməd Alan qapıları (Dəryal dərəsi) vasitəsilə xəzərlərin arxasına keçdi, onlara sarsıdıcı zərbə vurub Dərbənd vasitəsilə Azərbaycana qayıtdı. VIII əsrin 90-cı illərində 100 minlik xəzər qoşunu yenə Azərbaycanı ələ keçirsə

[50] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, ”Elm”, 2005, s.124.

də, xəlifə Harun ər-Rəşidin qoşunları tərəfindən geri oturduldu. Beləliklə, Azərbaycan uğrunda gedən 100 illik xəzər-ərəb savaşı Ərəb xilafətinin xeyrinə başa çatdı.

Şimali Qafqazda, o cümlədən Dərbənddə xəzərlərə ən yaxın olan barsil türk tayfaları da yaşamışdır[51]. Doğrudur, bəzi tarixi qaynaqlar barsilləri hun və bulqar boyları içində verir, lakin Musa Kalankatlı da xəzər - barsil birləşməsindən danışır.

Azərbaycan türklərinin etnogenezində və Azərbaycan dilinin formalaşmasında xəzərlərin böyük rolu olmuşdur. Təsadüfi deyil ki, müasir Azərbaycan dilinin bəzi dialektlərinin yaranması xəzərlərlə bağlanılır. Eramızın ilk əsrlərindən başlayaraq xəzərlər Şimali Qafqazdan mütəmadi olaraq Azərbaycan Albaniya dövlətinin ərazisinə yürüşlər edirlər. VIII-IX əsrlərdə xəzər-ərəb müharibələri zamanı döyüşlərin əksəriyyəti məhz Azərbaycan ərazisində baş vermişdi. Bunların nəticəsində xəzərlərin bir hissəsi tədricən Azərbaycan ərazisində məskunlaşmışdı.

Xəzərlərə qalib gələrək Azərbaycanda möhkəmlənən ərəblər öz ənənəvi siyasətini həyata keçirməyə başladılar. Ərəblər Azərbaycanı özününküləşdirmək, onu xilafətin ayrılmaz hissəsinə çevirmək siyasəti yürüdürdülər və bu məqsədə çatmaq üçün islamlaşma və ərəbləşdirmə tədbirləri həyata keçirilirdi. İslamlaşma siyasəti ehtiyatla aparılırdı. Ərəblər yerli əhalinin rəğbətini qazanmaq üçün mülayim davranır, tutduqları əraziləri müqavilələr əsasında idarə edir, bir çox məsələlərdə güzəştə gedirdilər. Yerli əhali ilə bu cür rəftar normaları hələ xəlifə Əbu Bəkr tərəfindən tövsiyə edilmişdi. Ərəblər vergi, mülkiyyət, torpaq və sair məsələlərdə Sasani imperiyası dövründəkindən daha mütərəqqi qaydalar qoymuşdular ki, bu da yerli əhali arasında onlara və onların təbliğ etdiyi yeni dinə - İslama qarşı xoş münasibət formalaşdırırdı. Ərəb işğalı ərəfəsində Cənubi Azərbaycanda

---

[51] Ağayev R. Ərəb xilafəti dövründə Azərbaycanin əhalisi. Bakı, Turxan NPB, 2017, s.67.

əsasən zərdüştlük (zərdüştçülük), Şimali Azərbaycanda isə xristianlıq, zərdüştlük və bütpərəstlik yayılmışdı.

Dini müxtəliflik ölkədə, xüsusən Albaniyada tez-tez daxili sabitliyin pozulmasına səbəb olurdu. Ərəblərin gətirdiyi islam dini əvvəlki dini etiqadlarla müqayisədə daha humanist, ədalətli, gələcəyə ümidverici, obyektiv idi. İslam insanların etnik mənsubiyyətinə, irqinə, cinsinə görə fərq qoymur, hamını Allah qarşısında bərabər sayır, insanları pis əməldən çəkinməyə, xeyirxahlıq etməyə, kasıbların, kimsəsizlərin əlindən tutmağa, halal zəhmətlə yaşamağa çağırırdı. Məhz bu cəhətlərinə görə islam dini zərdüştlüyün və bütpərəstliyin daha çox yayıldığı Cənubi Azərbaycanda, Muğanda, Mildə, Kür və Araz çayı boyunca daha sürətlə yayılmağa başladı. Şimali Azərbaycanın Dağlıq Qarabağ, Balakən-Şəki, Qəbələ-Şamaxı kimi dağlıq ərazilərində xristianlıq kök saldığından bu ərazilərdə islamın yayılması zəif gedirdi. Ərəblər yerli əhalinin dini inanclarına, xüsusən xristianlığa hörmətlə yanaşırdılar. Çünki müqəddəs Qurana görə xristianlar da kitab əhli sayılırdılar və tək Allaha inanırdılar. Xristian əhalisindən vəzifə sahibi olmaq istəyən feodallar, daha geniş imtiyazlara malik olmaq istəyən tacirlər İslam dinini qəbul edirdilər.

Xilafət Azərbaycanda ərəbləşdirmə siyasəti də həyata keçirirdi və bunun tərkib hissəsini köçürmə siyasəti təşkil edirdi. Möminlər uzaq ölkələrdə savaşmaqla bərabər, həm də hicrət edib burada yerləşməli idilər. Onlar üçün bu müqəddəs borc işi sayılırdı.

Öz hərbi-siyasi ağalığını bərkitmək üçün Xilafət Azərbaycanın ayrı-ayrı bölgələrinə ərəb əhalisini köçürməyə başladı. Suriya, Kufə, Bəsrə və başqa yerlərdən ərəb mühacirləri bölük-bölük Kür-Araz ovalığına köçməyə başladılar. Onlar bərəkətli torpaqları asılı kəndlilərlə birlikdə tutur, oturaq yaşayışa keçirdilər. Xilafət Azərbaycanda ərəb əsgər ailələrini və təqaüdə çıxmış əyanları, hərbçiləri yerləşdirməkdə daha çox maraqlı idi. Bir tərəfdən dövlət xəzinəsi onlara çəkdiyi xərclərdən azad

olurdu, digər tərəfdən işğal olunmuş ərazidə Xilafətin sosial-hərbi dayaq nöqtələri yaradılırdı.

Ərəblərin Azərbaycanda yerləşdirilməsi hələ VII əsrin ortalarından başlamışdır. İlk köçkünlər Ərdəbildə yerləşdirilmişdilər. Sonralar Bərdə, Beyləqan, Şamaxı, Şəmkir, Aran, Muğan, Şirvan ərazilərində də ərəblər məskunlaşdırıldı. Öz ailələri ilə birlikdə yaşayan ərəb hərbçiləri yerli əhalinin hesabına saxlanılırdılar. Təkcə sərkərdə Məsləmə Dərbənd şəhərində 24 min ərəb yerləşdirmişdi[52]. Ərəb köçkünlərə istədikləri qədər torpaq verilir, bəzi hallarda bütün kəndlər onlara bəxşiş edilir, yerli sakinlər isə onların işçilərinə çevrilirdilər. Mühacir ərəblər yerli əhaliyə yuxarıdan-aşağı baxır, özlərini imtiyazlı kimi aparırdılar. Ərəblərin Azərbaycanda məskunlaşdırılması Abbasilər sülaləsinin hakimiyyəti illərində də davam etmişdi. Bu dövrdə Azərbaycana daha çox Yəmən ərəbləri köçürülürdü. Köçürmə siyasətinin başlıca məqsədi strateji əhəmiyyətə malik Azərbaycanda Xilafət hakimiyyətinə dayaq yaratmaq, xəzərlərə qarşı sərhədləri bərkitmək, yerli əhalini itaətdə saxlayıb vergilərin aramsız toplanmasını və islamın yayılmasını təmin etmək idi. Bu siyasət son nəticədə Azərbaycanda demoqrafik durumun dəyişilməsinə, yerli əhalinin ərəbləşdirilib assimilyasiya edilməsinə, bir sözlə buranın bir ərəb yurduna çevrilməsinə yönəlmişdi. Lakin ərəb köçkünlərin üzərinə qoyulan bu vəzifə həyata keçirilmədi. Ərəb dilinin nəsildən nəslə keçməsini təmin etmək mümkün olmadı. İşğalçı köçkünlər Ərəbistanın mədəniyyət mərkəzlərindən ayrı düşdülər. Azərbaycandakı ərəb yaşayış "adacıqları" oturaq yaşayışa keçərək, yerli əkinçilik mədəniyyətinə və ənənələrinə bağlandılar. Onlar getdikcə yerli Azərbaycan türklərinin dilinə, adət-ənənələrinə, bütünlükdə yaşayış və davranış dünyasına qovuşaraq türkləşdilər, bir sözlə özləri assimilyasiyaya uğradılar.

---

[52] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Elm", 2005, s.150.

Hal-hazırda ərəb məskunlaşmasından bu günümüzə yalnız bir çox yaşayış məntəqələrinin adı qalmışdır ki, onlara da Şirvanın aran hissəsində daha çox rast gəlinir. İndi Orta Asiya, Əfqanıstan və bəzi başqa yerlərdən fərqli olaraq, Azərbaycanda ərəbcə danışığı qalan bir kənd belə yoxdur.

VII əsrin ortalarında Dərbənd ərəblər tərəfindən işğal olundu[53]. Xilafətin Şimal ölkələri ilə ticarət mübadiləsində əhəmiyyətli mövqe tutan "Qapılar qapısı" Bab əl-Əbvab-Dərbənd Bərdədən sonra Albaniyanın ikinci böyük şəhəri idi[54].

Ərəb müəllifi Təbərinin "Tarix" əsərində Dərbəndin məhz Azərbaycanın şimal sərhəddi olmasına dəlalət edən çoxsaylı faktlara rast gəlinir[55]. Xəzərlərin hücumlarından bəhs edən Təbəri onların ərəbləri məğlub edərək Dərbənddə Azərbaycandan çıxardıqlarını dəfələrlə qeyd edir. O, VIII əsrdə baş vermiş hadisələrdən bəhs edərkən Azərbaycanın şimal sərhədinin məhz Dərbənd şəhəri olduğunu qətiyyətlə bildirir.

709-cu ilə aid hadisələrdən bəhs edərkən Təbəri yenə Azərbaycanın şimal sərhədinin məhz Dərbəndə qədər uzanmasına və ölkədə türklərin yaşamasına işarə edir[56].

Ərəb xəlifələri Dərbəndin strateji və ticarət-ötürücü məntəqə kimi xüsusi əhəmiyyətini nəzərə alaraq, onun azad şəhər statusunu saxladılar. Şəhəri əmirlər və ya rəislər şurası idarə etməyə başladı.

Hələ 736-cı ildə xəlifə Hişamın dövründə Əsəd ibn Zafir başda olmaqla Dərbəndə göndərilmiş 400 dövlət məmuru bu idarəçiliyin əsasını qoydu[57]. Şəhərin idarəçiliyinə rəhbərlik edən rəislər rəisi nizamnamə çərçivəsində onun mühafizəsini təşkil et-

---

[53] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı,"Elm",2005, s.74.

[54] Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира. Сочинение в 9-ти томах. Т. 2. Ч. 1. М., 1963. С. 681.

[55] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı,"Elm",2005, s.105.

[56] Yenə orada, s.105.

[57] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı,"Elm",2005, s.206.

məli, qanun-qaydanı və təmizliyi gözləməli oldu. Dərbənd qalasında, eləcə də digər sərhəd qalalarında yerləşdirilmiş hərbi hissələr xidmət müqabilində, xəzinədən maaş almır, yerli ehtiyatlar hesabına saxlanılırdılar. Xəlifənin sərəncamı ilə sərhədyanı bölgənin "kafir" düşmənlə üz-üzə qalan döyüşçü-qazi əhalisinə vəqf payı kimi bütöv vilayətlərlə yanaşı, Abşeronun neft və duz yataqlarından əldə olunan gəlirlər də verilirdi. Xəlifə Harun ər-Rəşid dövründə şəhərlilərin rifahını yaxşılaşdırmaq üçün Dərbəndə Rubas çayından bir neçə kanal çəkildi, burada bağ və bostanlar salındı, dəyirmanlar tikildi.

Harun ər-Rəşidin ölümündən sonra I Haşim ibn Suraka tərəfindən Dərbənd əmirliyi yaradıldı. Dərbənd əmirliyini idarə edən Haşimilər sülaləsi onun adı ilə adlanmışdır. Onun ata-babaları VII əsrin ortalarında ərəb qoşunlarının tərkibində Dərbəndə gəlmiş və burada məskunlaşmışdılar.

851-ci ildə ərəb Neron adlandırılan xəlifə Mütəvəkkil (847-861) Dərbənd və ətraf əraziləri Dərbənd hakiminin irsi mülkü kimi tanımış[58] və 861-ci ildə I Haşim ibn Suraka Dərbənd əmiri olmuşdur. Bu dövrdə Ərəb Xilafətini daxili çəkişmələr bürümüşdü, Xilafətdə sülalə böhranı yaşanırdı. Ərəb Neron Mütəvəkkilin (847-861) ölümündən sonra hakimiyyət qısa bir zaman kəsiyində bir neçə dəfə dəyişilmişdi: 861-862-ci illərdə Müntəzir, 862-866-ci illərdə Müstəin, 866-869-cu illərdə Əl-Mutaz, 869-870-ci illərdə I Muxtadi hakimiyyətdə olmuşlar[59]. Göründüyü kimi, 9 il ərzində 4 xəlifə dəyişmişdi. O, ərəb xilafətindəki daxili ixtilaflardan istifadə edərək 869-cu ildə Dərbənd əmirliyini müstəqil elan etdi. Dərbənd əmirliyi Azərbaycanın şimal-şərqində yerləşirdi. Paytaxtı Dərbənd şəhəri idi. Dərbənddən sonra ən əhəmiyyətli şəhərləri Məsqət və Şabran olmuşdur. 883-cü ildə Dərbənd əmirliyi xəlifə Əl- Mütəmid (870-892) tə-

---

[58] Гусейнов Г. Энциклопедия города Дербента. Махачкала, Из-тельство «Лотос», 2015, с.47.
[59] Арабский халифат// https://ru.wikipedia.org/wiki.обр.19.11.2022.

rəfindən tanınmış, Bakının neft mədənləri və duz göllərinin idarəçiliyi Dərbənd əmirlərinə həvalə edilmişdi[60].

Beləliklə, IX əsrin sonuna Dərbənd əmirliyinin ən önəmli şəhərləri sırasına Bakı da əlavə olundu. Əmirlik siyasi quruluşuna görə monarxiya idi, yəni hakimiyyət irsi xarakter daşıyırdı. Əmirdən sonra əmirliyin idarə olunmasında rol oynayan ikinci şəxslər rəislər idi. Rəislik də atadan oğula keçən bir titul idi. Dərbənd əmirliyinin xüsusiyyəti onda idi ki, əmir titulu irsən ötürülsə də, bu titula namizəd rəislər tərəfindən təsdiqlənməli idi. Əgər, hər hansı bir namizəd rəisləri qane etməzdisə, o, əmir seçilə bilməzdi və əvəzinə əmir sülaləsindən olan başqa namizəd irəli sürülə bilərdi.

Əmirliyin dövlət dili ərəb dili olmuşdur və sonrakı dövrlərdə Dərbənddə yaşayan ərəb nəsilləri tam türkləşmiş və dövlət idarəçiliyində türk dilindən istifadə edilmişdir. Kargüzarlıq isə yalnız ərəb dilində aparılırdı. Ticarətdə ərəb pullarından – dirhəm və dinardan istifadə edilirdi. Əmirliyin əhalisinin əsas hissəsini hələ eramızdan əvvəl VII-VI əsrlərdən Dərbənddə məskunlaşan müxtəlif türk tayfaları təşkil edirdi. VII əsrin ortalarından burada yurd salan gəlmə ərəb əhalisi də əhəmiyyətli çəkiyə malik idi. Dağıstan xalqlarına yalnız ucqar kəndlərdə rast gəlinirdi. Onlar Dərbənd şəhərinə yalnız alış-veriş etmək üçün gələrdilər.

I Haşim ibn Surakadan sonra haşimilər nəslindən olan daha 21 əmir növbə ilə Dərbəndi idarə etmişdir[61]. Əmirliyin son illəri ara müharibələri ilə keçmişdir. Belə ki, əmir II Maymunun (ikincinin) dövründə əvvəlcə şəddadilər, daha sonra – 1065-ci ildə Şirvanşah I Fəribürz Dərbəndi talan etmişdir[62]. Elə həmin il

---

[60] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı,"Elm", 2005, s.174.

[61]. Рыжов К. В. Все монархи мира. Мусульманский Восток VII-XV вв. Вече, 2004, с. 479.

[62] Минорский, В.Ф. История Ширвана и Дербенда X-XI веков. / Минорский В. Ф. – Москва: Директ-Медиа, 2011, с. 58,59.

Müfərric adlı tanınmış rəislərdən biri 6 yaşlı şahzadə III Əbdülmalik ibn Ləşkərinin adından istifadə edib II Maymunu devirmişdir. Lakin III Əbdülmalik 1075-ci ildə devrildi, həbs edildi və II Maymun hakimiyyətə qaytarıldı.

1075-ci ilin dekabrında II Maymun səlcuqlar tərəfindən devrildi və Dərbənd əmirliyinin əraziləri Səlcuq imperiyasının vassalı Şirvanşahlar dövlətinə birləşdirildi [63]. Bundan sonra Dərbənddə səlcuq türkləri də məskunlaşmağa başlamışlar.

Beləliklə, erkən orta əsrlərdə Çola ərazisində hunlar, xəzərlər, barsillər, savirlər, qatlar, bulqarlar və sair türkmənşəli tayfalar məskunlaşmışlar[64]. Sasani işğalı dövründə Dərbənddə az sayda tatlar, VII əsrdən isə ərəblərdən qaçan yəhudilər yerləşdirilmişdir. Dərbəndin ərəblər tərəfindən istilası və islam dininin yayılması ilə əlaqədar Dərbənddə minlərlə Suriya ərəbləri də yerləşdirilmişdi[65].

Göründüyü kimi, VII-VIII əsrlərdə Dərbənddə müxtəlif türksoylu tayfalar, yəhudilər, ərəblər yaşayırdılar və türklərin dominantlığı heç bir şübhə yeri qoymur. Hətta şəhərdə məskunlaşan ərəb və sair etnoslara türk dil mədəniyyətinin təsiri o qədər önəmli olmuşdur ki, artıq XI əsrdə Dərbəndin ərəb əhalisinin türkləşməsi və yerli əhali ilə tam qaynayıb qarışması prosesi başa çatmışdır.

XI əsrdən Şirvanşahlar dövlətindən asılı vəziyyətə düşən və 1071-ci ildən səlcuq türkləri tərəfindən tabe etdirilən Dərbənd əhalisinin etnik tərkibində türk-oğuz elementinin mövqeləri daha da güclənmişdir. Tarixçi Ən Nəsəvinin məlumatına əsasən,

---

[63] Бернандт Г. Б., Должанский А. Ислам на территории бывшей Российской империи: Энциклопедический словарь. — «Восточная литература» РАН, 2006, Т. 1, с. 47.

[64] Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı, "Müəllim" nəşriyyatı, 2006, s.37.

[65] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, Elm", 2005, s.105.

Xarəzmşah Cəlaləddinin dövründə Dərbənd ətrafında 50 min qıpçak ailəsi yerləşmişdi[66].

Göstərilən faktlar onu deməyə əsas verir ki, bütün orta əsrlər dövründə Dərbənd türk şəhəri kimi fəaliyyət göstərmişdir.

XV əsrin ikinci yarısında Azərbaycanda yaranmış sosial-iqtisadi və siyasi şərait mərkəzləşmiş dövlətin yaranmasını tələb edirdi. Pərakəndəlik, müharibələr və feodal özbaşınalığı kənd təsərrüfatı və sənətkarlığın, ticarətin, mədəniyyətin tənəzzülünə səbəb olmaqla, kənd və şəhər əhalisinin vəziyyətini ağırlaşdırdı. Bütün bunlar yadelli işğalçılara qarşı mübarizəni təşkil etməyi çətinləşdirir, mərkəzləşmiş dövlət yaradılmasını zəruri edirdi.

Mərkəzləşmiş dövlət yaradılmasında sənətkarlar, əkinçiliklə məşğul olan kənd əhalisi, tacirlər, orta və xırda feodallar, şəhər əhalisi maraqlı idi. Səfəvilər geniş xalq kütlələrinə arxalanaraq birləşdirmə ideyasını həyata keçirir, əhaliyə ədalətli qaydalar vəd edirdilər. Buna inanan geniş xalq kütlələri xilas yolunu şiəlik hərəkatında görür və səfəvilərin hakimiyyət uğrunda mübarizəsinə rəğbətlə yanaşırdılar.

**Səfəvilərin Şirvana yürüşü.** 1499-cu ilin avqustunda 13 yaşlı İsmayıl Lahicanı tərk edərək doğma Ərdəbilə yollandı. Onu Səfəvi sərkərdələri Hüseyn Lələ bəy Şamlı, Rüstəm bəy Qaramanlı, İlyas bəy Xunuslu, Qara Piri bəy Qacar və başqaları müşayiət edirdilər. Yolda onlara çoxlu tərəfdarları qoşuldu. Lakin İsmayılı və tərəfdarlarını Ərdəbilə buraxmadılar. Onlar 1499-1500- cü ilin qışını Astaranın Ərçivan kəndində – Xəzər dənizi sahilində keçirdilər. Qızılbaş başçılarının yığıncağında Kiçik Asiyaya, Ərzincana, Suriyaya getmək qərara alındı, çünki bu yerlərin əhalisi şiələrə böyük rəğbət bəsləyirdilər. İsmayıl Göyçə gölü ətrafına gəldi və buradan Ərzincana getdi. Ərzincanda onun qoşunlarının sayı 7 minə çatdı[67]. Onların əksəriyyəti

---

[66] Nurulla Əliyev. Böyük Dərbənd Ensiklopediyası. Bakı: “AFPoliqrAF”, 2018, s.6.

[67] Ağasiyev İ.K., Səlimov Ş.D. Azərbaycan tarixi. Dərslik. Bakı, 2017, s.222.

türk (şamlı, rumlu, əfşar, varsaq, ustaclı, təkəli və s.) tayfalarından idi. Mənbələrin məlumatına görə, Ərzincanda keçirilən yığıncaqda Şirvana hücum etmək qərara alındı. Yürüşlərin əsas məqsədi qarət idi. İsmayıl başa düşürdü ki, Təbrizə yürüş etsə, üç düşmənlə - Ağqoyunlu Sultan Murad və Əlvənd Mirzə ilə və onları müdafiə edən Şirvanşah Fərrux Yasarla qarşılaşa bilər.

1500 - cü ilin payızında İsmayıl Kürü keçib Şirvan ərazisinə daxil oldu. Fərrux Yasar Şamaxını müdafiə edə bilmədi və qoşun toplamaq üçün Qəbələyə getdi. Qızılbaşlar müqavimətsiz Şamaxını ələ keçirdilər. Qızılbaşlarla Fərrux Yasar arasında döyüş 1500 - cü ilin sonunda Şamaxıdan bir qədər aralı Cabanı kəndi ətrafında baş verdi. Şirvan qoşunları məğlub oldu, Fərrux Yasar öldürüldü, Qızılbaşlar Şamaxını ələ keçirdilər. Fərrux Yasarın salamat qalmış oğlu İbrahim (Şeyxşah) Gilana qaçdı. Şirvanşah xəzinəsinin bir hissəsi qızılbaşların əlinə keçdi.

XV əsrdə Bakı Xəzər dənizində Azərbaycanın mühim liman şəhəri idi. O, üç tərəfdən qala divarları, bir tərəfdən isə dənizlə əhatə olunmuşdu. Şirvanşahların sarayı və xəzinəsinin bir hissəsi burada saxlanılırdı.

Cabanı döyüşündən sonra İsmayıl qoşuna dinclik vermək və qışlamaq üçün Muğana getdi. Burada xəbər aldı ki, Bakı xərac verməkdən imtina edir. 1501 - ci ilin yazında Bakıya qarşı Məhəmməd bəy Ustaclı və İlyas bəy Xunuslunun başçılığı ilə qoşun göndərdi. Bu zaman Bakını Şirvanşahın oğlu Qazı bəy idarə edirdi. Lakin o, şəhərdə olmadığı üçün müdafiəyə arvadı başçılıq edirdi. Qızılbaşlar ondan şəhəri təslim etməyi tələb etdilər, lakin rədd cavabı aldılar. Şəhəri döyüşsüz təslim etməyi məsləhət bilən darğa Əbdül Fəttah edam olundu. İsmayıl Nədim bəyi də Bakıya göndərdi, sonra özü də gəlməli oldu. Qala divarlarının altından lağım atmaq yolu ilə bürclər dağıdıldı, qoşun şə-

hərə daxil oldu, şəhər talan edildi[68]. Beləliklə, 1501- ci ildə Səfəvilər Bakını tutaraq Şirvanşahların xəzinəsini ələ keçirdilər.

İsmayıl Bakını ələ keçirdikdən sonra Şamaxıya qayıdıb Gülüstan qalasına çəkilmiş Şeyxşahı mühasirəyə aldı. Azərbaycanın cənubunda Əlvənd Mirzə İsmayıla qarşı böyük qüvvə toplamışdı. Bu, İsmayılı Gülüstanın mühasirəsindən əl çəkməyə məcbur etdi. O, sərkərdələrindən soruşdu: “Siz Azərbaycan taxtını, yoxsa Gülüstan qalasını istəyirsiniz?”. Onlar “Azərbaycanı istəyirik!” - deyə cavab verdilər. İsmayılın Şirvandakı qələbələri onun nüfuzunu artırmışdı, Bunu görən ağqoyunluların bir çox vassalları və əyanları İsmayılın tərəfinə keçdi.

1501 - ci ilin ortalarında Naxçıvanın Şərur düzənliyində İsmayılla Əlvənd Mirzə arasında həlledici döyüş baş verdi. Əlvənd Mirzənin qoşununun sayı bir neçə dəfə artıq idi, amma o öz qoşununa inanmırdı. Qoşunun arxasında dəvələri bir-birinə bağlatdırmışdı ki, döyüşçülər geri qaçmasın. Döyüş qızılbaşların qələbəsi ilə başa çatdı. Ağqoyunluların bir hissəsi darmadağın edildi, qızılbaşların əlinə çoxlu qənimət keçdi.

Şərur qələbəsindən sonra 1501 - ci ildə İsmayıl Təbrizə daxil oldu və özünü şah elan etdi (1501-1524). Dövrün mötəbər mənbələrinin bu barədə verdiyi məlumatlar Azərbaycan adı ilə Səfəvi dövlətinin yaranmasını əsaslı surətdə sübut edir. Yəhya bin Əbdüllətif Qəzvini “Lübbət-təvarix” əsərində İsmayılın Şərur qələbəsindən sonra darossəltənə-ye Təbrizə gəlib “sərir-e səltənət-e Azərbaycan”-Azərbaycan şahlıq taxtında oturub oranı şahlığı ilə bəzədiyini yazır. Məhəmməd Yusif Qəzvini də yazır ki, Şərur döyüşündən sonra İsmayıl darossəltəne-ye (paytaxt, mərkəz) Təbrizə üz tutdu və Azərbaycan şahlıq taxtına (təxte səltənete Azərbaycan) oturdu. Bütün Azərbaycan məmləkətində (dər təmam məmləkət-e Azərbaycan) onun adına xütbə oxundu,

---

[68] Ağasiyev İ.K., Səlimov Ş.D. Azərbaycan tarixi. Dərslik. Bakı, 2017, 560 s.s.223.

dinar və dirhəm zərb edildi. Beləliklə, Azərbaycan Səfəvi dövlətinin əsası qoyuldu. Təbriz paytaxt elan edildi.

Səfəvilər dövlətinin özəyi Azərbaycan, dövlət dili Azərbaycan türk dili idi, əhalinin əksəriyyətini etnik və mədəni birliyə malik Azərbaycan türkləri təşkil edirdi. Qoşun Azərbaycan türk tayfalarından təşkil olunmuşdu; bütün yüksək vəzifələri Azərbaycan əyanları tuturdu. Hərbi başçılar, vilayət hakimləri, maliyyə işçiləri Azərbaycan türkləri idi. Sarayda, orduda və qismən qonşu ölkələrlə yazışmalarda Azərbaycan türk dilindən istifadə edilirdi.

Petruşevskinin yazdığına görə, XVI əsrin əvvəllərində baş verən hadisələrdə irandilli elementlər əhəmiyyətli rola malik deyildi[69]. Səfəvi dövlətində Azərbaycan (türk) dili əsas dil olaraq qalırdı. Düzdür, rəsmi dövlət sənədlərində, diplomatik yazışmalarda fars dilindən də istifadə edilirdi[70].

Səfəvilər dövləti yarandıqdan sonra Dərbənd, o cümlədən Şirvan Səfəvilər dövlətinin vassal asıllığına düşdü[71]. 1509-cu ildə Şah I İsmayıl Dərbəndi mühasirəyə alaraq Səfəvi hakimiyyətinə qarşı çıxan hakim Yarəhməd ağanı təslim etdi və şəhərin idarəçiliyi Mənsur bəyə həvalə edildi[72]. Dərbənd xüsusi hüquqlarla Səfəvilər dövlətinin tərkibinə daxil oldu.

Şah I İsmayıl Şirvanşahları məğlub etsə də, yerli sülalənin hakimiyyətini saxlamışdı. Şirvanşahlar Səfəvilərə tabe olmaqdan tez-tez boyun qaçırırdılar. Şirvanşah II İbrahim (Şeyxşah) (1501-1524) Buğurd qalasına çəkilərək müqavimət göstərirdi. Lakin 1517-ci ildə müqaviməti dayandırdı, oğlu Sultan Xəlili

---

[69] Петрушевский И. П. Очерки по истории феодальных отношений в Азербайджане и Армени в XVI - начале XIX вв. Л.: Издательство ЛГУ, 1949, 384 с.: табл., 22 см.

[70] Yenə orada

[71] Эфендиев О.А. Азербайджанское Государство Сефевидов в XVI веке. Баку: Элм, 1981, 335 c.s.67.

[72] Эфендиев О.А. Азербайджанское Государство Сефевидов в XVI веке. Баку: Элм, 1981, 335 c.s.67.

çoxlu hədiyyələrlə Səfəvi sarayına göndərdi. Sultan Xəlil Şah I İsmayılın qızı ilə evləndi. II İbrahim isə qızını Şah I İsmayıla verdi. Şirvanşah II İbrahimin ölümündən sonra oğlu Sultan Xəlil II Xəlilullah adı ilə hakimiyyətə gəldi (1524-1535). II Xəlilullahın ölümündən sonra Şirvanda hakimiyyətə Şahruh (1535-1538) keçdi. Şahın gənc olmasından istifadə edən əyanlar özbaşınalıq etməyə başladılar və bu şaha qarşı xalqın narazılığını artırdı. 1537-ci ildə özünü Şirvanşahın qardaşı adlandıran Kələntər Məhəmməd Amin hakimiyyəti ələ keçirmək üçün xalqı üsyana çağırdı. Lakin Salyan yaxınlığında üsyançılar məğlub edildi və üsyanın rəhbəri öldürüldü.

Bu qarışıqlıqdan istifadə edən Şah I Təhmasib (1524-1576) 1538-ci ilin yazında qardaşı Əlqas Mirzənin başçılığı ilə Şirvana 20 minlik qoşun göndərdi. Dörd ay mühasirədən sonra Buğurd qalası təslim oldu. Şahruh əsir alındı, Təbrizə aparıldı və orada gizli şəkildə öldürüldü. Beləliklə, 1538-ci ildə Səfəvilərin Şirvana yürüşü Şirvanın qəti şəkildə Səfəvilər dövlətinə birləşdirilməsi ilə nəticələndi. 861-ci ildə yaradılan Azərbaycanın ən uzunömürlü feodal dövləti olan Şirvanşahlar dövləti ləğv edildi. Şirvan bəylərbəyliyə çevrildi, onun ilk bəylərbəyi Əlqas Mirzə oldu. 1538-ci ildən 1722-ci ilədək Dərbəndi Səfəvi sarayının təyin etdiyi hakimlər idarə etmişdir.

1721-ci ildə Şimal müharibəsində İsveç üzərində qələbə çaldıqdan sonra I Pyotr Xəzəryanı bölgələrə yürüşə başladı. Bunun üçün bəhanə 1720-1721-ci il üsyanı zamanı Şamaxıda rus tacirlərinin öldürülməsi və mallarının qarət edilməsi oldu.

1722 - ci il iyunun 18-də I Pyotr Həştərxandan hərbi səfərə başladı. Rus qoşunları dəniz və quru yolla Dərbəndə doğru irəliləyirdilər. I Pyotr hərbi səfərə başlamamışdan əvvəl Azərbaycan, fars, ərəb dillərində Bəyannamə hazırlatdırıb Azərbaycana göndərmişdi. Orada Rusiyanın işğalçılıq planları pərdələnir və göstərilirdi ki, güya hərbi səfərdə məqsəd yerlərdə əmin-amanlıq yaratmaq, rus tacirlərini qarət edənləri cəzalandırmaqdır. Səfəvi

dövləti Rusiyanın bu hücumuna heç bir müqavimət göstərə bilmədi. 1722- ci il avqustun 15-də rus eskadrası, avqustun 23-də isə piyada qoşunları Dərbəndə çatdı. Müqavimət göstərməyin mənasız olduğunu görən şəhər hakimi İmanqulu xan qala darvazalarının açarını və "Dərbəndnamə"nin XVI əsrə aid əlyazmasını I Pyotra təqdim etdi. I Pyotr Senata göndərdiyi məktubunda şəhərdə yaxşı qarşılandığını bildirdi. Lakin Azərbaycanın bir çox şəhərlərinin hakimləri ruslara tabe olmaq niyyətində deyildilər. 1736-cı ilədək Dərbənd müvəqqəti rus işğalında qalmışdır. 1736-1747-ci illərdə Dərbənd Əfşarlar imperiyasının tərkibində olmuşdur. 1747-ci ildə Dərbənddə müstəqil xanlıq yarandı.

Orta əsrlərdə Dərbənd şəhərinin əhalisi haqqında müxtəlif mənbələrdə məlumatlar verilmişdir. XVII əsr türk səyyahı Evliya Çələbi Dərbənddə 2200 evin olmasını yazırdı[73]. Orta əsrlərdə müsəlman ailələrinin çoxsaylı olmasını nəzərə alsaq Dərbənddə təqribən 10-11 min əhalinin yaşadığını təxmin edə bilərik.

XVII əsrin ortalarında 10.000 əhalinin yaşadığı Dərbənddə, XVII əsrin sonu-XVIII əsrin əvvəllərində əhalinin sayı bir qədər də artmışdı. Belə qənaətə gəlmək olar ki, Dərbənd əhalisinin sayı Səfəvilər dövründə 10-15 min arası olmuşdur.

Orta əsrlərdə Dərbənd şəhərinin əhalisinin etnik tərkibinə gəldikdə, Səfəvi dövrünədək Dərbənd əhalisinin çoxunu qıpçaqlar təşkil edirdi. XV-XVI əsrlərə gəldikdə, İ.P.Petruşevskinin verdiyi məlumata görə, orta əsrlərdə şəhərin əhalisi türkmanlardan ibarət idi və onlar Azərbaycan (türk) dilində danışırdılar[74].Dərbənddə məskunlaşan türk tayfalarından qaramanlılar, bayarlar, mikrilər, qayılar, padarlar çoxluq təşkil edirdilər.

Rus işğalınadək Dərbəndin etnik tərkibinin tamamilə türk tayfalarından ibarət olması şübhəsizdir. Dərbənddə türk-müsəl-

---

[73] Эвлия Челеби. Книга путешествий (Сейахатнаме). Земли Закавказья и сопредельных областей Малой Азии и Ирана. М.: Наука, 1983, с.175.

[74] Петрушевский И. П. Очерки по истории феодальных государства Азербайджана в XV в. В кн.: Сборник статей по истории Азербайджана. Вып. I. Баку, 1949, с.185.

man etnik birliyinin pozulmasının başlanğıcı Rusiyanın ekspansiyası ilə əlaqəlidir. I Pyotrun Azərbaycana işğalçı yürüşləri zamanı ilk dəfə ermənilərin Dərbənddə yerləşdirilməsi məsələsi gündəmə gəlmişdir. Mənbələrə əsasən, 1722-ci ilin oktyabrın 4-də çar I Pyotr Matyuşkinə göndərdiyi təlimatda Dərbənddə ermənilərin yerləşdirilməsinin vacibliyini vurğulayır[75]. 10 noyabr 1723-cü il tarixli fərmanında çar I Pyotr yenə ermənilərin Dərbənddə yerləşdirilməsi məsələsinə qayıdaraq Rusiyanın patriarxı İsayya bu məsələdə fəal olmağı tövsiyə edir[76]. Nəticədə, Dərbənddə onlarla erməni tacir ailəsi məskunlaşdırıldı. Bunlara baxmayaraq, Dərbənddə türkdilli əhalinin dominantlığı rus işğalı dövrünə qədər qalmaqda idi.

Ağa Məhəmməd xan Qacarın 1795-ci ilin sentyabrında Tiflisi tutması və onu himayəyə alması Rusiya üçün böyük zərbə idi. Rusiya Gürcüstanı müdafiə etməyə başladı. II Yekaterina 1795-ci il 16 noyabr sərəncamında general Qudoviçə Cənubi Qafqaz və Xəzər sahillərini tutmağı tapşırdı[77]. 1796-ci ilin əvvəllərində rus və gürcü qoşunları Gəncəni mühasirəyə aldılar. Cavad xan bac verməyə razı oldu. Rusların digər hərbi hissələri general Savelyevin başçılığı ilə 1796-cı ilin fevralın 15-də Dərbəndə çatdı. Savelyev rus qoşunlarının digər hissələrinin gəlib çıxmasını gözlədi. Dərbəndin müdafiəsini Şeyxəli xan təşkil etmişdi. Rus qoşunları Dərbəndə hücum etdi. Azərbaycana qarşı hazırlanan yürüşə II Yekaterinanın sevimlisi general V.Zubov başçılıq edirdi[78]. 1796-cı il aprelin 18-də V.Zubov Azərbaycana

---

[75] Комаров В. Персидская война 1722-1725 гг. (Материалы для истории царствования Петра Великого) // Русский Вестник, т. 68, СПб.: 1867, док. 34,с.595.
[76] Козубский Е.И.. История города Дербента. Темур-Хан-Шура «Русская типография» В.М.Сорокина 1906, с. 86.
[77] Дубровин Н. История войны и владычества русских на Кавказе. СПб., 1886. Т. III. с. 60, 61.
[78] Azərbaycan tarixi. 7 cilddə, III cild. (XIII-XVIII əsrlər). Bakı: Elm, 1999, s.479.

qarşı hərbi yürüşə başladı. Şeyxəli xanın müqavimətinə baxmayaraq, rus qoşunları Dərbəndi tutdu. Şeyxəli xan əsir alındı, şəhərin idarəsi Fətəli xanın Rusiyaya meyl edən qızı Pəri xanıma tapşırıldı.1796-cı ilin iyunun 6-da Quba, iyunun 13-də Bakı, Samaxı tutuldu. Qarabağ xanı öz oğlu Əbülfət xanı Zubovun yanına göndərdi və Rusiyanın himayəsini qəbul etdiyini bildirdi. İbrahimxəlil xan Qarabağ məlikliklərini Rusiyaya yaxınlaşmasının qarşısını almaq üçün bu diplomatik addımı atdı. Azərbaycanın şimal xanları və bəzi Dağıstan feodallarının Rusiya işğalına qarşı təşkil etdiyi sui-qəsdin üstü təsadüfən açıldı. Əsirlikdən qaçan Şeyxəli xan Rusiyaya qarşı daha barışmaz olmuşdu. Sisianov başda olmaqla Zubova kömək göndərildi. Bundan sonra ruslar Gəncəni tutdular. Tezliklə, demək olar ki, bütün Şimali Azərbaycan Zubovun nəzarətinə keçdi. Bu dövrdə rus qoşunlarının tərkibində Dərbəndə gələn rus tarixçisi S.M.Bronevski 1796-cı ildə Dərbənddə 2189 ev, 15 məscid, 6 karvansara, 30 ipək sexi, 50 usta sexi və 10 min əhali qeydə almışdır. Məllifin yazdığına görə, bir necə erməni tacir ailəsini çıxmaq şərti ilə qalanları fars yazısından istifadə etmələrinə baxmayaraq, bütün həyat və fəaliyyət sahələrində tatar (Azərbaycan) dilində danışırdılar[79] .

1796-cı ilin sonunda II Yekaterina öldü, hakimiyyətə gələn I Pavel rus qoşunlarını Azərbaycandan və Dağıstandan geri çagırdı və Rusiyanın Azərbaycanı ələ keçirmək planı baş tutmadı[80]. V.Zubovun komandanlıq etdiyi rus qoşunları Azərbaycanı tərk etdikdən sonra (1796-cı ilin payızı) Dərbənddə ayrıca küçə yaradan erməni ailələri də ruslarla birlikdə şəhəri tərk etdilər.

---

[79] Броневский С.М. Историческия выписки о сношениях России с Персиею, Грузиею и вообще с горскими народами, на Кавказе обитающими со времен Ивана Васильевича доныне. РАН. Институт востоковедения СПб. 1996. http://www.vostlit.info/ Texts / rus 9 / Bronevskij/frametext 32.htm.

[80] Azərbaycan tarixi. 7 cilddə, Üçüncü cild. (XIII-XVIII əsrlər). Bakı: “Elm”, 1999, s.432.

## II FƏSİL

## DƏRBƏNDİN ÇAR RUSİYASI TƏRƏFİNDƏN İŞĞALI VƏ ƏHALİSİNİN ETNİK TƏRKİBİNDƏ DƏYİŞİKLİKLƏR

XX əsrin əvvəllərində İngiltərənin susqun razılığı ilə çar Rusiyası Cənubi Qafqazın işğalına başladı. 1801-ci il sentyabrın 12-də çar I Aleksandır Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında "Manifest" imzaladı[81]. Gəncə xanı Cavad xanın etirazlarına baxmayaraq, hələ 1736-cı ildə Nadir şah tərəfindən Gürcüstanın idarəçiliyinə verilən Azərbaycan torpaqları – Borçalı, Qazax, Şəmşəddil və Pəmpək də Rusiyaya qatıldı. Bu, Rusiyanın işğal etdiyi ilk Azərbaycan torpaqları idi. Şərqi Gürcüstan Rusiyanın Cənubi Qafqazda forpostuna çevrildi və buradan Azərbaycan torpaqlarının işğalı həyata keçirilməyə başlandı.

Çar hökuməti Azərbaycan xanlıqlarını döyüşsüz təslim etməyi düşünürdü. Qafqazdakı rus qoşunlarının Baş komandanı Knorrinqə bu barədə xanlıqlarla danışıqlar aparmaq tapşırığı verilmişdi. Knorrinqin danışıqlar aparmaq təklifinə Quba, Dərbənd, Talış xanlıqları, o cümlədən Şimali Qafqazın Tarku şamxalı, Qaraqaytaq usmisi razılıq verdilər. 1802-ci il dekabrın 26-da tərəflər arasında Georgiyevsk müqaviləsi bağlandı[82]. Bu müqaviləyə imza atan Quba, Talış və Dərbənd xanlıqları öz aralarında müharibə aparmamağı, bütün mübahisəli məsələləri danışıqlar yolu ilə həll etməyi, İranın hücumlarına qarşı vahid cəbhədə çıxış etməyi öhdələrinə götürdülər. Müqavilədə, həmçinin Rusiya ilə siyasi və ticarət əlaqələrinin genişləndirilməsi məsələləri də yer almışdı. 1803-cü ildə Bakı xanlığı da bu müqaviləyə qoşuldu.

---

[81] Azərbaycan tarixi. 7 cilddə, IV c. (XIX əsr). Bakı: "Elm", 2000, s.16.

[82] Дубровин Н. Закавказье от 1803 по 1806 г. СПб.,1866, с.485.

Şərqi Gürcüstanı və onunla birlikdə Borçalı, Qazax, Şəmşəddil və Pəmpək kimi Azərbaycan ərazilərini işğal etdikdən sonra rus qoşunları 1803-cü ilin martında strateji əhəmiyyət kəsb edən Car-Balakən camaatlığına hücum etdilər və 1804-cü ilin yayında  rus qoşunları Car-Balakəni, İlisu sultanlığını ələ keçirdilər. Bundan sonra rusların əsas qüvvələri Gəncə şəhəri üzərinə yürüşə cəmləşdirildi.

1804-cü il yanvarın 2-də rusların Gəncəyə hücumu başladı. Yanvarın 3-nə keçən gecə Gəncə alındı. Cavad xan və oğlu Hüseynqulu ağa qala divarları üzərində qəhrəmanlıqla həlak oldular. Beləliklə, Gəncə xanlığının ərazisi işğal edildi. Gəncə adı dəyişdirilib I Aleksandrın arvadı Yelizavetanın şərəfinə Yelizavetpol adlandırıldı. Kim şəhəri Gəncə adlandırsaydı, bir gümüş rubl dəyərində cərimə ödəyirdi. Gəncədən sonra Samux bəyləri də  Rusiyaya tabe etdirildilər.

1805-ci il mayın 14-də Rusiya imperiyası ilə Qarabağ xanlığı arasında tarixdə Kürəkçay müqaviləsi kimi tanınan və 11 maddədən ibarət olan sənəd imzalandı[83]. Müqavləyə əsasən, Qarabağ xanlığı Rusiyanın tərkibinə qatılır və hər il Rusiya xəzinəsinə 8 min çervon ödəməyi, ərazisində rus qoşunlarını yerləşdirməyi, nəvəsini girov kimi Tiflisə göndərməyi öhdəsinə götürdü.

Xanlığında hakimiyyət uğrunda gedən daxili mübarizədən yorulan Şəki xanı İbrahimxəlil xanın kürəkəni Səlim xan da vəziyyətdən çıxış yolunu Rusiyaya birləşməkdə gördü və 1805-ci il mayın 21-də Kürəkçay müqaviləsini imzaladı və Qarabağ xanı ilə nəzərdə tutulan şərtlər Şəki xanlığına da şamil edildi[84].

Sisianov Şamaxı xanı Mustafa xana məktub yazaraq ona da  Kürəkçay müqaviləsinin şərtlərini qəbul etməyi təklif etdi. Mustafa xan, Sisianova cavabınada daha geniş imtiyazlar tələb

---

[83]Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. S.Əliyarlının redaktorluğu ilə. Bakı: Azərnəşr, 1996, 872 s.590.
[84] Yenə orada.

etdi. Məsələn, o, tələb edirdi ki, Rusiya Şamaxı xanlığından vergi tələb etməsin, xana aylıq maaş kəsilsin və bütün Şimali Azərbaycan ərazilləri (Dərbəndə qədər) Şamaxı xanlığının idarəçiliyinə verilsin. Mustafa xanın tələblərini qəbul etməyən Sisianov 1805-ci ilin noyabrın 30-da Şirvana qoşun çəkdi. Dağlara çəkilən Mustafa xan müqavimətin mənasız olduğunu yəqin edərək Sisianova təslim oldu və dekabrın 27-də rusların təklif etdiyi müqaviləyə imza ataraq Rusiyanın hakimiyyətini qəbul etdi[85].

Ərazisinə görə ən böyük xanlıq olan Şamaxı xanlığı işğal edildikdən sonra rus qoşunları Bakı üzərinə yeridilər. Sisianov Bakı xanı Hüseynqulu xana bağlanacaq müqavilənin layihəsini göndərdi. Hər tərəfdən mühasirəyə alınan Bakı xanlığının Sisianovun şərtlərini qəbul etməkdən savayı çarəsi qalmadı. Rusların bütün şərtlərini qəbul edən Hüseynqulu xan öz yaxınları ilə birlikdə müqaviləni imzalamaq üçün Sisianovla görüşə yollandı. 1806-cı il fevralın 8-də Naxır bulağı adlı yerdə xan Bakının rəmzi açarlarını Sisianova təqdim edərkən xanın əmisi oğlu İbrahim bəy Sisianovu öldürdü. Quruda olan rus qoşunları gəmilərə doluşaraq tələsik Sara adasına çəkildilər[86].

Tezliklə qüvvə toplayan rus qoşunları şimala – Dərbənd üzərinə yeridilər. 1806-cı il iyunun 22-də Dərbənd ruslar tərəfindən işğal edildi. Bundan sonra rus qoşunları Bakını mühasirəyə aldılar. Hüseynqulu xan İrana qaçdı və şəhər 1806-cı il oktyabrın 3-də ruslara təslim oldu[87]. Az sonra Quba xanlığı da rusların əlinə keçdi. Fətəli xanın oğlu Şeyxəli xan dağlara çəkildi və Rusiyaya qarşı mübarizəni davam etdirdi[88].

---

[85] Утверждение Русского владычества на Кавказе. Т. I, 1901, с.259.
[86] Azərbaycan tarixi. 7 cilddə, İV c. (XIX əsr). Bakı: Elm, 2007, s.25-26.
[87] Утверждение Русского владычества на Кавказе. Т. I, 1901, с.88.
[88] Yenə orada, s.88-89

Beləliklə, 1806-cı ilin sonunadək Lənkəran, İrəvan və Naxçıvan xanlıqlarından savayı bütün Şimali Azərbaycan, o cümlədən Dərbənd ərazisi çar Rusiyası tərəfindən işğal edildi.

Dərbəndin ruslar tərəfindən tam işğalından sonra (1806) şəhərdə ermənilər məskunlaşmağa başladılar. 1810-cü ilin iyulun 18-nə olan məlumata görə Dərbənddə 28 erməni (56 nəfər) və 59 yəhudi(166 nəfər) ailəsi qeydə alınmışdır.Yerdə qalan əhalini 1435 ailə (3953 nəfər) türklər (azərbaycanlılar) təşkil etmişlər. Şəhərdə ailələrin ümumi sayı 1522, əhalinin sayı isə 4175 nəfər olmuşdur[89]. Mənbələrdə qeyd olunur ki, 1806-cı ildən, yəni Dərbənd ruslar tərəfindən işğal edildikdən sonrakı dövrdə yerli sakinlərdən heç kim hələ Rusiya təbəəliyini qəbul etməmişdi[90].

Dərbənd şəhəri Rusiya tərəfindən işğal edildikdən sonra çar hökuməti qarşısında duran əsas məsələlərdən biri yerli əhalinin vergiyə cəlb edilməsi idi ki, bu da şəhər əhalisinin siyahıya alınmasının təşkilini tələb edirdi.

Bu istiqamətdə ilk cəhd 1811-ci ildə Qafqazdakı rus qoşunlarının baş komandanı olmuş general A.P.Tormasovun göstərişinə uyğun olaraq həyata keçirildi. Sonralar Dağıstan vilayəti yaradılan ərazilərin əhalisinin siyahiya alınması göstərdi ki, 1811-ci ildə Dərbənd şəhəri və şəhər ətrafında 790 ailə qeydə alınmışdı və ümumi əhalinin sayı 4.740 nəfər təşkil edirdi.[91]

1810-cu illə müqayisədə 1811-ci ildə Dərbənd əhalisinin 565 nəfər artdığını görürük. Bu onunla izah olunur ki, 1806-cı ildə rus işğalı ilə əlaqədar başqa bölgələrə miqrasiya edən Dərbənd şəhərinin əhalisi yavaş-yavaş öz yerlərinə dönməyə başla-

---

[89] Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi, f.24, siyahı 1, iş.21, v. 139-184.

[90] Yenə orada, v.44.

[91] История, география и этнография Дагестана XVIII-XIX вв. Архивные мат. под ред. М.О.Косвена и Х.М.Хашаева. М.: Изд. Вост. Лит., 1958, с. 237

mışdı. Bu proses sonrakı illərdə də davam etmişdi. Belə ki, mənbələrdə 1820-ci ilin payızında Dərbənd şəhərində 7-8 min əhalinin yaşadığı göstərilmişdir.[92]

Dərbənddə növbəti əhalinin siyahıya alınması 16 iyul 1824-cü il tarixdə Dərbəndin komendantı vəzifəsini icra edən fon Aşeberq tərəfindən aparılmışdır və bu siyahıyaalmanın nəticələrinə əsasən şəhərdə 11.060 nəfər əhali qeydə alınmışdı.[93] Tədqiqatçı A.N.Kajlayev 1824-cü ildə Dərbənddə 12.870 nəfərin yaşadığını qeyd etmişdir [94], lakin onun bu faktı hansı mənbədən götürdüyü göstərilmir.

Əhalinin etnik tərkibinə gəldikdə, aşağıdakı cədvəldən göründüyü kimi, 1824-cü il siyahıyaalmasına görə, Dərbənd şəhəri əhalisinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil etmişdir.[95]

Dərbənd komendantı polkovnik Rozenfeld 1830-cu il aprelin 22-də "Dərbənd əyaləti əhalisinin sayı haqqında cədvəl" təqdim etdi. Bu sənəddən görünürdü ki, 1830-cu ilin əvvəllərinədək Dərbənd şəhərində 1.911 ev var idi və şəhər əhalisinin sayı 9.618 nəfər təşkil edirdi. Eyni zamanda sənəddən Dərbəndin forştatında 161 evin olduğu və bu evlərdə 801 sakinin, Sabnova kəndində isə 43 evdə 197 nəfərin yaşadığı məlum olur[96]. Polkovnik Rozenfeldin məlumatlarına əsasən deyə bilərik ki, 1830-cu ildə Dərbənd və ətrafında yaşayan ailələrin 93.9 % -ni və əhalinin 93.84 % -ni azərbaycanlılar təşkil edirdi[97].

---

[92] Козубский Е.И. История города Дербента. Темир-Хан-Шура: Изд. Русская типография, 1906, с. 162.

[93] Козубский Е.И. История города Дербента. Темир-Хан-Шура: Изд. Русская типография, 1906, s.166

[94] Кажлаев А.Н. Возникновение и экономическое развитие городов Дагестанской АССР. Махачкала: Даг. кн. изд., 1971, с. 216.

[95] Yenə orada, s. 166.

[96] Движение горцев Северо-восточного Кавказа в 20-50-х гг. XIX века. Махачкала, 1959, с. 20-21

[97] Hacıyev A.XIX-XX əsrin əvvəllərində Azərbaycanın Dərbənd şəhərinin əhalisinin etnik tərkibi. // Azərbaycan Milli Elmlər Akademiyası, Tarix İnstitutu, Elmi əsərlər, Xüsusi buraxılış, Dərbənd şəhərinin 5000 illiyinə həsr olunur. 2012,

**Cədvəl 1. Dərbənd şəhəri əhalisinin etnik tərkibi (1824-cü il)**

| Etnoslar | Əhalinin ümumi sayı | Əhali-nin ümumi faizi | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|---|---|
| | | | Sayı | Ümumi sayına nisbətən %-i | Sayı | Ümumi sayına nisbətən %-i |
| Cəmi əhali | 11.060 | 100 % | 5.773 | 52,2 | 5.287 | 47,8 |
| azərbay-canlı | 10.377 | 93,8 % | 5.407 | | 4.970 | |
| yəhudi | 444 | 4,1 % | 230 | | 214 | |
| erməni | 239 | 2,1 % | 136 | | 103 | |

Rus ordusunun zabitləri M.K.Kovalevski və İ.F.Blaramberqin 1831-ci ilə aid məlumatları da maraq doğurur. Belə ki, onların hazırladığı sənəddə Dərbənd şəhərində 2.000 və şəhərətrafı 17 kənddə isə 2.000-ə yaxın evin olması haqqında məlumat verilir ki, onların da əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edirdi.

Rusiya imperiyası maliyyə naziri Y.F.Kankrin (1774-1845) 14 may 1829-cu il tarixdə Cənubi Qafqazda kameral təsvirlərin keçirilməsi haqqında əmr imzaladı və bundan sonra 1832-ci ildə Dərbənddə ilk kameral təsvir keçirildi. İlk kameral təsvirin nəticələrinə görə, Dərbənd qalası, forştat və şəhərə aid olan Sabnova kəndində 1.795 ev və 5.139 nəfər qeydə alındı.[98] Nəzərə almaq lazımdır ki, təsvir zamanı yalnız kişi əhali qeydə alınmışdı.

1832-ci ildə İrandan gələn çəyirtkə bütün Cənubi Qafqazda kənd təsərrüfatı bitkilərini məhv etdi ki, bu da ərzaq qıtlığına

cild 40, s.268-269.

98 Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях.СПб., 1836, ч.1-4. с165; Козубский Е.И. История города Дербента. Темир-Хан-Шура: Изд. Русская типография, 1906, с. 181.

və aclığa səbəb oldu. 1833-cü ildə Dərbənddə dəhşətli aclıq baş verdi; şəhər əhalisinin bir qismi tələf oldu, bir qismi isə başqa yerlərə köçməyə məcbur oldu. 1842-ci ildə Dərbənddə növbəti kameral təsvir keçirildi və alınan nəticələr 1832-ci illə müqayisədə 1842-ci ildə şəhərdə ailələrin sayının 87-yə qədər azaldığını göstərdi. Belə ki, əgər 1832-ci ildə Dərbənddə 1.795 ailə var idisə, 1842-ci ildə 1.708 ailə qeydə alınmışdı. 1842-ci ildə əhalinin ümumi sayı cəmi 10.713 nəfər olmuşdu ki, bu da təqribən 1810-cu ilin səviyyəsinə bərabər idi.[99] Göründüyü kimi, quraqlıq və çəyitrkələrin hücumu və bunlardan doğan aclığın nəticələri dolayısı ilə olsa da, 10 ildə Dərbənddə əhalinin sayının aşağı düşməsinə səbəb olmuşdu.

Əhalinin etnik tərkibinə gəldikdə, rus işğalından sonra Dərbənd əhalisinin etnik tərkibində türk-müsəlman əhalinin xeyrinə olmayan dəyişikliklər baş verməyə başladı ki, bu da carizmin apardığı xristianlaşdırma siyasətinin nəticəsi idi. Şəhər əhalisinin etnik mənzərəsində müxtəliflik artsa da, XIX əsrin birinci yarısında Dərbənddə azərbaycanlıların etnik dominantlığı hələ pozulmamışdı, belə ki, onlar əhalinin təqribən 80%-ni təşkil etmişlər. Məsələn, 1843-cü ilin məlumatlarına əsasən, Dərbənd şəhərinin əhalisi, əsasən, azərbaycanlılardan (9572), yəhudilərdən(871), ermənilərdən(284) ibarət olmuşdur.[100] Bunu onunla izah etmək olar ki, 1813-cü ildə ruslar Dağıstanı işğal etsələr də, Şeyx Şamilin başçılığı ilə Rusiyaya qarşı aparılan Qafqaz müharibəsi illərində ruslar bu ərazilərdə, o cümlədən Dərbənddə öz etnik dayaqlarının yaradılmasında əməli nəticələr əldə edə bilməmişdilər.

---

[99] Козубский Е.И.История города Дербента. Темир-Хан-Шура: Изд. Русская типография, 1906, s. 241.

[100] Hacıyev A. Dərbənd əhalisinin etnik tərkibi (XIX-XX əsrin əvvəllərində). Tarix və onun problemləri (BDU), № 1-2, 2008, s.375.

Kozubski Dərbənd şəhərinin kameral təsvirinə əsaslanaraq 1859-cu ildə burada 13.470 sakinin yaşadığını göstərmişdir[101].

1860-cı ildə Şamilin rəhbərliyi ilə Şimali Qafqaz xalqlarının çarizmə qarşı mübarizəsi, demək olar ki, başa çatdı. Bütün Dağıstan çar hökumətinin nəzarətinə keçdi və həmin il Dağıstan vilayəti yaradıldı. Vilayət dairələrə və sahələrə bölünmüşdü. Vilayətin başında rəis dururdu ki, inzibati, hüquqi, maliyyə, hərbi və təsərrüfat işlərinə rəhbərlik onun əlində cəmləşmişdi. Dağıstan vilayətində "hərbi xalq" idarə üsulu bərqərar oldu ki, nəticədə vilayət məhkəmə işləri və kənd idarəetməsi hərbi qanunlarla və "xalq adətləri" ilə idarə olunurdu. "Xalq adətləri" dedikdə şəriət və adət-ənənə nəzərdə tutulurdu. Yeni inzibati-ərazi quruluşu çarizmin maraqlarına xidmət edirdi və müstəmləkə qaydalarının möhkəmlənməsinə gətirib çıxardı. Eyni zamanda Dağıstan vilayətinin yaradılması bu ərazidə sosial-iqtisadi, mədəni inkişafa müəyyən müsbət təsir göstərdi.

1865-ci ildə Dağıstan vilayətində aqrar islahat keçirildi. İslahat nəticəsində özdənlərə, yəni feodal-zadəganlara məxsus torpaqlar kəndlilərə paylandı. Bu islahatlar yerli feodalların iqtisadi qüvvəsini zəiflətdi, kənddə mal-pul münasibətlərinin inkişafına təsir etdi. Eyni zamanda kapitalist münasibətlərinin kənddə formalaşması mövsümçülüyün artmasına gətirib çıxardı. Kəndlilər arasında təbəqələşmə və qütbləşmə gücləndi.

Dağıstan vilayətində hərbi əməliyyatların başa çatması ticarətin də inkişafına şərait yaratdı. Dərbənd ətrafında Xəzər dənizinin dayaz olması və ticarət gəmilərinin sahilə yan ala bilməməsi ucuz dəniz yolundan istifadəyə imkan vermirdi. Dərbənd, Qaytaq – Tabasaran, Kürin və Samur dairələrində istehsal olunan kənd təsərrüfatı məhsulları və sənətkarlıq məmulatlarının ix-

---

[101] Козубский Е.И. История города Дербента. Темир-Хан-Шура: Изд. Русская типография, 1906, s. 241.

racına imkan olmadığından bu sahələr getdikcə ziyanla işləməyə məcbur olur və nəticədə bağlanırdı.

Əvvəl də qeyd etdiyimiz kimi, Dərbənd ətrafında Xəzər dayaz idi. Bu səbəbdən Bakı, Həştərxan və sair limanlardan gələn gəmilər yalnız Dərbənddən 1 kilometrə yaxın məsafədə lövbər sala bilirdilər və mallar qayıqlar vasitəsilə sahildən gəmilərə və əksinə daşınırdı. Küləkli havada bu gəmilərdən yükün boşaldılması və yaxud onlara yükün daşınması həftələrlə vaxt aparırdı. Vaxtın boşuna itirilməsi gəmi sahiblərinin vəsait itkisinə səbəb olurdu və buna görə onlar Dərbəndlə ticari əlaqələrə həvəssiz yanaşırdılar. Qış mövsümündə tufanlar artdığından bəzən gəmilər yük vurulması və yaxud boşaldılması üçün əlavə 1 aya qədər dayanmalı olurdular və bu dövr ərzində gəminin fəhlələrinə əmək haqqının ödənilməsi gəmi sahibləri üçün böyük itki demək idi[102].

1866-cı ildə Dərbənd mayakı inşa edildi. Taxta mayak əvəzinə dəniz səviyyəsindən 148 fut (1 fut - 30,479 sm bərabərdir) hündürlüyü olan daş mayak tikildi, ancaq bu gəmilərin Dərbənd limanına girişini asanlaşdırmadı[103]. Dərbənd limanının tikintisi məsələsi dəfələrlə qaldırılmış və bir sıra layihələr irəli sürülmüşdü. Lakin maliyyə çatışmazlığı ucbatından bu layihələr həyata keçirilməmişdi. Onlardan ən faydalısı mühəndis-kapitan Falkenhaqenin tərtib etdiyi layihəidi. Onun layihəsi üzrə Petrovsk limanının inşası başlanmışdı ki, bu limanda eyni zamanda 120-150 gəmi dayana bilərdi. Petrovsk limanının dəyəri 529 min rubla bərabər idi və 4 il ərzində tikintisi başa çatmalı idi. Bu layihənin Dərbənddə həyata keçirilməsi maliyyə baxımından bəyənilmədi və 1864-cü ildə Falkenhaqenə tapşırıldı ki, Dərbənddə gəmilərin yan alması üçün taxta körpünün layihəsini hazırla-

---

[102] Кажлаев А.Н.Возникновение и экономическое развитие городов Дагестанской АССР. Махачкала: Даг. кн. изд., 1971 с. 50-51.

[103] Yenə orada.

sın. Falkenhaqenin hazırladığı taxta körpünün maya dəyəri 35 min təşkil edirdi və 6 ay ərzində tikilib istifadəyə veriləbilərdi[104]. Çox da baha olmamasına baxmayaraq, bu layihənin də inşası maliyyə çatışmazlığı adı ilə təxirə salındı.

Hələ 1860-cı ildən Dərbənddə liman tikintisinə pul toplanmağa başlanılmışdı. Dərbənddə ixrac olunan mallardan əlavə rüsum alınır və bu pullar liman tikintisi fondunda toplanırdı. Məsələn, Dərbənddən marena aparan hər tacir 1 pud marena üçün əlavə 10 qəpik ödəməli idi. Bu verginin yığılması ilə "Qafqaz və Merkuri" cəmiyyətinin agentləri məşğul olurdular. 1860-1870-ci illər, yəni 10 il ərzində 251,3 min rubl pul toplanmışdı.[105]

Əldə edilən əhəmiyyətli miqdarda maliyyə vəsaitinə baxmayaraq Dərbənd limanının tikintisi başlanmadı. 1867-ci ilin oktyabrında Hərbi nazirin əmrinə əsasən Dərbənd limanı lazımsız kimi qiymətləndirildi və layihə ləğv edildi. 1868-ci ildə Dərbənddə teleqraf istifadəyə verildi.

Dərbəndin tarixində iqtisadi yüksəliş və tənəzzül dövrləri bir-birini tez-tez əvəz edirdi və bu hal daha çox müharibələrlə, xarici işğallarla bağlı olmuşdur. Dərbənd Rusiyanın tərkibinə qatıldıqdan sonra onun iqtisadi həyatının yüksəlişi və enişi artıq kapitalizmin inkişaf qanunları ilə əlaqəli idi. 1873-cü ildə Dərbənddə marena bitkisinin yetişdirilməsi sahəsində dərin böhran başladı və bu da əsas marena rayonlarından biri olan Dərbəndin sosial-itisadi həyatında mənfi nəticələrə gətirdi. Böhranın fəsadlarını daha qabarıq göstərmək üçün rəqəmlərə müraciət edək: 1846-cı ildə Cənubi Dağıstan və Quba qəzasının marena becərənləri Rusiya bazarlarına 64.8 min pud marena ixrac etmişdilərsə, 1866-cı ildə bu rəqəm 303.4 min puda çatmışdı. Bu o deməkdir ki, 20 il ərzində marena istehsalı təqribən 5 dəfə artmışdı.

---

[104] Кажлаев А.Н.Возникновение и экономическое развитие городов Дагестанской АССР. Махачкала: Даг. кн. изд., 1971 с. 51.

[105] Yenə orada.

1873-cü ildə Dərbənddə marena sahələri 6 min desyatin təşkil edirdi. Cənubi Dağıstan dairələrinin, o cümlədən Dərbənd dairəsinin əhalisi əsas gəlirlərini marena istehsalından götürürdülər. 1846-1873-cü illərdə əhalinin marenaçılıqdan qazancları da artmışdı. Belə ki, 1846-cı ildə bir pud marenanın qiyməti 4 rubl 30 qəpik idisə, 1873-cü ildə onun qiyməti Dərbənddə artıq 8 rubl 50 qəpiyə çatmışdı. Nijni Novqorod bazarlarında isə marenanın bir pudu 11 rub 60 qəpiyə satılırdı[106].

Daş kömürdən alınan ucuz alizarin boyasının xaricdən gətirilməsi və Rusiyanın tekstil fabriklərində onun tətbiqi Dərbənd bazarlarında marena bitkisinin qiymətinin kəskin ucuzlaşmasına səbəb oldu. Belə ki, əgər, alizarinin kəşfinə qədər 1 pud marena Nijni Novqorod bazarında 11 rubl 50 qəpiyə satılırdısa, artıq 1873-cü ildə onun qiyməti 2,5 dəfə ucuzlaşaraq, 4 rub 80 qəpiyə düşmüşdü. Təkcə 1873-cü ildə Dağıstan marenaçıları 2,2 mln. rubl ziyana düşdülər. Yaranmış vəziyyət onları Qafqaz canişininə müraciət etməyə məcbur qoydu. Müraciətdə deyilirdi ki, alizarinin kəşfi marenanın Rusiya bazarlarında ucuzlaşmasına səbəb olmuşdur və böhran nəticəsində marena becərənlər 16.200.000 ziyana düşmüşlər. Müraciətdə çıxış yolu kimi xahiş olunurdu ki, 10 il müddətinə xaricdən alizarin gətirilməsinə qadağa qoyulsun. "Əgər bu mümkün deyilsə, heç olmasa onun idxal rüsumları artırılsın", deyə Dərbənd marenaçıları Qafqaz canişinindən xahiş edirdilər. Dağıstan marenaçılarının müraciətinə Rusiyanın maliyyə nazirinin cavabında deyilirdi ki, "bu itkilər təbiidir və qaçılmazdır, çünki, sənayenin hər hansı bir sahəsində yenilik tətbiq edilirsə, köhnə istehsal metodları sıxışdırılır"[107]. Dərbənd şəhər rəisinin hesabatından göründüyü kimi, 1873-cü ildə Dərbənddə istersal edilən 300 min pud marenanın yalnız

---

[106] Кажлаев А.Н.Возникновение и экономическое развитие городов Дагестанской АССР. Махачкала: Даг. кн. изд., 1971.s.52.

[107] Yenə orada, .s.53

200,8 min pudu Rusiya bazarlarında satılmış, yerdə qalan 100 min pud heç Dağıstan vilayətindən kənara çıxarılmamışdı[108].

Beləliklə, Dərbəndin iqtisadi həyatında yeni böhran dövrü başladı ki, bu da müəyyən müddətə onun iqtisadi inkişafını ləngitdi. Marena boyasına tələbatın azalması 1874-cü ildən Dərbənddə marena becərilməsinin demək olar ki, dayandırılmasına gətirib çıxardı.

Marenanın qiymətinin düşməsi nəinki Dərbənd şəhərinin, həmçinin Dərbəndətrafı bölgələrin də əhalisinin sosial həyatının pisləşməsinə səbəb oldu və əhalinin etnik durumunun da dəyişməsinə təsir etdi. Belə ki, artıq marena becərilməsi mənfəətsiz bir sahəyə çevrilmişdi. Əllərində olan pullarını marenanın səpininə və becərilməsinə sərf edən və əvəzində qazancsız qalan Dərbənd əhalisi, xüsusən bu işlə məşğul olan azərbaycanlı əhali dilənçi halına düşdü. Başqa mədəni bitkilərin becərilməsinə keçid isə o qədər də asan deyildi. Bunun üçün əhalidə nə maddi vəsait qalmışdı, nə də su sarıdan əziyyət çəkən Dərbəndətrafı ərazilər buna imkan verirdi. Belə ki, baxdığımız dövrdə Dərbənd şəhəri ətrafında olan 6 min 287 desyatin əkinə yararlı torpaqlardan yalnız 3 min 689 desyatin torpağın suvarılması mümkün idi. Yerdə qalan ərazilərə su çıxmırdı və yalnız yağış suları ilə suvarıla bilərdi. Həm də uzun illər marenaçılıqla məğul olan əhalinin başqa kənd təsərrüfatı sahəsinə keçməsi üçün praktiki vərdişlər də yetərincə deyildi. Marenaçılığın tənəzzülü nəticəsində müflisləşən azərbaycanlı əhali torpaqlarını bağçılıqda ixtisaslaşmış ermənilərə satmağa başladı.

Marenaçılıqda tənəzzül Dərbənd şəhərinin başqa təsərrüfat sahələrinə də mənfi təsir göstərdi. Məsələn, şəhərdə mövcud olan ticarət dükanlarından, karvansaralardan, qonaq otaqlarından, yeməkxanalardan, çayxanalardan və sair iaşə obyeklərindən

[108] Yenə orada.

alınan gəlirlər də kəskin şəkildə aşağı düşdü, onların bir çoxu müflis olaraq bağlandı.

Yalnız 1875-ci ilin avqustunda Cənubi Dağıstan marenaçılarının səlahiyyətli nümayəndələrinin xahişini nəzərə alaraq, Moskva Manufaktura Şurası Moskva, İvanovo və Tver şəhərlərinin böyük tikiş fabriklərinin razılığı ilə xaricdən gətirilən süni alizarin boyasına rüsum tətbiq edilməsinin zəruriliyi haqqında qərar qəbul etdi[109]. Ancaq bu qərar bir qədər gecikmiş və Dağıstan marenaçılarının müflisləşməsindən sonra qəbul edilmişdi.

1870-ci illərdə Dərbəndin əhalisinin artımında tempin aşağı düşməsi müşahidə olunsa da, əhalisinin sayına görə yenə də Qafqazın önəmli şəhərlərindən biri idi. Belə ki, 1870-ci ildə Dərbənddə 13.775 sakin yaşayırdı və Dərbənd əhalisinin sayına görə Tiflis (104750), Yekaterinodar (32530), Stavropol (29617), Maykop (22537), Vladiqafqaz (20057) və Bakıdan (14577) sonra Qafqazın 7-ci şəhəri idi[110].

1886-cı ildə Dərbənddə əhalinin siyahıya alınması şəhərin əhalisinin etnik tərkibində ciddi dəyişikliklərin başladığını göstərdi. Belə ki, şəhərin ümumi əhalisinin sayı 15.265 olmuş və azərbaycanlılar 8994 nəfərlə bu əhalinin cəmisi 58.98 % -ni təşkil edirdilər.Yəhudilər-16.82, ruslar-10.23 və ermənilər isə 5.73 % təşkil etmişlər. Yerdə qalan hissəni başqa xalqların nümayəndələri tuturdular.

Beləliklə, təsərrüfat formasında baş verən dəyişikliklər Dərbənddə azərbaycanlı əhalinin çəkisinin də azalmasına səbəb oldu.

---

[109] Кажлаев А.Н.Возникновение и экономическое развитие городов Дагестанской АССР. Махачкала: Даг. кн. изд., 1971.s.53.

[110] Далгат Э.М. Город и городская жизнь в Дагестане во второй половине XIX – начале XX в. / Институт истории, археологии и этнографии ДНЦ РАН. – Махачкала: Мавраевъ, 2015, С.74-75 (hesablamalar İ.Ağasiyevindir)

Marenaçılığı itirən azərbaycanlı əhali çətin də olsa, üzümçülüyə və əkinçiliyə keçməyə məcbur oldu. 1880-ci illərdə üzümçülük inkişaf etməkdə idi ki, bu da özünü şərabçılq məhsullarının ixracında aydın şəkildə göstərirdi. Məsələn, Dərbənd gömrükxanasının məlumatına əsasən, 1880-ci ildə şəhərdən 64.9 min vedrə, 1890-cı ildə isə 90.5 min vedrə şərab aparılmışdı[111]. Üzümçülər üçün ən böyük problem üzüm bağının suvarılması idi və bu iş çox baha başa gəlirdi. Belə ki, 1 desyatin üzüm bağının suvarılması üçün 2 rubl tələb olunurdu. Çox vaxt su quyudan atların köməyi ilə fırladılan çarxlarla qaldırılır, sonra taxta arxlarla bağlara, bostanlara axıdılırdı.

Şəhər əhalisinin bir qismi taxılçılıq və tərəvəzçiliklə məşğul olurdu. Dərbəndlilər taxıl bitkilərindən daha çox buğda və arpa əkirdilər. Tərəvəzlərdən isə kartofa, soğana, sarımsağa, kələmə, turpa və s. üstünlük verilirdi. Aşağıdakı cədvəldə Dərbənd şəhər əhalisinin 1894-1895-ci illər ərzində hansı kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olduğu göstərilmişdir. Qeyd edək ki, məhsulun həcmi baxdığımız dövrün rus həcm ölçü vahidi çetvertlə göstərilmişdir ki, o da 209,91 litrə bərabərdir.

Tarlada çalışanların əmək şəraiti çox ağır idi. Belə ki, gündə 9-11 saat ağır əməyə görə 40-60 qəpik əmək haqqı alırdılar ki, bu da onların gündəlik ehtiyaclarını güclə ödəyirdi. 1891-ci ildə Dərbənddən 80 min vedrə çaxır aparılmışdı ki, onun da dəyəri 80 min rubl təşkil edirdi. Eyni zamanda 511 min rubl dəyərində 45 min pud tərəvəz və 351.4 min rubl dəyərində 312.6 min pud müxtəlif növ meyvə aparılmışdı.

---

[111] Сборник сведений по виноградарству и виноделию на Кавказе. Выпуск II,Тифлис,1895, с.1-66.

**Cədvəl 2. Dərbənddə taxıl və kartofun məhsuldarlığı (1894-1915-ci illər)[112]**

| İllər | Necə çetvert səpilmişdir? | | | Necə çetvert yığılmışdır? | | |
|---|---|---|---|---|---|---|
| | buğda | arpa | kartof | buğda | arpa | kartof |
| 1891 | 725 | 75 | - | 5125 | 1850 | - |
| 1892 | 1005 | 134 | 64 | 3015 | 246 | 158 |
| 1893 | 715 | 130 | 250 | 3575 | 980 | 550 |
| 1894 | 429 | 129 | 264 | 2143 | 771 | 564 |
| 1895 | 825 | 260 | 175 | 4225 | 1560 | 380 |
| 1896 | 799 | 268 | 255 | 3995 | 1608 | 380 |
| 1897 | 800 | 300 | 200 | 500 | 180 | 110 |
| 1899 | 410 | 180 | 80 | 1230 | 540 | 800 |
| 1900 | 1500 | 1000 | 160 | 4500 | 4000 | 800 |
| 1901 | 9750 | 610 | 100 | 64501 | 4270 | 950 |
| 1903 | 4200 | 600 | - | 33660 | 5000 | - |
| 1904 | 4320 | 650 | - | 35400 | 5400 | - |
| 1906 | 450 | 1000 | - | 24000 | 5000 | - |
| 1908 | 2000 | 1600 | - | 8000 | 6400 | - |
| 1911 | 1210 | 1500 | 200 | 9610 | 9000 | 1500 |
| 1912 | 1215 | 1515 | 285 | 9650 | 9020 | 1670 |
| 1915 | 2500 | 1500 | 350 | 20000 | 12000 | 1400 |

Rusiyanın şəhərləri və vilayətləri ilə ticarət Xəzər dənizi vasitəsilə aparılırdı. Dərbəndə kənardan daha çox tikinti materialları, dəmir, neft, kerosin və s. gətirilirdi. 1891-ci ildə Dərbənd bazarlarına 2452 pud buğda unu, 3287 min pud yarma, buğda, 50 pud noxud, 56.2 pud tikinti materialı, 4000 puddan artıq müxtəlif dəmir məmulatı, 5127 pud sement və s. gətirilmişdi[113].

[112] Кажлаев А.Н.Возникновение и экономическое развитие городов Дагестанской АССР. Махачкала: Даг. кн. изд., 1971, s.60-61.

[113] Центральный Государственный Архив Дагестанской Республики (далее-ЦГА ДР), ф.2, оп.1, д.8. л.17-19.

1891-ci ildə Dərbənd əhalisinin ümumi sayı müvəqqəti yaşayanlar və şəhər qarnizonu ilə birlikdə 15468 nəfər təşkil edirdi. Onlardan yerli sakinlər 12305 nəfər, müvəqqəti yaşayanlar 2460 nəfər, ailələri ilə birlikdə hərbçilər 698 nəfər təşkil edirdi.

Bu dövrdə inzibati müəssisələrdən Dərbənddə şəhər polis idarəsi, məhkəmə, qəza xəzinədarlığı, poçt-teleqraf kontorası, aksiz və meşə nəzarəti, karantin gömrük postu və s. yerləşirdi. Şəhərdə 3080 yaşayış binası var idi. Şəhərin yuxarı hissəsi "tatar" məhəlləsi adlanırdı və bir-birinə bitişik evlərdən, əyri-üyrü dar küçələrdən ibarət idi. Atlar, inəklər və s. ev heyvanları yaşayış evlərinə bitişik damlarda saxlanılırdı. Zibil və s. məişət tullantıları birbaşa küçəyə atılırdı. Heyvanların peyini də küçələrə atıldığından yağışlı günlərdə bütün bu natəmizlik torpağa rahatca hoparaq içməli su mənbələrinə və xətlərinə qarışır, nəticədə şəhər əhalisi arasında epidemiyalar baş verirdi. Şəhərin ağır antisanitar vəziyyəti haqqında Dərbənd polismeysterinin raportunda geniş şəkildə məlumat verilmişdir[114]. Dərbənd ətrafında iki sənaye ərazisi var idi: balıqçılıq və karxana. Balıqçılıq üçün ayrılmış sahələr balıq sənayeçilərinə icarəyə verilirdi və icarə haqqı ildə 650 rubl təşkil edirdi. Karxanalarda isə tikinti məqsədləri üçün daş əldə edilirdi və əsasən yerli tikinti obyektlərində istifadə edilirdi. 1890-cı ildə Dərbənd ətrafında olan 15 karxanadan yalnız 2-si işlək, qalanları atılmış vəziyyətdə idi.

1891-ci ildə Dərbənddə 16 təhsil ocağı fəaliyyət göstərirdi, onlardan ən önəmlisi 3 sinifli oğlan məktəbi və ayrıca qız məktəbi idi. Məscidlər, kilsələr və sinaqoqların nəzdində, ümumilikdə, 14 məktəb fəaliyyət göstərirdi. Bütün təhsil ocaqlarında ümumilikdə 511 şagird oxuyurdu ki, bu da şəhər əhalisinin sayına nisbətdə 3.3 % təşkil edirdi.

---

[114] Центральный Государственный Архив Дагестанской Республики (далее-ЦГА ДР), ф.2, оп.1, д.8. л.21.

Hələ 1882-ci ildə Dərbənd şəhər cəmiyyəti Qafqaz Mülki Hissəsinin Baş rəisinin adına xahişnamə göndərmişdi. Xahişnamədə Dərbənddə realni məktəbin açılışı və s. məsələlərin həllində hökumət xətti ilə yardım göstərilməsi xahiş olunurdu. Bu məsələ yalnız 10 ildən sonra həllini tapdı: 1902-ci ilin sentyabrında Dərbənddə realni məktəbin açılışı oldu və məktəbin fəaliyyəti ilə bağlı bütün maliyyə xərclərinin ödənilməsi Dərbənd şəhər ictimai idarəsinə həvalə edildi. Realni məktəbə ilk olaraq varlı təbəqənin uşaqları qəbul edilirdilər. Yoxsul ailələrin uşaqlarının bu məktəblərdə təhsil almaq imkanı yox idi, çünki, əvvəllərtəhsil haqqı ildə 20 rubl olsa da, sonralar 40 rubla qədər qaldırılmışdı[115].

1904-cü ildə Dərbənd şəhər ictimai idarəsinin nəzdində Dərbənd Bağçılıq və şərabçılıq məktəbi yaradıldı. Məktəbin fəaliyyətinin maliyyələşdirilməsi Əkinçilik və Dövlət Əmlakı Nazirliyi, Dərbənd Şəhər İctimai İdarəsi, müxtəlif şəxslər və cəmiyyətlərin könüllü ödənişləri, ianələri və bağların gəlirlərindən yerinə yetirilməli idi[116]. Bu məktəbdə fənlər 3 qrupa bölünürdü: 1) ümumi fənlər; 2) köməkçi fənlər və 3) xüsusi fənlər. Ümumilikdə məktəb 5 sinifli idi və burada 20 fənn tədris olunurdu[117]. Məktəbdə rəhbər daxil olmaqla 9 müəllim çalışırdı. Çar hökuməti müəllimlərin əmək haqqının ödənilməsində ayrı-seçkiliyə yol verirdi. Belə ki, pravoslav dini üzrə din müəllimi 170 rubl, islam dini müəllimi isə 130 rubl maaş alırdı[118]. Məktəbə 14 yaşına çatmış oğlan uşaqları götürülürdü. Onlara bostançılıq, gülçülük, meyvəçilik, meyvələrin konservləşdirilməsi, üzümçülük, şərabçılıq, məhsulların saxlanılması qaydası, bitkilərin üzləşdiyi

---

[115] Гусейнов Г. Энциклопедия города Дербента.Махачкала, Из-тельство «Лотос», 2015, с.417.
[116] ЦГА ДР, ф.14, оп.1, д.8, л.231.
[117]ЦГА ДР, ф.14, оп.1, д.8, л.232-232 arx.
[118] ЦГА ДР, ф.14, оп.1, д.8, л.170.

xəstəliklər, torpaqşünaslıq, praktiki ipəkçilik və arıçılıq öyrədilirdi[119].

XIX əsrin sonlarında Dərbəndin kənd təsərrüfatında ixtisaslaşma gedirdi. Əsas kənd təsərrüfatı sahələri üzümçülük, bağçılq və tərəvəzçilik idi. Bu sahələrdə istehsal olunan məhsul həm Dağıstan vilayətinin, həm də Rusiya imperiyasının başqa şəhərlərinin tələbatının ödənilməsinə xidmət edirdi. Kənd təsərrüfatının ixtisaslaşması kənddə bazar münasibətlərinin inkişafına təsir etməklə yanaşı, əhalinin də həyat tərzinin dəyişməsinə səbəb oldu. Belə ki, müsəlman əhalinin bir qismi üzümçülüyün və şərabçılığın gəlirli sahə olduğunu anlayaraq ənənəvi şəriət qaydalarından uzaqlaşaraq, satış məqsədilə şərabçılıqla məşğul olmağa başlamışdı.

XIX əsrin ikinci yarısında Rusiyada həyata keçirilən burjua islahatları Dərbənddə kapitalist münasibətlərinə yol açdı. Torpağın alqı-satqı obyekti olması bu prosesi daha da sürətləndirdi. Ancaq Dağıstan vilayətində, o cümlədən Dərbənddə torpağın alqı-satqısı zamanı bir çox əngəllər ortaya çıxırdı. Ən çox rast gəlinən problemlərdən biri torpaq sahibinin əlində torpaq sahəsinə dair heç bir sənədin olamaması idi. Bu səbəbdən, 1894-cü ildə A.S.Xonski Əkinçilik və Dövlət Əmlakı Nazirliyinin tapşırığı ilə "Petrovsk və Dağıstanın iqtisadi həyatının inkişafına dair hökumətin nəzərdə tutduğu tədbirlər haqqında Qeydlər" hazırladı. Bu sənəddə birinci dərəcəli məsələ kimi, torpaq sahələrinin üfüqi müstəvidə sərhədlərinin müəyyən olunması idi. Bu iş kompleks tədbirlər nəzərdə tuturdu. Burada təkcə torpaq sahələrinin sərhədlərinin müəyyən olunması deyil, həm də sahələrin yerləşməsi və hüquqi tərtibatı nəzərdə tutulurdu[120].

---

[119] ЦГА ДР, ф.14, оп.1, д.8, л.232-232 arx.

[120] Кажлаев А.Н.Возникновение и экономическое развитие городов Дагестанской АССР. Махачкала: Даг. кн. изд., 1971, s.64.

Ən vacib məsələlərdən biri Dərbəndi Port-Petrovsk ilə birləşdirən quru yolun çəkilməsi idi. Belə ki, Dərbənddən Petrovska getmək üçün dolanbac yolla, Deşlaqar və Temir-Xan- Şuradan keçərək getmək mümkün idi ki, bu da yolun uzanmasına, vaxt və maddi itkilərə səbəb olurdu.

Dərbənddən Qayakəndə gedən poçt yolu artıq mövcud idi. Yalnız Qayakənddən Petrovska qədər 50 verst quru yolun çəkilməsi lazım idi. Xəzər dənizi sahili ilə çəkiləcək bu yol Dərbənddən Petrovska qədər məsafəni xeyli azaldırdı ki, bu da həm iqtisadi, həmdə mədəni baxımdan əhəmiyyət kəsb edirdi. XIX əsrin ikinci yarısında Dağıstan vilayətində quru yolları çox yarıtmaz vəziyyətdə idi ki, bunun da səbəbi çar hökumətinin quru yollarının salınmasına maliyyə vəsaiti ayırmaması idi. Dağıstan vilayətində yollar yalnız yerli əhalinin vəsaitləri hesabına çəkilirdi.

Ən vacib məsələlərdən biri Dərbənd limanının tikilməsi və Petrovskdan Dərbəndə dəmir yolunun çəkilməsi idi. XIX əsrin sonlarında artıq Petrovska dəmiryolu xətti çəkilmişdi. Petrovska qədər 1 verst dəmir yolunun çəkilişi 40 min rubla başa gəlmişdi. Ancaq Petrovskdan Dərbəndədək yolun hamar və əlavə körpü və s. digər tikintilərə ehtiyac olmadığından, burada bir verst 25 min rubla başa gəlirdi. Beləliklə, Petrovskdan Dərbəndə qədər məsafənin 115 verst olduğunu nəzərə alaraq demək olar ki, dəmir yolu xəttinin çəkilişi 2875 rubl vəsait tələb edirdi.

Xonskinin "Qeydlər"ində həmçinin Dərbənddə torpaq bankının açılmasının, şəhərdə qarşılıqlı kredit cəmiyyətinin yaradılmasının, pambıq əkininin tətbiq edilməsinin, şərabçılara kredit verilməsinin, dövlətə məxsus şərabsaxlama bazalarının yaradılmasının, Port-Petrovskda şərabçı-alim vəzifəsinin təsis edilməsinin, mədən işlərinin inkişaf etdirilməsi üçün ictimai torpaqlardan istifadə hüququ haqqında əsasnamənin dəqiqləşdirilməsinin zəruriliyi göstərilir.

1891-1892-ci illərdə Dərbənddə üzümün emalı və spirt, şərab istehsalı ilə məşğul olan müəssisələrin sayı xeyli artmışdı. Şəhər polismeyterinin hesabatında Dərbənddə 35 sənaye-istehsal sahəsində irili-xırdalı yüzədək müəssisənin olduğu göstərilir[121].

1881-ci ildə Dərbənd bağ sahiblərinə məxsus 16 saylı şərab-araq zavodu işə düşdü. Bu zavodun cəmi 20 işçisi var idi. Zavodun istehsal etdiyi məhsul bütün Dağıstan vilayəti və Bakıda satılırdı. 1895-ci ildə 16 saylı zavodda dəyəri 50 min rubl olan 6500 vedrə spirt istehsal olunmuşdu.1884-cü ildə şəxsi mülkiyyətdə olan 2 saylı şərab-araq zavodu işə düşdü ki, bu zavodda 15 işçi çalışırdı. 1895-ci ildə 2 saylı zavod 5500 vedrə spirt istehsal etmişdi ki, onun da məhsulu, əsasən Dərbənd və Bakıda realizə edilirdi[122].

Qeyd etmək lazımdır ki, Dərbənddə hazırlanan şərab məhsullarına Rusiya bazarlarında tələbat çox aşağı idi. Bunun da əsas səbəbi kustar üsulla hazırlanan Dərbənd şərab-araq məhsullarının keyfiyyətinin lazımi səviyyədə olmaması idi. Hətta Dərbənd şəhər polismeysteri 1895-ci il tarixli hesabatında yazırdı ki, əsasən erməni və yəhudilərin əlində cəmləşən şərabçılıq məhsullarının keyfiyyəti aşağıdır. Buna səbəb kimi o, “texniki biliklərin olmamasını, ən başlıcası isə şərabın hazırlanması və saxlanması üçün kapitalın olmamasını” göstərirdi[123]. Dərbənd şərabçılarından tək-tük şəxslərin şərab qıcqırdan çənbəri, filtirləri, şərabın güc alması üçün saxlanma zirzəmiləri və s. avadanlığı var idi.

Adı çəkilən şərabçılıq müəssisələrindən savayı, 1895-ci ildə Dərbənddə 8 əhəng zavodu, 2 daş karxanası, 1 mineral su istehsal edən müəssisə var idi. Bu müəssisələr o qədər iri deyildi və bu da onların illik istehsal gücündən görünürdü. Əhəng zavo-

---

[121] ЦГА ДР, ф.2, оп.1, д. 182, л. 6, 6 arxası

[122] ЦГА ДР, ф.2, оп.1.д. 182, л. 42.

[123] Кажлаев А.Н.Возникновение и экономическое развитие городов Дагестанской АССР. Махачкала: Даг. кн. изд., 1971, .s.66.

du ildə 1000 rubl, daş karxanaları 2350 rubl və mineral su müəssisələri 800 rubl dəyərində məhsul istehsal edirdilər.

İdarəetmədə də müəyyən dəyişikliklər baş verdi. 1892-ci il 11 iyunda qəbul edilmiş "Şəhər əsasnaməsi"nə görə, 1895-ci ildən Dərbənddə sadələşdirilmiş şəhər özünüidarə forması tətbiq olunmağa başladı. Yeni qaydalara görə şəhər Dumasını və şəhər idarəsinin səlahiyyətlərini şəhər müvəkkilləri yığıncağı əvəz etdi. Yeni orqana starosta və onun köməkçiləri rəhbərlik edirdilər. Şəhər səlahiyyətliləri 12-15 nəfər olmaqla 4 il müddətinə seçilirdilər.

XIX əsrin ikinci yarısında Qafqazda rus ekspansiyası gücləndi və xristian dininə aid xalqların, xüsusən pravoslav əhalinin Qafqazda, o cümlədən Dərbənddə məskunlaşması intensivləşdi. Məsələn, Brokhauz və Efronun Ensiklopediya lüğətində Dərbənd şəhərinin əhalisinə toxunulur və burada 1886, 1888 və 1891-ci illərə aid məlumatlar verilir. Lüğətdə qeyd olunur ki, 1886-cı ildə şəhər əhalisinin sayı 11.518 nəfər təşkil etmişdir. Onlardan Azərbaycan tatarları (azərbaycanlılar-İ.A.) 8697 nəfər, yəhudilər – 1830, ruslar - 620, ermənilər – 371 nəfər təşkil edirdilər[124]. Həmin mənbədə 1888-ci ildə Dərbənddə artıq 14.185 nəfərin yaşadığı göstərilir. Lüğətdə Dərbənd əhalisi haqqında üçüncü məlumat 1891-ci ilə aiddir. Burada əhalinin 15.265 nəfər olduğu göstərilir ki, onların da 16 nəfəri lüteran, 201 nəfər katolik, 875 erməni-qriqoryan, 1319 provoslav, 2490- yəhudi və böyük əksəriyyəti - 10243 nəfəri müsəlman olmuşdur[125]. Adı çəkilən mənbədə göstərilir ki, 1886-cı ildə Dərbənddə 14 məscid, 1 pravoslav və 1 erməni-qriqoryan kilsəsi, 3 yəhudi sinaqoqu fəaliyyət göstərirdi.

---

[124].Энциклопедический словарь. Т.Х. Издатели Ф.А. Брокгауз (Лейпциг) и И.А.Ефрон (С-Петербург), С-Петербург, Типография И.А.Ефрона, Прачечный переулок, №6.1893. с.423.
[125] Yenə orada.

Beləliklə, XVIII əsrin sonu ilə müqayisədə, rus işğalı dövründə Dərbənd əhalisinin ümumi kütləsində xristian dininə aid xalqların sayında artım qeydə alınmışdır. Məsələn ermənilərin sayı 56 nəfərdən (1810) 875 nəfərə(1891) çatmış, şəhərdə rus işğalına qədərki dövrdə rast gəlinməyən etnoslar (almanlar, polyaklar, ruslar, ukraynalılar, gürcülər və s.) məskunlaşmağa başlamışlar ki, qeyd etdiyimiz kimi bu, çarizmin apardığı milli və dini siyasətin nəticəsi idi.

Sonrakı illərdə də şəhər əhalisinin etnik müxtəlifliyi tendensiyası davam etmiş və biz bunu 1897-ci ildə Rusiya imperiyasında aparılan Birinci Ümumi əhalinin siyahıya alınmasının nəticələrində də görürük.

**Cədvəl 3.1897-ci ildə Dağıstan vilayətinin dairələri üzrə əhalisinin sayı[126]**

| № | Dairələr | kişi | qadın | Cəmi |
|---|---|---|---|---|
| 1. | Temir -xan Şura | 54052 | 43296 | 97348 |
| 2. | Qaytaq-Tabasaran | 48284 | 42737 | 91021 |
| 3. | Dargin | 38403 | 42540 | 80943 |
| 4. | Kürin | 39039 | 38641 | 77680 |
| 5. | Qunib | 26068 | 29231 | 55899 |
| 6. | Andi | 24537 | 25091 | 49628 |
| 7. | Qazıqumux | 18122 | 27241 | 45363 |
| 8. | Avar | 18890 | 18749 | 37639 |
| 9. | Samur | 15284 | 20349 | 35633 |
| **Bütün Dağistan vilayəti üzrə:** | | **283279** | **287875** | **571154** |

[126] Первая Всеобщая перепись населения Российской Империи 1897 г.Таблица XIII. Распределение населения по родному языку. (Губернские итоги). Т.Т.51-89. С.-Петербург: 1903-1905.

Cədvəl 3-dən göründüyü kimi, 1897-ci ildə Dağıstan vilayətində yarım milyondan artıq, daha dəqiq desək, 571 min 154 nəfər əhali yaşayırdı. Əhalinin əksəriyyəti – təqribən 347 mini 4 dairədə (Temir-Xan - Şura, Qaytaq-Tabasaran, Dargin və Kurin) dairələrində cəmləşmişdi.

Dağıstan vilayətinin əhalisi etnik müxtəlifliyi ilə seçilirdi. Cədvəl 4-də vilayətdə qeydə alınan əhalinin etnik tərkibi göstərilir. Burada əsas 14 etnosun yaşadığını görürük. Nəzərə alaq ki, "başqaları" qrafasında sayı 100-ə qədər olan xalqlar daxil edilmişdir. Cədvəl 4-ə görə, 1897-ci ildə Dağıstanda yaşayan ən çoxsaylı xalq avarlar (158.550 nəfər) olmuşdur. Onlardan sonra darginlər (121.375 nəfər), kürinlər (94.596), kumıklar(51.209) və tatarlar (azərbaycanlılar) – 32.143 nəfər gəlir. Beləliklə, 1897-ci ildə Dağıstan vilayətində sayına görə, azərbaycanlılar 5-ci xalq idi və ümumi əhalinin təqribən 5,6 % təşkil edirdi.

Nəzərə alaq ki, Dağıstan vilayətinin tərkibinə indiki Çeçenistanın və Kalmıkiyanın bir sıra əraziləri də daxil idi və azərbaycanlılar vilayətin cənubunda, yəni tarixən Azərbaycan dövlətinə mənsub olmuş öz tarixi torpaqlarında yaşayırdılar. 1866-cı ildə aparılan inzibati islahat nəticəsində Dərbənd quberniyası ləğv edilmiş və Dərbənd xanlığının ərazisi yeni bölgüyə əsasən yaradılan Qaytaq-Tabasaran dairəsinə qatılmışdı. Yarandığı zaman dairədə 42.1 min əhali yaşayırdı və əhali etnik baxımdan qaytaqlılardan, tatarlardan (azərbaycanlılar), kubaçilərdən, kumıklardan, tatlardan (dağ yəhudilərindən) ibarət olmuşdur [127]. Azərbaycanlıların sayı, xüsusən Dərbənd dairəsində və Qaytaq-Tabasaran vilayətində əhəmiyyətli çəkiyə malik idi.

[127] Цуциев А. Атлас этно-политической истории Кавказа (1774-2004). М. 2006, с.24

## Cədvəl 4. 1897-ci ildə Dağıstan vilayətinin əhalisinin etnik tərkibi[128]

| Dil və dil qrupu | Dil və dil qrupu | kişi | qadın | cəmi |
|---|---|---|---|---|
| c ə m i | | 283279 | 287875 | 571 154 |
| ruslar | velikoruslar | 8262 | 4849 | 13 111 |
| | maloruslar(ukraynalılar) | 2412 | 483 | 2 895 |
| | belaruslar | 33 | 5 | 38 |
| | cəmi | 10 707 | 5 337 | 16 044 |
| polyak | | 1515 | 115 | 1 630 |
| litva-latış dilləri | litvalılar | 520 | 0 | 520 |
| alman | | 172 | 89 | 261 |
| erməni | | 964 | 672 | 1 636 |
| fars | | 1295 | 425 | 1 720 |
| tat | | 1531 | 1467 | 2 998 |
| yəhudi | | 3965 | 3396 | 7 361 |
| kartveli dilləri | gürcülər | 227 | 148 | 375 |
| qafqaz dağlılarının dilləri | çeçenlər | 412 | 345 | 757 |
| | avar-andilər | 77673 | 80877 | 158 550 |
| | darginlər | 59627 | 61748 | 121 375 |
| | kürinlər | 44733 | 49863 | 94 596 |
| qazıqumux və sair ləzgi dilləri | | 33906 | 42475 | 76 381 |
| türk-tatar dilləri | Tatarlar (azərbaycanlılar) | 17238 | 14905 | 32 143 |
| | kumıklar | 26683 | 24526 | 51 209 |
| | noqaylar | 1033 | 876 | 1 909 |
| sair dillər | ərəblər | 457 | 455 | 912 |
| başqaları | | 621 | 156 | 777 |

[128] Первая Всеобщая перепись населения Российской Империи 1897 г. Таблица XIII. Распределение населения по родному языку. (Губернские итоги). Т.Т.51-89. С.-Петербург: 1903-1905

1897-ci ilə olan məlumatlardan görürük ki, Qaytaq-Tabasaran dairəsinin əhalisinin sayı əhəmiyyətli dərəcədə artaraq 91.021 nəfər təşkil edirdi. Azərbaycanlılar bu dairədə 32% təşkil edirdilər ki, onların da sayı 29 minə çatırdı[129]. Azərbaycanlılar dairədə kompakt şəkildə Dərbənd şəhəri və Dərbənddən cənuba Samur çayına qədərki ərazilərdə məskunlaşmışdılar.

1897-ci ilə Dərbənd şəhərinin əhalisinin say artımında demək olar ki, kəmiyyət artımı baş verməmişdi. Nəzərə alsaq ki, 1796-cı ildə Dərbənddə 10 min əhali yaşayırdısa, 100 il sonra 1897-ci ildə biz bu rəqəmin cəmi 14.649 nəfər olduğunu görürük (Cədvəl 5).

**Cədvəl 5. 1897-ci ildə Qaytaq-Tabasaran dairəsinin Dərbənd şəhərinin əhalisinin etnik tərkibi**

| **Dil və dil qrupu** | **Dil və dil qrupu** | **kişi** | **qadin** | **cəmi** |
|---|---|---|---|---|
| ruslar | velikoruslar | 612 | 392 | 1004 |
| | maloruslar(ukraynalılar) | 84 | 2 | 86 |
| | belaruslar | 2 | 0 | 2 |
| | cəmi | 698 | 394 | 1092 |
| polyak | | 158 | 1 | 159 |
| litva-latış dilləri | litvalılar | 140 | 0 | 140 |
| alman | | 15 | 11 | 26 |
| erməni | | 332 | 289 | 621 |
| fars | | 8 | 6 | 14 |
| tat | | 8 | 0 | 8 |
| yəhudi | | 1117 | 1064 | 2181 |

---

129 Первая Всеобщая перепись населения Российской Империи 1897 г.Таблица XIII. Распределение населения по родному языку. (Губернские итоги). Т.Т.51-89. С.-Петербург: 1903-1905.

| | | | | |
|---|---|---|---|---|
| kartveli dilləri | gürcülər | 5 | 0 | 5 |
| qafqaz dağlılarının dilləri | kürinlər | 104 | 29 | 133 |
| | avar-andilər | 211 | 67 | 278 |
| | darginlər | 95 | 0 | 95 |
| qazıqumux və sair ləzgi dilləri | | 96 | 1 | 97 |
| **türk-tatar dilləri** | **Tatarlar (azərbaycanlılar)** | **5131** | **4636** | **9767** |
| ana dilini göstərməyənlər | | 28 | 5 | 33 |
| c ə m i | | 8146 | 6503 | 14649 |

Çar hökumətinin apardığı siyasət nəticəsində Dərbənd uzun illər hökumətin nəzərindən kənarda qalmış, bu ərazilərdə müsəlman-türk əhalisinin sayının azalması prosesi getmişdi.

Yəni, biz siyahıyaalmanın nəticələruinə diqqət versək, 100 il ərzində əhalinin 4.6 min artımı, əsasən, bura köçürülən gəlmə əhali hesabına əldə edildiyini görərik. Yerli azərbaycanlıların sayında bir əsr ərzində demək olar ki, kəmiyyət artımı müşahidə olunmur – 1796-cı ildə Dərbənddə təqribən 9.5 min azərbaycanlı yaşayırdısa, 1897-ci ilin siyahıyaalmasında Dərbənddə 9767 azərbaycanlının yaşadığı aydın olur. Qeyd edək ki, Dərbənd əhalisinin artımının aşağı olması həm də təbii artımla bağlı olmuşdur. Əgər əhalinin ailə vəziyyətinə baxsaq görərik ki, subay oğlanların sayı 5086, qızların isə 2951 olmuşdur. Kişilərə 17 yaşdan, qızlara isə 15 yaşdan nikaha girməyə icazə verilirdi[130]. Dul kişilərin sayı 84, dul qadınlar isə 970 nəfər olmuşdur. Bağ-

[130] Козубский Е.И. История города Дербента. Темур-Хан-Шура «Русская типография» В.М.Сорокина. 1906. с. 455.

lanan nikahların dinamikasına baxsaq görərik ki, 1896-cı ildə - 259, 1897-218, 1898-261, 1901-311, 1902-239, 1903-309, 1904-278, 1905-275- nikah qeydə alınmışdır. Müvafiq olaraq, 1896-cı ildə 318, 1897-357, 1898-381, 1899-515, 1900-494, 1901-686, 1902-653, 1903-687, 1904-683, 1905-687 nəfər doğulmuşdur. Ölənlərin sayını çıxsaq 1896-cı ildə təbii artım +42, 1897 +71, 1898-205, 1899 -+77, 1900 -+235, 1905-+116 nəfər olmuşdur.[131] Əhali sayının artımında gəlmə əhali əhəmiyyətli rol oynamışdır. Çar hökumətinin köçürmə siyasəti nəticəsində Dərbənddə yeni xalqlar – ruslar, maloruslar (ukraynalılar), belaruslar, litvalılar, polşalılar, ermənilər məskunlaşdırılmışdı ki, onların ümumi sayı 2038 nəfər, yəni təqribən 14% təşkil edirdi.

1897-ci ildə Rusiya imperiyasının əhalisinin Birinci ümumi siyahıya alınması aparıldı. Bu siyahıyaalmanın nəticələri göstərdi ki, Dərbənd şəhərində 14649 nəfər sakin yaşayırdı ki, onların da 8146 nəfəri kişi, 6503 nəfəri isə qadın cinsindən idi.

Aşağıdakı cədvəldən göründüyü kimi, Dərbənd əhalisinin 67%-i azərbaycanlı, 15%-i yəhudi, 7%-i rus əsilli əhali idi. Azərbaycanlıların sayı yenə çox əhəmiyyətli hissə, yəni 67% təşkil edirdi. Şəhərdə hələ erkən orta əsrlərdən məskunlaşan yəhudilər də əhəmiyyətli faiz (15%) təşkil edirdilər. Beləliklə, azərbaycanlılarıv (67%), yəhudiləri (15%) və çar hökuməti tərəfindən köçürülən slavyan-xristian elementini(14%) çıxsaq, görərik yerdə qalan dağlı xalqları- kürinlər, avarlar, darginlər, qazıqumuxlular və sair ləzgi xalqları hamısı birlikdə Dərbənd əhalisinin cəmi 4 % -ni təşkil etmişlər. Konkret ləzgilərə gəldikdə, 1897-ci ildə Dərbənddə onların sayı 133 nəfər olmuşdur ki, bu da 0,9 % təşkil edirdi[132].

---

[131] Козубский Е.И. История города Дербента. Темур-Хан-Шура «Русская типография» В.М.Сорокина. 1906. с. 455.

[132] Население Дагестана. Кайтаго-Табасаранский Округ (1897г.) http://www.ethno-kavkaz. narod.ru/ kaytagotabasaran1897. html (müraciət tarixi-06.03.2019).

**Cədvəl 6. 1897-ci ildə Dərbənd şəhər əhalisinin ana dilinə görə tərkibi[133]**

| Əhali | Ümumi sayı | O cümlədən: | |
|---|---|---|---|
| | | Kişilər | qadınlar |
| ruslar | 1092 | 698 | 394 |
| polyaklar | 159 | 158 | 1 |
| litvalılar-latışlar | 140 | 140 | - |
| almanlar | 26 | 15 | 11 |
| ermənilər | 621 | 332 | 289 |
| farslar | 14 | 8 | 6 |
| tatlar | 8 | 8 | - |
| yəhudilər | 2181 | 1117 | 1064 |
| gürcülər | 5 | 5 | - |
| Qafqazdilli xalqlar (avarlar, ləzgilər, dar-ginlər, qazıqumuxlar) | 603 | 506 | 97 |
| çeçenlər | 5 | 5 | - |
| finlər | 8 | 8 | - |
| tatarlar (azərbaycanlılar) | 9772 | 5131 | 4636 |
| türklər | 5 | 5 | - |
| Dilini göstərməyənlər | 2 | 2 | - |
| **Cəmi:** | **14649** | **8146** | **6503** |

Şəhər əhalisinin sayının ətraf kəndlər hesabına artımına gəldikdə Kozubski qeyd edir ki, Dərbənd ətrafı kənd əhalisi şəhərdə məskunlaşmaya cəhd etmir. O yazır ki, "*xüsusən də ətraf bölgələrdə yaşayan müsəlman - ləzgi əhalisi ümumiyyətlə Dərbəndə köçməyə maraq göstərmirlər.. çünki iqlim şəraiti onları qane etmir*"[134]. Eyni sözləri o, həmçinin Dağıstanın başqa dairə-

---

[133]Население Дагестана. Кайтаго-Табасаранский Округ (1897г.) http://www.ethno-kavkaz. narod.ru/ kaytagotabasaran1897. html (müraciət tarixi-06.03.2019).

[134] Козубский Е.И. История города Дербента. Темур-Хан-Шура «Русская типография» В.М.Сорокина. 1906. с. 455.

lərində yaşayan dağ yəhudilərinə də aid etmişdir. Müəllif Rusiyanın ayrı-ayrı şəhərlərindən rus-xristian əhalinin Dərbəndə köçməsini qeyd edir.

Beləliklə, Dərbənd şəhəri əhalisinin etnik tərkibi haqqında çar Rusiyası dövründə yazılmış yazılı mənbələri tədqiq və təhlil etdikdən sonra aşağıdakı nəticəyə gələ bilərik ki, Dərbənd şəhəri XIX əsrin əvvəllərinədək türk şəhəri kimi fəaliyyət göstərmişdir və əhalisinin 95 % türksoylu xalqlardan ibarət olmuşdur.

1806-cı ildə baş vermiş rus işğalından sonrakı dövrdə çar hökuməti Dərbəndin strateji mövqeyini nəzərə alaraq, burada daha çox xristian-slavyan milli-dini elementini yerləşdirməyə çalışmışdır və bu proses, xüsusən Qafqaz müharibəsi başa çatdıqdan sonra (1864) daha da intensivləşmişdir.XIX əsrin sonu XX əsrin əvvəllərinə xristian –slavyan etnik-dini elementi artıq Dərbənd əhalisinin 14%-ni təşkil edirdi ki, bu da çarizmin mürtəce milli siyasətinin nəticəsi idi.

Çar hökumətinin siyasi, mədəni, iqtisadi, dini ekspansiyası nəticəsində 1796-1897-ci illər ərzində Dərbəndin Azərbaycanlı əhalisinin sayında əhəmiyyətli riyazi artım qeydə alınmamış və gəlmə əhalinin artımı fonunda azərbaycanlıların faiz göstəriciləri aşağı düşmüşdür. 1796-cı ildə təqribən Dərbənddə 95% təşkil edən azərbaycanlılar, 1897-ci ildə artıq 66,7% faizə enmişdir.[135]

Bütün bunlara baxmayaraq XIX əsrin sonunda say və faiz göstəricilərinə görə birlikdə götürdükdə bütün etnosları üstələyirdi –1897 – ci ildə şəhər əhalisinin hər 3 nəfərdən 2-si azərbaycanlı idi.

**Dərbənd əhalisinin sosial tərkibi.** Dərbənd əhalisinin sosial tərkibinin formalaşması əsrlər boyu davam etmişdir. XIX əsrin əvvəllərində onun əhalisinin əsas hissəsini “Qafqaz tatarları”, yəni azərbaycanlılar və dağ yəhudiləri təşkil edirdi.

---

[135] Первая Всеобщая перепись населения Российской Империи 1897 г. Таблица XIII. Распределение населения по родному языку. (Губернские итоги). Т.Т.51-89. С.-Петербург: 1903-1905

Dərbənd Rusiya imperiyası tərəfindən işğal olunduqdan sonra çar hökuməti bura rus əhalisinin axınını təşkil etdi. İlk dövrlər Dərbəndə gələn rusların əksəriyyətini hərbçilər və mülki şəxslər təşkil edirdi. XIX əsrin sonuna Dərbənddə Dağıstan xalqları nəzərəçarpacaq saya malik deyildilər.

XIX əsrin ikinci yarısında Dərbənd şəhərinin əhalisinin sosial tərkibi Rusiya imperiyasının başqa şəhərlərindən fərqlənmirdi. Şəhər əhalisi zadəgan (irsi və şəxsi), yüksək müsəlman təbəqəsi – xanlar, bəylər, çanki və din xadimlərindən ibarət idi. Qeyd edək ki, "şəxsi zadəgən" dedikdə bu titulu şəxsi xidmətlərinə görə alan şəxslər nəzərdə tutulurdu. Şəhər əhalisinin müəyyən hissəsini irsi və şəxsi fəxri vətəndaşlar, tacirlər və meşanlar təşkil edirdilər. Dərbəndin kənd əhalisi dövlət kəndlilərindən ibarət idi.

Dərbəndin əhalisinin sosial tərkibini öyrənmək üçün ən əhəmiyyətli mənbə Dağıstan vilayətinin icmallarıdır ki, onlar hər il üçün hazırlanıb çap olunurdu. Bu icmalların nəşri 1890-cı illərdən başlanmışdır. Tədqiqatçı Elmira Dalqat Dərbəndin əhalisinin sosial tərkibini müxtəlif illərdə nəşr olunan icmallar əsasında araşdıraraq aşağıdakı cədvəli hazırlamışdır.

**Cədvəl 7. 1896-1913-cü illərdə Dərbənd əhalisinin sosial tərkibi[136]**

| Silkin adı | 1896 | 1899 | 1902 | 1906 | 1908 | 1911 | 1913 |
|---|---|---|---|---|---|---|---|
| I. Z A D Ə G A N L A R | | | | | | | |
| 1.Nəsilli | 208 | 224 | 226 | 240 | 215 | 236 | 64 |

[136] Далгат Э.М. Социально-экономическое развитие Дербента во второй половине XIX - начале XX века. // Вестник Дагестанского научного центра. Махачкала, 2015, № 56, с. 57-58.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2.Şəxsi | 545 | 722 | 716 | 716 | 715 | 724 | 292 |
| 3.Bəylər | - | 345 | 344 | 670 | 670 | 504 | 450 |
| 4. Çanki | - | - | - | - | - | - | - |
| II.DİN XADİMLƏRİ. | | | | | | | |
| 1.Pravoslav | 7 | 19 | 10 | 10 | 9 | 8 | 8 |
| 2.Roma - katolik | - | - | - | - | - | - | - |
| 3.Müsəlman -sünnü | 7 | - | 7 | 7 | 2 | 2 | 9 |
| 4.Müsəlman -şiə | 27 | - | 20 | 20 | 40 | 20 | 82 |
| 5.Yəhudi | 18 | 2 | 11 | 11 | 4 | 3 | 12 |
| 6.Erməni-qriqoryan | 8 | 7 | 11 | 8 | 6 | 8 | 8 |
| I.ŞƏHƏR SİLKLƏRİ. | | | | | | | |
| 1.Nəsilliklə fəxri vətəndaş | 11 | 19 | 19 | 19 | 25 | 20 | 6 |
| 2.Şəxsi fəxri vətəndaş | 13 | - | - | 90 | - | - | 2 |
| 3.Tacirlər | 255 | 153 | 123 | - | 100 | 90 | 40 |
| 4.Meşşanlar | 12096 | 15582 | 16419 | 17167 | 193 77 | 176 67 | 189 12 |
| III.KƏND SİLKLƏRİ | | | | | | | |
| Dövlət kəndliləri | 1103 | - | - | - | - | - | - |
| IV.HƏRBİ SİLKLƏR | | | | | | | |
| 1.Daimi qoşunlar | 1041 | 710 | 1055 | 974 | 100 1 | 274 | 390 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2.Qeyri-daimi qoşunlar | - | 30 | - | - | - | - | - |
| 3.Ehtiyatda olan aşağı rütbələr | 167 | 306 | - | - | - | - | - |
| 4.Aşağı rütbəlilərin, əsgərlərin arvad və uşaqları | 62 | 116 | - | - | - | - | - |
| 5.Xarici təbəələr | 82 | 275 | - | - | - | - | - |
| 6.Naməlum | - | - | - | 10024 | 13252 | 13159 | 13279 |
| **CƏMİ:** | **13650** | **18546** | **18958** | **29777** | **35415** | **32716** | **33554** |

Cədvəl 7-dən göründüyü kimi, Dərbənd əhalisinin böyük əksəriyyətini meşşanlar təşkil edirdilər. 1896-cı ildən 1913-cü ilədək onların sayı 60% artmağa, zadəganların və hərbçilərin sayı isə azalmağa başlamışdı. Zadəganlar silkinə Dərbənddə yaşayan bəylər və çanklar da aid edilirdi və onlar rəsmi olaraq rus zadəganları ilə eyniləşdirilmirdilər. İrsi və şəxsi zadəganların sayı ildən-ilə azalırdı. Eyni zamanda Dərbənd şəhərində yaşayan bəylərin sayı 30% artmışdı. Dərbənd ətrafı ərazilərdə yaşayan bəylər Dərbənd şəhərinə köçməyə meylli idilər.

Fikrimizcə, Dərbənd şəhərinin əhalisinin sosial tərkibinə təsir edən amillərdən biri də Dağıstan vilayətində knyaz A.İ.Baryatinskinin tərtib etdiyi 5 aprel 1860-cı əsasnaməsinə uyğun olaraq bərqərar olan hərbi-xalq idarə üsulu idi. Bu sistem Dərbənddə çox sayda hərbçilərin yerləşdirilməsini zəruri edirdi. 10 iyun 1860-cı ildə imperator fərmanı ilə təsdiq edilən "Əsasnamə"yə görə, Dağıstan vilayəti yaradılırdı. İnzibati islahata görə Dər-

bənd quberniyası ləğv edild. Onun tərkibinə daxil olmuş Quba qəzası yeni yaradılmış Bakı quberniyasına, Dərbənd isə Dağıstan vilayətinə birləşdirildi. Şimali, Cənubi, Orta və Yuxarı Dağıstan hərbi bölgələrindən ibarət olan Dağıstan vilayətinin tərkibində daha iki mülki idarə – Dərbənd şəhəri və Ulus mahalından ibarət olan Dərbənd şəhər rəisliyi və Petrovsk şəhər idarəsi yaradıldı[137]. 1860-cı ildən sonrakı dövrdə Dağıstan vilayətində, o cümlədən Dərbənd şəhərində hərbçilərin sayı ilbəil azalmağa meylli idi.

Dərbəndi Dağıstan vilayətinə aid şəhərlərdən fərqləndirən cəhətlərdən biri də burada kənd təsərrüfatı ilə məşğul olan kəndlilərin sayının nisbətən az olması idi. Rusiyanın başqa bölgələrindən Dağıstana köçən kəndlilər əsasən, Temir-Xan-Şura və Petrovsk kimi yeni və kiçik şəhərlərə köçməyə üstünlük verirdilər. Mənbələrdən də görünür ki, 1896-1913-cü illər ərzində əgər Dərbənddə yerləşən kəndlilərin sayı 3 dəfə artmışdısa, Petrovskda 7 dəfə və Temir-Xan-Şurada 8 dəfə artım olmuşdu.[138]

Beləliklə, deyə bilərik ki, Dərbənd şəhərinin əhalisinin təsərrüfat fəaliyyəti müxtəlifliyi ilə seçilirdi. Onlar həm sənətkarlıqla, həm də ticarət, məişət xidməti, faytonçuluqla məşğul olur, sənaye müəssisələrində çalışırdılar. Şəhər əhalisinin bir qismi isə mövsümi işlərlə məşğul olurdu. Bu dövrdə bəzi sənətkarlıq sahələri (kilim, parça, xalça toxunması) dəbdən çıxır, yeni sənət sahələri (nəşriyyat işçisi, çəlləkdüzəldən, kitab tikən və s.) meydana gəlir ki, bu da iqtisadiyyatda kapitalist münasibətlərinin formalaşması ilə əlaqədar idi. Dərbənd şəhər əhalisinin kənd təsərüfatı ilə məşğuliyyəti köməkçi xarakter daşıyır, yalnız üzümçülük və şərabçılıq bazar üçün işləyirdi. Beləliklə, XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində Dərbəndin iqtisadi həyatında ənənəvi təsərrüfat sahələri qalmaqla yanaşı, yeni innovativ təsərrüfat sahələri də meydana gəlmişdi. XIX əsrin ikinci yarısı -

---

[137]История Дагестана. В 4-х тт., т.II. М., 1968, с.119-120.

[138] Далгат Э. М. «Социально-экономическое развитие Дербента во второй половине xix – начале xx века»// Вестник Дагестанского научного центра. 2015. № 56. с. 57.

XX əsrin əvvəllərində Dərbəndin sosial-iqtisadi inkişafı yeni mərhələyə qədəm qoymuşdu ki, bu da Qafqaz regionunun Ümumrusiya iqtisadi sisteminə cəlb olunmasının Dərbənddə və regionun başqa ərazilərində kapitalist münasibətlərinin formalaşmasının və inkişafının nəticəsi idi. Boya fabrikinin fəaliyyəti, dəmiryol xəttinin inşası, Rusiya banklarının filiallarının Dərbənddə fəaliyyəti – bütün bunlar Dərbəndin iqtisadi həyatında baş verən yeniliklər idi. Dərbənd üçün xarakterik olan əsas cəhət ənənələrin və yeniliklərin vəhdəti idi. Bu da onun inkişafını sürətləndirən əsas amillərdən biri idi.

Siyahıyalma göstərdi ki, Dərbənd əhalisi arasında savadlılar 11,2% təşkil edirdi; savadlıların da təqribən 60%-i rus dilində, qalan 40%-i isə başqa dillərdə yazıb oxumağı bacarırdı. İbtidai təhsildən yuxarı təhsil alanlar isə ümumi əhalinin 0,3%-ni, savadlı əhalinin isə 8%-ni təşkil edirdilər ki, onların da sayı 128 nəfər idi.

### Cədvəl 8. Dərbənd şəhərində savadlı əhalinin sayı[139]

| Əhali | əhalinin ümumi sayı | Savadlı-ların ümumi sayı | O cümlədən: | | |
|---|---|---|---|---|---|
| | | | rusdilli savadlılar | başqa dildə savadlı-lar | Təhsili ibtidaidən yuxarı olanlar |
| ruslar | 1092 | 558 | 551 | 7 | 87 |
| polyaklar | 159 | 78 | 23 | 55 | 7 |
| litvalılar-latışlar | 140 | 77 | 40 | 37 | - |
| almanlar | 26 | 7 | 3 | 4 | 1 |
| ermənilər | 621 | 262 | 172 | 90 | 20 |
| farslar | 14 | 1 | 1 | - | - |
| tatlar | 8 | 2 | 1 | 1 | - |

[139] Население Дагестана. Кайтаго-Табасаранский Округ (1897г.) http://www.ethno-kavkaz. narod.ru/ kaytagotabasaran1897. html (müraciət tarixi-06.03.2019).

| | | | | | |
|---|---|---|---|---|---|
| yəhudilər | 2181 | 209 | 102 | 107 | 2 |
| gürcülər | 5 | 1 | - | 1 | - |
| Qafqazdilli xalqlar | 603 | 27 | 10 | 17 | 4 |
| çeçenlər | 5 | 1 | 1 | - | - |
| finlər | 8 | 6 | 5 | 1 | - |
| tatarlar(azərbay canlılar) | 9772 | 398 | 149 | 249 | 7 |
| türklər | 5 | 2 | 1 | 1 | - |
| Dilini göstərməyənlər | 2 | - | 2 | - | - |
| **Cəmi:** | **14649** | **1635** | **975** | **660** | **128** |
| **Faizlə:** | **100%** | **11,2%** | **savadlıların 60%-i** | **savadlıların 40%-i** | **savadlıların 8%-i** |

Şəhərdə yaşayan xalqlara görə savad dərəcəsinə baxsaq, görərik ki, rusların 52%-i, yəhudilərin 9%-i, azərbaycanlıların isə cəmi 4%-i savadlı idi. Azərbaycanlılar savadlıların sayına görə yalnız ruslardan geri qalırdılar: əgər Dərbənddə 558 savadlı rus vardısa, savadlı azərbaycanlıların sayı 398 nəfər idi. Lakin əhalinin ümumi sayına nəzərən azərbaycanlıların böyük əksəriyyəti yazıb oxumağı bacarmırdı.

Beləliklə Dərbənd şəhəri əhalisinin etnik tərkibi haqqında çar Rusiyası dövründə yazılmış yazılı mənbələri və müasir dövrdə aparılan tədqiqat işlərini tədqiq və təhlil etdikdən sonra XIX əsrdə Dərbəndin əhalisinin etnik tərkibində baş verənlərlə bağlı aşağıdakı nəticəyə gələ bilərik:

1. Dərbənd şəhəri XIX əsrin əvvəllərinədək türk şəhəri kimi fəaliyyət göstərmiş və əhalisinin 95 % türksoylu xalqlardan ibarət olmuşdur.
2. 1806-cı ildə baş vermiş rus işğalından sonrakı dövrdə çar hökuməti Dərbəndin strateji mövqeyini nəzərə alaraq, burada daha çox xristian-slavyan milli-dini elementini yerləşdirməyə çalışmış və bu proses, xüsusən Qafqaz müharibəsi başa çatdıqdan sonra (1864) daha da intensivləşmişdi.

3. XIX əsrin sonu-XX əsrin əvvəllərində xristian-slavyan etnik-dini elementi artıq Dərbənd əhalisinin 14%-ni təşkil edirdi ki, bu da çarizmin mürtəce milli siyasətinin nəticəsi idi
4. Çar hökumətinin siyasi, mədəni, iqtisadi, dini ekspansiyası nəticəsində 1796-1897-ci illər ərzində Dərbəndin azərbaycanlı əhalisinin sayında əhəmiyyətli riyazi artım qeydə alınmamış və gəlmə əhalinin artımı fonunda azərbaycanlıların faiz göstəriciləri aşağı düşmüşdü. 1796-cı ildə Dərbənddə təqribən 95% təşkil edən azərbaycanlılar, 1897-ci ildə artıq 67%-ə enmişdi.
5. Bütün bunlara baxmayaraq, XIX əsrin sonu-XX əsrin əvvəllərində azərbaycanlılar say və faiz göstəricilərinə görə birlikdə götürdükdə bütün etnosları üstələyirdi –1897-ci ildə şəhər əhalisinin hər 3 nəfərdən 2-si azərbaycanlı idi.

# III FƏSİL

## DƏRBƏND ŞƏHƏRİNİN ƏHALİSİ XX ƏSRİN BİRİNCİ YARISINDA

Dərbənd şəhərində azərbaycanlı əhalinin faiz etibarı ilə sayının kəskin azalması prosesi XX əsrdə baş vermişdir. Xüsusilə də XX əsrin ortalarında Dərbənddə azərbaycanlılar say etibarı ilə nəinki dominantlığı itirmiş, hətta ruslardan, yəhudilərdən də geri düşmüşdü.

Qeyd etmək lazımdır ki,100 il (1796-1897) ərzində Dərbənd şəhərinin əhalisinin sayında müşahidə olunan cüzi artım (təqribən 5 min.nəfər – **müəllif**), əsasən gəlmə əhali hesabına əldə edilmişdir[140]. Tədqiqatçılar da qeyd edirlər ki, Dərbənd şəhərinin təbii artım faizi çox aşağı olmuş və bu meyl XX əsrin əvvəllərində də qalmaqda idi.

O dövrdə kişilərə 17 yaşdan, qızlara isə 15 yaşdan nikaha girməyə icazə verilirdi[141]. Dərbənd əhalisinin təbii artımı məsələsinə toxunan Kozubski yazır ki, Dərbənddə subay oğlanların sayı qızların sayından təqribən 2 dəfə çox olmuşdur. Bu səbəbdən 1901 ci ildə -311, 1902-239, 1903-309, 1904-278, 1905-275- nikah qeydə alınmışdır. Doğum səviyyəsi də aşağı idi. Belə ki, 1900-cu ildə 494, 1901-686, 1902-653, 1903-687, 1904-683, 1905-687 nəfər doğulmuşdu. Müvafiq olaraq ölənlərin sayını çıxsaq, 1896-cı ildə təbii artım +42, 1897 +71, 1898-205, 1899+77, 1900-+235, 1905-+116 nəfər olmuşdur. Kozubskinin yazdığına görə, XX əsrin əvvəllərində dul qadınların sayı dul kişilərin sayından 12 dəfə çox olmuşdur[142]. Bağlanan nikahların

[140] ARDTA, f.24, siyahı 1, iş 21, v.44; Е.И.Козубский. История города Дербента. 1906. 468 с. с 26 рисунками. Темур-Хан-Шура «Русская типография» В.М.Сорокина 1906, s.455.

[141] Козубский Е.И. История города Дербента…. s.455

[142] Yenə orada.

dinamikasına baxsaq görərik ki, 1905-ci ildə əhalinin sayının artımında gəlmə əhali əhəmiyyətli rol oynamışdır. Çar hökumətinin köçürmə siyasəti nəticəsində Dərbənddə əhəmiyyətli sayda ruslar, maloruslar (ukraynalılar), belaruslar, litvalılar, polyaklar, ermənilər məskunlaşdırıldılar.

Dərbənd şəhərinin tarixinin tədqiqatçısı Kozubski hələ 1906-cı ildə kəndlilərin, xüsusən, Dərbənd ətrafındakı əhalinin şəhərə meyl göstərməməsini və bu halın səbəbini açıqlayaraq yazırdı ki, "*xüsusən də ətraf bölgələrdə yaşayan müsəlman - ləzgi əhalisi ümumiyyətlə Dərbəndə köçməyə maraq göstərmir... çünki iqlim şəraiti onları qane etmir*"[143]. Eyni sözləri o, həmçinin Dağıstanın başqa dairələrində yaşayan dağ yəhudilərinə də aid etmişdir. Müəllif Rusiyanın ayrı-ayrı şəhərlərindən rus-xristian əhalinin Dərbəndə köçməsini qeyd edir.

Rostov-Bakı dəmir yolunun çəkilməsi Dərbəndin inkişafına və əhalinin etnik tərkibinin dəyişməsinə böyük təsir göstərdi. 1898-ci il oktyabrın 25-də Port- Petrovskdan Dərbəndə ilk qatar gəldi. 1899-cu ilin avqustunda Dərbənd-Bakı dəmiryol xətti çəkilib başa çatdı[144] və 1900-cü ilin aprelindən Dərbənd-Bakı xətti ilə qatarlar hərəkətə başladı. Dəmiryolunun çəkilişi iqtisadiyyatın canlanmasına təkan verdi. Dərbənddə meyvə bağlarının, üzümlüklərin sahəsi artdı.

XX ərin əvvəllərində çar Rusiyasının sosial-iqtisadi həyatında baş verən proseslərlə bağlı Dərbənd şəhərinin əhalisinin etnik tərkibində bir sıra mühüm dəyişikliklər baş verdi. İlk növbədə qeyd etmək lazımdlr ki, kənd əhalisinin şəhərə, o cümlədən, Dərbəndə axını XX əsrin əvvəllərində Dərbənd şəhərinin əhalisinin say dinamikaşına, əhalinin etnik və konfessional tərkibindəki dəyişikliklərə təsir göstərən əsas amil olmuşdur.

---

[143] Козубский Е.И. История города Дербента…. s.455
[144] ЦГА ДР, ф.2, оп. 3, ед.хр 202.л.5,5 об, 63.

**Cədvəl 9. Dərbənd şəhərinin 1901-ci ildə gəlirləri**[145]

| № | **Sahələrin adı** | **Rublla** |
|---|---|---|
| 1 | Daşınmaz əmlakdan alınan vergilər | 16097,76 |
| 2 | Ticarət və sənayedən yığımlar | 5424,28 |
| 3 | Müxtəlif adda rüsumlar | 2757,53 |
| 4 | Torpaq vergisi | 4408,25 |
| 5 | Şəhər binalarından alınan vergilər | 599 |
| 6 | Balıq vətəgələrindən alınan vergilər | 6581 |
| 7 | Başqa töycü sahələri | 4874,80 |
| 8 | Ehtiyatda olan kapitaldan alınan faizlər | 9981,30 |
| 9 | Şəhər müəssisələrindən yığımlar | 4016,95 |
| 10 | Şəhərə müavinət və xərclərin qaytarılması | 525,51 |
| 11 | Keçən ildən qalan vəsaitlər | 4054,70 |
| 12 | Smetadan kənar gəlirlər | 82,15 |
| | **Ümumi gəlirlərin məbləği:** | **60842,25** |

1906-cı ilin noyabrında Rusiya Nazirlər Şurasının sədri, A.P.Stolıpinin imzaladığı "Torpaq haqqında Dekret"dən sonra kənd təsərrüfatında kapitalist münasibətləri sürətlə inkişaf etməyə başladı. Təsərrüfatını kapitalizm şəraitində inkişaf etdirə bilməyənlər torpaqlarını satır, iş dalınca şəhərə yollanırdılar. Nəticədə, qonşu ləzgi kəndlərindən də əhali Dərbənddə məskunlaşmağa başladı.

[145] Кажлаев А.Н.Возникновение и экономическое развитие городов Дагестанской АССР. Махачкала: Даг. кн. изд., 1971, с.72. (1892-1915-ci illərə aid Dağıstan vilayətinin icmalları əsasında hazırlanıb).

**Cədvəl 10. Dərbənd şəhərinin 1901-ci ildə xərcləri**[146]

| № | **Sahələrin adları** | **Rublla** |
|---|---|---|
| 1 | Hökumət müəssisələrinin saxlanılması, təminatı | 961 |
| 2 | Şəhər ictimai idarəsinin fəaliyyəti üçün | 9613,28 |
| 3 | Hərbi mənzil mükəlləfiyyətinin ödənilməsi | 4011,64 |
| 4 | Şəhər polisinin saxlanılması üçün | 10767,40 |
| 5 | Şəhərin abadlaşdırılması üçün | 5406,33 |
| 6 | Şəhər su kanalının saxlanması üçün | 610,30 |
| 7 | Şəhər su arxının saxlanması üçün | 1500 |
| 8 | Qəssabxananın saxlanılması üçün | 796,69 |
| 9 | Xalq maarifi üçün | 5043 |
| 10 | İctimai himayə üçün | 489,40 |
| 11 | Tibbi, veterinar, sanitar hissələrin saxlanılması üçün | 5838,52 |
| 12 | Şəhərə aid daşınmaz əmlakın saxlanılması və yenidən qurulması üçün | 6336,09 |
| 13 | Borcların ödənilməsi | 2227,62 |
| 14 | Sair xərclər | 5456,10 |
| | **Ümumi xərclərin məbləği** | **59057,42** |

XX əsrin əvvəllərində kənd təsərrüfatı ilə yanaşı sənayenin, xüsusən də, nəqliyyatın inkişafında böyük canlanma vardı. Yeni şoselər salınır, dəmir yolu xətləri çəkilirdi. Vladiqafqaz-Bakı dəmir yolunun (1300 km uzunluğunda) çəkilişi Qafqaz regionunun inkişafı üçün əhəmiyyət kəsb etsə də, əhalinin, o cümlədən, bu vacib dəmiryolu xəttinin üstündə yerləşən Dərbənd şəhəri əhalisinin etnik tərkibinin dəyişməsinə təsirsiz ötüşmədi. 1898-ci ildə Dərbənddə dəmiryolu işə salındı. Belə ki, dəmiryolu xəttinə xidmət edə biləcək ixtisaslı kadrlar Qafqazda yetərincə deyildi və bu səbəbdən Rusiya imperiyasının mərkəzi quberniyalarından dəmiryol işçiləri ailələri ilə birlikdə Vladiqafqazda, Mozdok, Dərbənd və Bakıda yerləşdirildilər.

[146] Кажлаев А.Н.Возникновение и экономическое развитие городов Дагестанской АССР. Махачкала: Даг. кн. изд., 1971, с.73. (1892-1915-ci illərə aid Dağıstan vilayətinin icmalları əsasında hazırlanıb).

**Cədvəl 11. 1892-1915-ci illərdə Dərbənd şəhərinin büdcəsi (rublla)[147]**

| Illər | Şəhərin gəlirləri | Şəhərin xərcləri |
|---|---|---|
| 1892 | 19179 | 22783 |
| 1893 | 19012 | 22155 |
| 1894 | 22344 | 19612 |
| 1895 | 25292 | 21396 |
| 1896 | 22197 | 21777 |
| 1897 | 27274 | 25799 |
| 1898 | 25920 | 30210 |
| 1899 | 42815 | 42815 |
| 1900 | 43488 | 39433 |
| 1901 | 60947 | 59169 |
| 1903 | 131630 | 122332 |
| 1904 | 123125 | 121206 |
| 1906 | 147705 | 146222 |
| 1908 | 130274 | 144729 |
| 1911 | 157044 | 166742 |
| 1912 | 274204 | 203545 |
| 1913 | 268852 | 309540 |
| 1915 | 361130 | - |

Kənd əhalisinin şəhərə axını yalnız torpaqsızlıqla bağlı deyildi. Sənayenin inkişafı, xüsusən yerli emal müəssisələrinin yaranması kənd əhalisinin şəhərə köçməsinə təsir edən amillərdən idi. Yerli kəndlilər öz məhsullarını şəhər bazarlarına çıxarır, bəziləri burada ilkin emal müəssisələri də yaradırdılar.

Şəhər əhalisinin artımına mövsümçülük hərəkatı cox təsir göstərdi. Dağıstanda mövsümçülük hərəkatı daha çox yayılmışdı, çünki Dağıstanda əkinə yararlı torpaqlar çox az idi. Məsələn, 1892-ci ildə 39,9 min, 1899-cu ildə 59,1 min, 1914-cü ildə 83,3

[147] Кажлаев А.Н.Возникновение и экономическое развитие городов Дагестанской АССР. Махачкала: Даг. кн. изд., 1971. .c.73. (1892-1915-ci illərə aid Dağıstan vilayətinin icmalları əsasında hazırlanıb).

min kəndli şəhərə iş axtarmağa getmişdir[148]. Mənbələrdən göründüyü kimi, XX əsrin əvvəllərində Dərbənd şəhərinin əhalisi 1897-ci illə müqayisədə təqribən 2 dəfədən də artıq artmışdı. Əhalinin artımı əsasən 1909-cu ildən sonrakı dövrdə baş vermişdir. Arxiv sənədlərində 1909-cu ildə Dərbənddə 999 yaşayış binasının olduğu və şəhərdə 19072 sakinin (onlardan 10667 kişi və 8405 qadın) yaşadığı göstərilmişdir ki, bu fakt belə fikir yürütməyə əsas verir [149].

1909-cu ildə Dərbənd əhalisinin dini tərkibinə nəzər salsaq aşağıdakı mənzərəni görərik.

**Cədvəl 12. 1909-cu ildə Dərbənd əhalisinin dini tərkibi[150]**

| Sıra nömrəsi | Dini mənsubiyyəti | kişi | qadın | ümumi |
|---|---|---|---|---|
| 1. | müsəlman-sünnülər | 636 | 436 | 1072 |
| 2. | müsəlman-şiələr | 5462 | 4095 | 9557 |
| 3. | pvavoslavlar | 1171 | 1028 | 2199 |
| 4. | Roma katolikləri | 45 | 11 | 56 |
| 5. | protestantlar | 15 | 9 | 24 |
| 6. | iudeylər | 2161 | 1851 | 4013 |
| 7. | erməni-qriqoryan | 857 | 780 | 1637 |
| 8. | başqa dinin dayıyıcıları | 320 | 195 | 515 |
| **Ümumi** | | **10667** | **8405** | **19072** |

[148] Изаксон Г., А.Назаревич. Дагестан, факты и цифры. Махачкала, 1920, с.113.
[149] ЦГА ДР, ф.21 , оп.3., д.69., л.44.
[150] ЦГА ДР, ф.21 , оп.3., д.69., л.48.

Beləliklə, Dərbənd əhalisinin tərkibində müsəlmanların ümumi sayı 10629 nəfər təşkil edirdi ki, bu da şəhər əhalisinin 55, 73 faizinin müsəlmanlar olduğunu təsdiqləyir.Müvafiq olaraq iudeylər-21,04 %, pravoslavlar 11,52 %, erməni –qriqoryanlar-8,58%, roma-katoliklər-0,29%, protestantlar-0,12% və başqa dinin dayıyıcıları 2, 7 % təşkil edirdilər.

1897-ci ilin əhalinin siyahıya alınmasına görə Dərbənddə 14649 nəfər olduğu halda [151] 1915-ci ilin məlumatlarina görə Dərbənddə daimi yaşayan əhalinin ümumi sayı 20516 nəfər təşkil etmişdir. Bundan savayı, Dərbənddə həmçinin 12828 nəfər müvəqqəti yaşayan qeydə alınmışdır ki, onların da əsas hissəsini şəhərə çörək dalınca gələnlər təşkil edirdilər.Eyni zamanda, 196 nəfər hərbi xidmət keçənləri də nəzərə alsaq, ümumilikdə 1915-ci ildə Dərbənd şəhərinin əhalisinin 33 540 nəfər olduğunu görərik[152].

Birinci Dünya müharibəsinin son illərində Dərbənd şəhərinin əhalisin sayında azalma meylləri başladı. Şəhərdə yerləşdirilən hərbi hissələrinin döyüş bölgələrinə göndərilməsi, şəhərdə yaşayan müsəlman olmayan əhalinin hərbi xidmətə çağırılması, aclıq, epidemiyalar və s. amillər nəticəsində şəhər əhalisinin sayı azalmağa başladı. Aclıqdan əziyyət çəkən əhalinin bir qismi Bakıya, Maxaçqalaya, Qroznıya və sair şəhərlərə köçmüşdür ki, bu da əhalinin sayının azalmasına gətirmişdir.

1917-ci ilin Oktyabr çevrilişindən sonra Rusiya imperiyasında baş verən siyasi hadisələr - Vətəndaş müharibəsi, xarici hərbi qüvvələrin müdaxiləsi və s. həmçinin əhalilnin Dərbəndi tərk edərək ətraf bölgələrdə məsknlaşmağa vadar etdi. 1920-ci

---

[151] Первая Всеобщая перепись населения Российской Империи 1897 г. Таблица XIII. Распределение населения по родному языку. (Губернские итоги). Т.Т.51-89. С.-Петербург: 1903-1905; М.Р. Ибрагимов. Динамика численности и этнического состава Дербента в XIX веке./ AMEA-nın Tarix İnstitutu. Elmi əsərlər, Xüsusi buraxılış, 2012/40, s. 349.

[152] ЦГА ДР, ф.21 , оп.3., д.115., л. 36 arxası.

ilin aprelində XI Qırmızı Ordunun Dərbəndə daxil olması və burada Sovet hakimiyyətinin elan olunması da şəhərin varlı təbəqəsinin — yerli burjuaziyanın, torpaq sahiblərinin, xan və bəy nəslindən olanların, ali ruhanilərin və sadəcə olaraq Sovet hakimiyyətini qəbul etmək istəməyənlərin xaricə, xüsusən də, İrana və Türkiyəyə mühacirət etməsinə səbəb oldu[153].

Sovet hakimiyyətinin ilk illərində - "Ərzaq sapalağı" dövründə aclıqdan, xəstəliklərdən ölənlərin sayı artdı, xüsusən 1920-1922-ci illərdə baş verən aclıq minlərlə dərbəndlinin məhvinə səbəb oldu.

1920-ci illərin ortalarında, xalq təsərrüfatının bərpasından sonra Dərbənd əhalisinin sayı yenə artmağa başlamışdır.Ölkədə baş verən siyasi proseslər respublikaların əhalisinin artım dinamikasına və əhalinin etnik mənzərəsinin rəngarəngliyinə əhəmiyyətli təsir göstərdi və biz bunu 1926-cı ilin Ümumittifaq əhalinin siyahıya alınmasında daha qabarıq görə bilərik (bax. Cədvəl 4)[154].

Cədvəl 13-dən göründüyü kimi, 1926-cı ilin siyahıya alınmasına görə 1921-ci ildə yaradılan və ərazisi 58156 kvadrat kilometr  təşkil edən Dağıstan MSSR-da ümumən 788 098 nəfər əhali qeydə alınmışdır. Onların 85034 nəfəri və yaxud 10,8 faizi şəhərdə, 703.064 nəfəri və yaxud 89,2 faizi kənd yerlərində yaşayırdı.[155]

---

153 Hacıyev A.A. Dərbənd XIX-XX əsrin əvvəllərində (tarixi-demoqrafik tədqiqat). Bakı: Turxan NPB, 2017,  s.68.

154 Всесоюзная перепись населения 1926 года. М.: Издание ЦУЦ Союза СССР 1928-1928. Т.9, стр.34-51. Т.10, с. 9-13, т. 11, с. 8-17, т.14, с.. 6-16; т.15, с.8-13; т.16, с. 8-12; т.17, с. 8-25; таблица VI население по полу, народности

155 Материалы Всесоюзной переписи населения 1926 года по Дагестану. Выпуск 1. Список нселенных мест Дагестанской АССР. Издание Дагстатуправления, г.Махач-кала, 1927, с.XX.

## Cədvəl 13. 1926-cı ilin Ümumittfaq əhalinin siyahıya alınmasına görə Dağıstan MSSR-nin əhalisinin etnik tərkibi

| **Milliyəti** | **Sayı** | | |
|---|---|---|---|
| | **Ümumi sayı** | **Şəhər əhalisi** | **Kənd əhalisi** |
| ruslar | 98197 | 33077 | 65120 |
| ukraynalılar | 4126 | 2350 | 1776 |
| beloruslar | 178 | 164 | 14 |
| polyaklar | 460 | 415 | 45 |
| çex və slovaklar | 20 | 18 | 2 |
| serblər | 1 | 0 | 1 |
| bolqarlar | 44 | 23 | 21 |
| latışlar | 73 | 63 | 10 |
| litvalılar | 69 | 62 | 7 |
| almanlar | 2551 | 710 | 1841 |
| isveçlilər | 1 | 1 | 0 |
| hollandlar | 13 | 13 | 0 |
| fransızlar | 10 | 10 | 0 |
| rumınlar | 58 | 29 | 29 |
| moldovanlar | 491 | 94 | 394 |
| yunanlar | 82 | 74 | 8 |
| yəhudilər | 3030 | 2649 | 381 |
| dağ yəhudiləri | 11592 | 9766 | 1826 |
| Mərkəzi Asiyalılar | 1 | 1 | 0 |
| finlər | 9 | 9 | 0 |
| estlər | 33 | 28 | 5 |
| marilər | 3 | 2 | 1 |
| mordvalılar | 81 | 42 | 29 |
| macarlar | 3 | 3 | 0 |
| çuvaşlar | 34 | 27 | 7 |
| tatarlar | 2447 | 1139 | 1608 |
| başkırdlar | 10 | 5 | 5 |
| noqaylar | 26086 | 36 | 26050 |
| qaraçılar | 195 | 16 | 179 |
| kalmıklar | 108 | 1 | 107 |

| | | | |
|---|---|---|---|
| sart-kalmıklar | 2 | 2 | 0 |
| buxaralılar | 1 | 0 | 1 |
| çinlilər | 1 | 1 | 0 |
| gürcülər | 876 | 367 | 509 |
| acarlar | 4 | 4 | 8 |
| çərkəzlər | 18 | 10 | 8 |
| kabardinlər | 30 | 20 | 10 |
| çeçenlər | 21851 | 705 | 21146 |
| inquşlar | 12 | 3 | 9 |
| ləzgilər | 90509 | 2108 | 88401 |
| tabasaranlar | 31915 | 34 | 31881 |
| aqullar | 7653 | 0 | 7653 |
| arçinlər | 854 | 0 | 854 |
| rutullar | 10333 | 0 | 10333 |
| saxurlar | 3531 | 0 | 3531 |
| darginlər | 108926 | 891 | 108035 |
| kubaçilər | 2357 | 44 | 2313 |
| laklar | 39878 | 1127 | 38751 |
| avarlar | 138749 | 2013 | 136736 |
| andilər | 7681 | 86 | 7595 |
| botlixlilər | 3354 | 0 | 3354 |
| qodoberinlilər | 1425 | 0 | 1425 |
| qarataylar | 5305 | 0 | 5305 |
| axvaxlar | 3677 | 27 | 3650 |
| baqulallar | 3054 | 0 | 3054 |
| çamalalılar | 3438 | 0 | 3438 |
| tindilər | 3812 | 0 | 3812 |
| didoylar | 3276 | 0 | 3276 |
| xvarşinlər | 1019 | 0 | 1019 |
| kopuçinlər | 1447 | 0 | 1447 |
| xunzallar | 98 | 0 | 98 |
| ermənilər | 5923 | 4887 | 1036 |

| | | | |
|---|---|---|---|
| ərəblər | 1 | 1 | 0 |
| aysorlar | 3 | 2 | 1 |
| qaytaklar | 14424 | 2 | 14422 |
| osetinlər | 536 | 114 | 422 |
| kürdlər | 61 | 47 | 14 |
| tatlar | 204 | 0 | 204 |
| farslar | 3448 | 2837 | 611 |
| kumıklar | 87960 | 6544 | 81416 |
| balkarlar | 7 | 7 | 0 |
| türklər | 23428 | 8129 | 15299 |
| Osmanlı türkləri | 260 | 26 | 234 |
| türkmənlər | 1459 | 6 | 1453 |
| qırğızlar | 7 | 7 | 0 |
| başqa xalqlar | 127 | 54 | 73 |
| tavlinlər | 636 | 365 | 271 |
| başqaları | 169 | 61 | 108 |
| Cəmi: SSRİ vətənlarlardaşları | 784047 | 81360 | 702687 |
| Xaricilər | 4051 | 3674 | 377 |

Bundan savayı, Dağıstanda qeydiyyatda olub başqa respublikalara iş dalınca gedənlər 33697 nəfər təşkil etmişdilər ki, onların da sayı ümumi saya düşməyib[156]. Siyahıya alınma 1926-cı ilin yanvar ayında aparılmış və siyahıyaalma ilə bağlı yaradılan komissiyanın öz qənaətinə görə, müəyyən dağ aullarına getmək mümkün olmadığından bəzi yaşayış məntəqələri bu prosesdən kənarda qalmış və yaxud onların əhalisinin sayı təqribi qeydə alınmışdır.

---

[156] Материалы Всесоюзной переписи населения 1926 года по Дагестану. Выпуск 1.Список нселенных мест Дагестанской АССР. Издание Дагстатуправления, г. Махачкала, 1927, s. XX.

Bütün bunlar onu deməyə əsas verir ki, 1926-cı ildə Dağıstan MSSR-nin əhalisi göstərilən son nəticədən bir qədər artıq olmuşdur. 1926-cı ildə Dağıstanda 75 xalqın, etnik qrupun sayı qeydə alınmışdır ki, onlardan da ən coxsaylı avarlar, darginlər, ləzgilər, kumiklar, ruslar olmuşdur. Adı çəkilən xalqların hər birinin sayı 80 mindən artıq olmuşdur. Laklar (39,8 min) tabasaranlar (31,9 min) noqaylar (26, 86 min) da əhəmiyyətli çəkiyə malik idi.

1926-cı ildə Dağıstan MSR-də 23428 türk (azərbaycanlı-İ.A) yaşayırdı[157]. Cədvəl 5-dən göründüyü kimi, 1926-cı ildə Dərbənd, mərkəz Maxaçqaladan sonra Dağıstanın ikinci ən çox əhalisi olan şəhəri idi. Azərbaycanlılar 1926-cı il siyahıya alınmasında "türk" adı ilə göstərilmişlər və onlar Dağıstan MSSR-nin sayca 9-cu xalqı idi. Ümumi sayı 23428 nəfər olmuşdur. Dağıstanda yaşayan azərbaycanlı əhalinin böyük hissəsi Dərbənd dairəsi və Dərbənd şəhərində yaşayırdılar.

**Cədvəl 14. 1926-cı ilin Ümumittfaq əhalinin siyahıya alınmasına görə Dağıstan MSSR-nın şəhər əhalisinin sayı[158]**

| **Şəhərlər** | **kişi** | **qadın** | **Ümumi sayı** |
|---|---|---|---|
| Maxaçkala | 16580 | 15420 | 32000 |
| Dərbənd | 11617 | 11480 | 23097 |
| Buynaks | 6133 | 4790 | 10923 |
| Kizlyar | 4625 | 4901 | 9526 |
| Xasavyurt | 3571 | 3317 | 6888 |
| Pyotr-Qafqazski | 782 | 770 | 1552 |
| Daqestanskiye oqni | 724 | 324 | 1048 |
| **Cəmi:** | **44032** | **41002** | **85034** |

---

[157] Материалы Всесоюзной переписи населения 1926 года по Дагестану. Выпуск 1.Список нселенных мест Дагестанской АССР. Издание Дагстатуправления, г. Махачкала, 1927, s. XX.

[158] Yenə orada.

1926-cı ildə Dağıstan MSSR 14 dairədən ibarət idi və onlardan biri də Dərbənd dairəsi idi. Bu dairə Dağıstan ərazisinin cəmi 2%-ni təşkil edirdi[159] və əhalisinin sayına görə çox önəmli dairələr sırasına daxil idi. 1926-cı ildə Dərbənd dairəsində 1 şəhər, 2 şəhər tipli qəsəbə, 30 kənd, 10 xutor, 1 qəsəbə, 5 kazarma, 7 dəmiryolu stansiyası, 3 budka, 2 kolxoz, 15 balıqçı məntəqəsi, 4 kiçik qəsəbə qeydə alınmışdı[160]. Dairənin əhalisinin ümumi sayı 44624 nəfər olmuşdur ki, bu da Dağıstan əhalisinin 5,6% -i demək idi[161]. Dərbənd dairəsində yaşayan əhalinin 20479 nəfəri kənddə, 24145 nəfəri isə şəhərdə - yəni Dərbənd şəhərində yaşayırdı[162].Ümumiyyətlə, Dağıstan MSSR-in əhalisinin 10,8%, yəni 85034 nəfəri şəhərdə, qalanları kənddə yaşayırdılar. Beləliklə, Dağıstanın şəhər əhalisinin 28,4 faizi təkcə Dərbənddə cəmləşmişdi. 1926-cı ildə Dərbənd dairəsinin əhalisi 20479 nəfər qeydə alınıb. Apardığımız hesablamalar göstərdi ki, azərbaycanlılar Dərbənd dairəsində 14496 nəfər təşkil etmişdir ki, bu da ümumi əhalinin 77%-i demək idi.

### Cədvəl 15. 1926-cı ilin Ümumittfaq əhalinin siyahıya alınmasına görə Dərbənd şəhərinin əhalisinin etnik tərkibi[163]

| Milliyəti | kişi | qadın | Ümumi sayı |
|---|---|---|---|
| türklər | 3842 | 3989 | 7831 |
| dağ yəhudiləri | 3152 | 3445 | 6597 |
| ruslar | 2730 | 2769 | 5499 |
| ləzğilər | 502 | 366 | 868 |
| ermənilər | 424 | 388 | 812 |
| farslar | 263 | 169 | 432 |

[159] Материалы Всесоюзной переписи населения 1926 года по Дагестану. Выпуск 1.Список нселенных мест Дагестанской АССР. Издание Дагстатуправления, г. Махачкала, 1927, s. XX.
[160] Yenə orada, c.XVIII
[161] Yenə orada, c.XIX
[162] Yenə orada, c.XX.
[163] Yenə orada.

| | | | |
|---|---|---|---|
| Başqaları, o cümlədən dağıstanlılar | 704<br>196 | 354<br>77 | 1058<br>273 |
| **Ümumilikdə:** | **11617** | **11480** | **23097** |

1926-cı ilin əhalinin siyahıya alınmasında biz Dərbənd şəhərində 23097 nəfər əhalinin yaşadığını görürük (bax. Cədvəl 15). Beləliklə, 1913-cü illə müqayisədə 1926-cı ildə Dərbənd əhalisi 10,5 min nəfər azalmışdır.

Əhalinin etnik tərkibinə gəldikdə yenə Azərbaycan türklərinin ən çoxsaylı etnik toplum olduğunu görürük—7831 nəfər. Azərbaycanlılardan sonra dağ yəhudiləri (6597) və ruslar (5499) gəlirlər[164]. Yerdə qalanları ləzgilər (868), ermənilər (812), və 1058 nəfər müxtəlif millətlərin nümayəndələri təşkil edirlər[165].

1897-ci ildə Dərbənd şəhərinin əhalisinin ümumi payında 66,7 faiz təşkil edən azərbaycanlılar artıq 1926-cı ildə şəhər əhalisinin təqribən 34 faizini təşkil edirdilər. Əgər 1897-ci ilin məlumatları ilə 1926-ilin göstəricilərini müqayisə etsək rusların, ermənilərin və dağ yəhudilərinin sayının artdığını müşahidə edərik. Belə ki, ermənilərin sayı 191 nəfər, dağ yəhudilərinin sayı 4564 nəfər və rusların sayı 4407 nəfər artmışdır. Vətəndaş müharibəsi illərində Dağıstanın bir çox yerlərində yaşayan dağ yəhudiləri Dərbəndə köçdülər. Belə ki, 1926-cı ildə Dərbənddə 6600, 1939-cu ildə – 6200, 1959-cu ildə isə – 11800 dağ yəhudisi qeydə alınmışdır.

---

[164] Материалы Всесоюзной переписи населения 1926 года по Дагестану. Выпуск 1.Список нселенных мест Дагестанской АССР. Издание Дагстатуправления, г. Махачкала, 1927, с.XX.
[165] Yenə orada.

Azərbaycanlıların sayı isə 9767 nəfərdən 7831 nəfərə enmiş, yəni 1936 nəfər azalmışdır. Əgər mənbələri təhlil etsək bu halın yaranmasının həm obyektiv, həm də subyektiv səbəblərlə bağlılığını görərik. Təbii ki, çar Rusiyası tərəfindən işğal edildikdən sonra(1806) Dərbənd şəhəri, strateji məntəqə kimi çar hökumətinin daim diqqətində olmuşdur və şəhərdə çarizmə sadiq olan etnik-konfessional dayağın formalaşdırılmasına xüsusi diqqət yetirilirdi. Bunun nəticəsi idi ki, zaman-zaman şəhər əhalisinin etnik tərkibində slavyan-xristian elementinin çəkisi artmaqda davam edirdi. Dağıstanda yaşayan yerli xalqların (ləzgilərin, kumıkların və s.) şəhərdə məskunlaşması isə obyektiv iqtisadi proseslərin nəticəsi idi. Bir fakta da toxunmağa ehtiyac var: 1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyəti azərbaycanlıların milli identikliyini bərpa etdi və xalqa öz tarixi adı — türk adı qaytarıldı.

1926-cı ilin əhalinin siyahıya alınmasında azərbaycanlılar məhz “türk” adı altında göstərilmişdir. Milli identiklikdə baş verən dəyişikliklər, “tatar”, “adderbaycantsı”,”Qafqaz tatarları” və s. kimi adların istifadədən çıxaraq “türk” adı ilə əvəz olunması Dərbəndin türkdilli əhalisi arasında müəyyən çaşqınlığa və milli mənsubiyyətini tam dərk etməyənlərin səhvən öz etnik mənsubiyyətini “fars”, “dağ yəhudisi”, “tat”, “tatar” kimi göstərməsinə səbəb olmuşdur. Ümumiyyətlə götürdükdə, XX əvvəllərində baş verən proseslər-iqtisadi yüksəliş, urbanizasiya proseslərinin güclənməsi, siyasi kataklizmlər Dərbənd şəhərinin əhalisinin etnik tərkibində elə dəyişikliklərə gətirdi ki, bu şəhərdə azərbaycanlıların etnik dominantlığına son qoyuldu və sonrakı illərdə bu dominantlığı bərpa etmək mümkün olmadı. Biz bunu SSRİ dövründə keçirilən növbəti - 1939-cu ilin əhalinin siyahıya alınmasının nəticələrində də görürük.

1939-cu ilin siyahıyaalınmasına görə Dağıstan MSSR- da 930416 nəfər əhali yaşayırdı ki, azərbaycanlılar 31141 nəfər təşkil edirdilər[166].

1926-cı illə müqayisədə əhalinin sayı Dərbənddə 11 min artmışdır. Tarixində ilk dəfə olaraq 1939-cu ildə Dərbənd şəhərinin ən çoxsaylı etnosu kimi gəlmə ruslar qeydə alınmışdır. Belə ki, onların sayı artıq 13680 nəfər təşkil edirdi ki, bu da şəhər əhalisinin 34,5 faizi demək idi[167]. Müqayisə üçün qeyd edək ki, 1897-ci ildə Dərbənddə təqribən 7 faiz təşkil edən rusların sayı 42 il ərzində 4,5 dəfədən də çox artmışdır. Dərbənddə rusların sayının sürətli artımının yalnız təbii artımla deyil, həm rus əhalisinin bura köçməsi, həm də başqa xalqların (belorusların, ukraynalıların, polyakların, avropalı yəhudilərin) ruslaşması ilə izah etmək olar.

Azərbaycanlılar 1939-cu ildə Dərbənd əhalisinin 26,1 faizini təşkil edirdilər və bu o demək idi ki, onların sayı 10 min 351 nəfər təşkil edirdi. Ruslar və azərbaycanlılardan sonra Dərbənddə ən çoxsaylı etnik qrup dağ yəhudiləri (7659 nəfər) olmuşdur[168]. 1926-cı illə müqayisədə (6,6 min) onların sayında azalma müşahidə olunsa da, onlar yenə də əhəmiyyətli pay təşkil edirdilər.1933-cü ildə Dərbənd ətrafında 30 kolxoz yaradılmışdı və burada tat-yəhudilər çalışırdılar. 1935-ci ildə Dərbənddə 2 orta məktəb, yəhudi pedoqoji texnikumu, xalçaçılıq texnikumunun yəhudi filialı, yəhudi klubları fəaliyyət göstarirdi.Sonralar,1948-ci ildə yəhudi məktəbləri bağlandı, tat-yəhudi dillərində dərslər qadağan edildi.

---

[166] Население Дагестана. Дагестанская АССР (1939 г.) http://www.ethno-kavkaz.narod.ru/rndaghestan.html (müraciət tarixi-06.03.2019).
[167] Население Дагестана. Дагестанская АССР (1939 г.) http://www.ethno-kavkaz.narod.ru/rndaghestan.html (müraciət tarixi-06.03.2019).
[168] Yenə orada.

1930-cu illərdə Dərbənd şəhərinə ətraf kəndlərdən ləzgilərin köçü bir qədər sürətləndi ki, nəticədə 1939-cu ildə onların sayı Dərbənddə 1700 nəfərə çatdı [169]ki, bu da 1897-ci illə müqayisədə(131 nəfər) 13 dəfə artım demək idi.

1940-cı illərdə Dərbənd əhalisinin tərkibində kumıkların sayı sürətlə artdı və onlar şəhər əhalisinin 21,7% təşkil edirdilər[170]. Səbəb nə idi? Bəlkə də müharibənin kumıkların yaşadığı ərazilərə yaxınlaşması, onların cənuba - Dərbəndə miqrasiya etməsi.

İkinci Dünya müharibəsindən sonra Dərbənd əhalisinin sayı sürətlə artdı və 1915-ci ilin səviyyəsini 23 min ötüb keçdi. 1959-cu ildə şəhərdə artıq 56,0 min əhali yaşayırdı. Əhalinin milli tərkibində də  mühüm dəyişikliklər baş verdi. Şəhərin əsas əhalisini ruslar təşkil edirdilər-26,1%. Ruslardan sonra azərbaycanlılar-25,3%, dağ yəhudiləri-21,1%, ləzgilər-11,6 %, yerdə qalan millətlərin nümayəndələri-12,9 % təşkil edirdilər[171].

1959-cu ilin əhalinin siyahıyaalınmasında artıq Dağıstan MSSR əhalisinin 1062472 nəfərə çatdığını və azərbaycanlıların 38224 nəfər təşkil etdiyini görürük[172].

Beləliklə, 1926-cı illə müqayisədə 1959-cu ildə azərbaycanlıların payı 33,9 %-dən 25,3%-ə endi. Baxmayaraq ki, azərbaycanlıların sayı 1926-cı illə müqayisədə 6,4 min artmışdı. Bu tendensiya həmçinin ermənilərə, ukraynalılara, dağ yəhudilərinə də aid idi, baxmayara ki, onların da sayında azalma müşahidə

---

[169] Yenə orada,  s.352.

[170] Статистико-экономический справочник по Дагестанской АССР, Ростов-на- Дону, 1933, с. 204-205.

[171] Ибрагимов М-Р. Динамика численности и этнического состава Дербента в XX в… s.352-353.

[172]. Источник: РГАЭ РФ (быв. ЦГАНХ СССР), фонд 1562, опись 336, ед.хр. 1566а -1566д (Таблица 3,4 Распределение населения по национальности и родному языку). // http:// www. demoscope. ru/weekly/ssp/rus_nac_59.php?reg=78%22.

olunmamışdı. Adı çəkilən millətlərin payının azalması sadəcə olaraq rusların və yerli Dağıstan  xalqlarının sayının sürətli artımı fonunda baş verirdi. Belə ki, 1959-cu ildə Dağıstan xalqları ümumilikdə artıq Dərbənd əhalisinin 41,9 % təşkil edirdilər. 1959-cu ilin siyahıya alınmasına görə Dərbənddə artıq 5 min ləzgi yaşayırdı[173]. Qeyd edək ki, 1926-cı ildə bu rəqəm 868 nəfər olmuşdu.

---

[173] Волкова Н.Г.Изменения в национальном составе городского населения Северного Кавказа…с. 48. // http://journal.iea.ras.ru /archive/ 1960s/ 196 5 /Volkova_1965.pdf.

## IV FƏSİL

## DƏRBƏND BÖLGƏSİNİN ƏHALİSİ XX ƏSRIN İKİNCİ YARISI – XXI ƏSRİN ƏVƏLLƏRİNDƏ

Bu fəsildə İkinci Dünya müharibəsindən bu günümüzə qədərki dövrdə Dərbənd bölgəsinin əhalisinin etnik tərkibi tədqiq olunmuşdur və tədqiqat zamanı SSRİ-də keçirilən 1959, 1970, 1979, 1989-cu illərin və Rusiya Federasiyasında keçirilən 2002 və 2010-cu illərin əhalinin ümumi siyahıya alınmasının rəsmi statistik göstəricilərindən istifadə olunmuşdur.

1959-cu ildə SSRİ-də həyata keçirilən əhalinin siyahıya alınması Dağıstan MSSR-də 1 milyon 062 min əhalinin yaşadığını göstərdi. Onların 38 min 224 nəfəri azərbaycanlı idi ki, bu da muxtar respublikanın əhalisinin 3,6 %-i demək idi. Keçən 20 il ərzində, yəni – 1939-cu ildən 1959-cu ilədək Dağıstan əhalisinin, o cümlədən burada yaşayan azərbaycanlıların sayında artım o qədər də yüksək olmamışdı. Yəni, əgər 1939-cu ildə Dağıstan MSSR-də 930 min 416 nəfər qeydə alınmışsa, 20 il sonra bu göstərici cəmi 131 min 584 nəfər artaraq 1959-cu ildə 1 milyon 062 minə çatmışdı. Əgər 1939-cu ildə Dağıstanda 31 min 141 nəfər azərbaycanlı yaşayırdısa, 20 il ərzində onların sayı cəmi 7 min 83 nəfər artaraq 38 min 224 nəfərə çatmışdı[174].

Şübhəsiz, istər Dağıstan MSSR-də, istər SSRİ-də əhalinin 20 ildə zəif artımı Böyük Vətən müharibəsindəki insan itkiləri ilə, demoqrafik cəhətdən əməkqabiliyyətli əhalinin azalması ilə izah olunur. Təbii ki, bu meyl Dərbənd şəhərinin və Dərbənd rayonunun əhalisinin dinamikasına təsirsiz ötüşməmişdi. Əgər 1939-cu ildə Dərbənd şəhərində 39632 nəfər sakin qeydə alın-

[174] Ибрагимов М-Р. Динамика численности и этнического состава Дербента в XIX веке./ AMEA-nın Tarix İnstitutu. Elmi əsərlər, Xüsusi buraxılış, 2012/40, s.347-354.

mışsa[175], 1959-cu ilədək bu rəqəm 16369 nəfər artaraq 56003 nəfər təşkil etmişdi. Dərbənd rayonu üzrə o qədər olmasa da, əhəmiyyətli artım qeydə alınmışdı: 1939-cu illə müqayisədə (23028 nəfər), 1959-cu ildə rayon əhalisi 4386 nəfər artaraq 27414 nəfər təşkil etmişdir.

Beləliklə, ümumi Dağıstan MSSR-dən fərqli olaraq 1939-1959-cu illər arası dövrdə Dərbənd şəhərinin əhalisində əhəmiyyətli artım (təqribən 40%) müşahidə olunmuşdu ki, bu da müharibə illərində Şimali Qafqazdan və SSRİ-nin Avropa hissəsindən qaçqın əhalinin bir hissəsinin bu şəhərdə məskunlaşması ilə izah olunur. Qeyd edək ki, 2002-ci ilədək Dərbənd şəhər sovetliyinə Daqestanskiye Oqni qəsəbəsi və şəhərətrafı kiçik yaşayış məntəqələri də daxil idi.Qaçqınlar sırasında ruslrın sayı daha çox idi və cədvəl 15-dən göründüyü kimi, onlar 26% təşkil edərək Dərbəndin ən çoxsaylı etnosuna çevrilmişdilər.

Baş verən siyasi hadisələr, miqrasiya axını Dərbənd şəhərinin və Dərbənd rayonunun əhalisinin etnik tərkibinə təsirsiz ötüşmədi. Aşağıdakı cədvəldə 1959-cu ilə Dərbənddə yaşayan etnosların sayı haqqında ətraflı məlumat verilir.

Beləliklə, Böyük Vətən müharibəsindən sonra regionda baş verən miqrasiya prosesləri Dərbənd şəhərində azərbaycanlıların say və faiz etibarı ilə dominantlığına son qoydu və şəhərin çoxəsrlik tarixində ilk dəfə Azərbaycanlı olmayan, gəlmə əhali çoxluq təşkil etdi. Göründüyü kimi, üstünlük şəhər əhalisinin 26%-ni təşkil edən ruslara keçdi. Nəzərə çarpan başqa bir dəyişiklik Dərbənddə Dağıstan xalqlarının və dağ yəhudilərinin payının sürətli artımı olmuşdur. Dağ yəhudilərinin sayının artımı müharibə illərində başqa regionlardan onların Dərbəndə köçməsi ilə izah olunur.

---

175 Изаксон Г. и А.Назаревич.Дагестан, факты и цифры.Махачкала, 1920, с.113.

**Cədvəl 16. 1959-cu ildə Dərbənd şəhərinin və Dərbənd rayonunun əhalisinin etnik tərkibi[176]**

| | | | | |
|---|---|---|---|---|
| | **sayı** | **faizlə** | **sayı** | **faizlə** |
| azərbaycanlılar | 14149 | 25,3 | 13061 | 7,6 |
| darginlər | 2068 | 3,7 | 2828 | 10,3 |
| avarlar | 149 | 0,3 | 56 | 0,2 |
| kumıklar | 644 | 1,1 | 614 | 2,2 |
| ləzgilər | 6498 | 11,6 | 5971 | 21,8 |
| tabasaranlar | 1852 | 3,3 | 826 | 3,0 |
| saxurlar | 3 | 0,1 | - | - |
| laklar | 287 | 0,5 | 270 | 1,0 |
| noqaylar | 25 | 0,1 | - | - |
| aqullar | 30 | 0,1 | 7 | 0,1 |
| rutullar | 8 | 0,1 | - | - |
| ruslar | 14586 | 26,0 | 2828 | 10,3 |
| çeçenlər | - | - | - | - |
| dağ yəhudiləri tatlar | 11784 | 21,0 | 242 | 0,9 |
| **Cəmi:** | **56003** | **100%** | **27414** | **100%** |

1939-cu illə müqayisə etsək, Dərbənd şəhərində ləzgilərin sayı 2340-dan 4589-a qədər, yəni təqribən 2 dəfə artmışdı. Ləzgilərin sayının artımı Dərbənd rayonunda 9,1 % təşkil edirdisə, 1959-cu ildə onların payı 21,8 % -ə çatmışdır. Azərbaycanlıların sayı isə Dərbənd rayonunda 1939-cu illə müqayisədə nəinki art-

[176] Дербентский горсовет (1959 г.). www.ethno-kavkaz.narod.ru. Архивировано из первоисточника 30 мая 2012; Ибрагимов М-Р. Динамика численности и этнического состава Дербента в XIX веке./ AMEA-nın Tarix İnstitutu. Elmi əsərlər, Xüsusi buraxılış, 2012/40, s.347-354.

mış, hətta azalma müşahidə edilirdi. 1939-cu ildə 14229 nəfərdən 1959-cu ildə 13061 nəfərə enmişdir.

Beləliklə, Dərbəndin əhalisinin etnik tərkibində 1897-ci ilə qədər azərbaycanlıların dominantlığı şübhəsizdir. 1897-ci ildə çar Rusiyasının apardığı müstəmləkə köçürmə siyasətinə baxmayaraq, yenə də şəhər əhalisinin ⅔-ni azərbaycanlılar təşkil edirdilər. Bu gün Dərbənddə azərbaycanlılar təqribən əhalinin ⅓-ni təşkil edirlər.XX əsrdə baş verən iqtisadi, siyasi, kulturoloji proseslər Dərbənd əhalisinin etnik tərkibinə elə təsir göstərdilər ki, nəticədə azərbaycanlıların sayı sürətlə azaldı, başqa etnosların çəkisi durmadan artdı.

Bəzi tədqiqatçılar, Şimali Qafqaz şəhərlərinin, o cümlədən, Dərbənd şəhərinin əhalisinin etnik tərkibində baş verən dəyişiklikləri Sovet hakimiyyəti illərində muxtar respublikalarda elmin, mədəniyyətin, iqtisadiyyatın inkişafı ilə izah edirlər. Təbii ki, Dərbənddə elm, tədris ocaqlarının, sənaye müəssisələrinin tikintisi əhalinin şəhərə axınına və onun etnik tərkibinin dəyişilməsinə təsirsiz ötüşməmişdi: lakin araşdırmalar göstərir ki, Dərbənddə azərbaycanlıların sayının azalması və etnik tərkibdə qeyri-azərbaycanlıların, xüsusən də, rusların payının artması hələ XX əsrin əvvəllərindən başlamışdı. Şimali Qafqazın bir çox şəhərlərindən fərqli olaraq Dərbənd rus ordusunun hərbi istehkam müdafiə qalası kimi yaranmamışdır və şəhər minillik tarixə malik idi. Əgər rus qalası kimi yaranan şəhərlərin əhalisinin də əksəriyyətini ruslar, ukraynalılar və sair slavyanlar təşkil edirdisə, Dərbəndin milli siması çoxdan (hələ erkən orta əsrlərdən) formalaşmışdır. Ruslar, ukraynalılar, ermənilər, ləzgilər və s. dağlı xalqları bu şəhərdə sonralar məskunlaşmışlar.

Əhalinin çəkisində kişilərin çoxluq təşkil etməsi onu göstərir ki, əhalinin əksəriyyətini kəsbkarlar, yəni şəhərə çörək dalınca gələnlər təşkil edirdilər. Onlar qış aylarında şəhərlərə axışır, yaz gələnə isə öz kəndlərinə qayıdırdılar. Dərbənddə belələrinin sayı xüsusilə çox idi.

Mənbələrin təhlili göstərir ki, Dərbənddə ləzgilərin, darginlərin və s. dağlı xalqlarının sayının artımı əsasən sovet hakimiyyəti illərində, xüsusən 1920-1940-cı illərdə baş vermişdir ki, bu da sosialist sənayeləşdirilməsi, aqrar rayonlarda sənaye müəssisələrinin inkişafı, milli sənaye kadrlarının formalaşdırılması, əhalinin kənddən şəhərə axını ilə izah olunur.

Dağıstan Muxtar Respublikasının yaradılması, onun inkişaf planının həyata keçirilməsi də Dərbənd əhalisinin sayının sürətlə artmasına, onun etnik mənzərəsinin dəyişməsinə səbəb oldu. Əgər 1920-ci ilə qədər Dərbəndə köçənlərin əksəriyyətini çörək dalınca şəhərə qələnlər təşkil edirdisə, 1920-1940-cı illərdə artıq sənaye fəhlələri və təhsil üçün şəhərə gələnlərin sayı artır, miqrasiya edənlərin əsas hissəsini onlar təşkil edidilər.

XX əsrin 1920-1940-cı illərində Dərbənd şəhərinin əhalisinin etnik tərkibində dəyişikliklər baş verdi. Şəhər əhalisinin sayı sürətlə artdı və bu prosesdə əsas xüsusiyyət — dağlı xalqlarının şəhərə kütləvi axını idi. Tədqiqatçı N.Q.Volkova bu prosesi "korenizasiya", yəni yerli xalqların yerləşməsi adlandırsa da, hesab edirik ki, bu nəticə Dərbəndə aid deyil, çünki bu dövrdə əslində Dərbəndin köklü əhalisinin – azərbaycanlıların sayının azalması prosesi baş verdi. Hər hansı bir xalqın şəhərin əhalisində çoxluq təşkil etməsi şəhər ətrafı yaşayış məntəqələrində yaşayan əhalinin etnik mənsubiyyəti və şəhərin ölkə üçün oynadığı iqtisadi-mədəni rolun miqyası ilə təyin edilir. Yuxarıda qeyd etdiyimiz kimi, 1926-cı ildə Dərbənd dairəsinin əhalisi 20479 nəfər olmuşdur və onların da 77%-ni, yəni 14496 nəfərini azərbaycanlılar təşkil etmişdir[177]. Beləliklə,Dərbənd şəhəri ətrafında azərbaycanlıların çoxluq təşkil etməsinə baxmayaraq, şəhərdə onların sayının faiz etibarı ilə getdikcə azaldığını müşahidə edirik.

---

[177] Материалы Всесоюзной переписи населения 1926 года по Дагестану. Выпуск 1.Список нселенных мест Дагестанской АССР. Издание Дагстатуправления, г.Махач-кала,1927, с.XX.

1920-1940-cı illərdə Dərbənd əhalisinin dinamikasında əsas tendensiya Şimali Qafqaz və rus əhalisinin sayının sürətlə artımı, yerdə qalanların (azərbaycanlılar, ukraynalılar, beloruslar və s.) sayının zəif artımı fonunda ümumi payının azalması olmuşdur.

Təəssüflər olsun ki, bu meyl XX əsrin ikinci yarısında da davam etmişdir. 1959-cu il siyahıya almanın nəticələrinə görə[178] Dərbənd bölgəsində (şəhər və rayon birlikdə) azərbaycanlılar ən çoxsaylı xalq kimi ümumi əhalinin 34%-ni təşkil edirdi. Azərbaycanlılardan sonra ikinci çoxsaylı xalq ləzgilər idi ki, onlar da 14,9 % təşkil edirdilər.

1970-ci ildə SSRİ-də əhalinin növbəti siyahıya alınması keçirildi. Siyahıya alma göstərdi ki, 1959-cu ildən sonra keçən 10 il ərzində Dağıstan MSSR-nin əhalisi 366 min artaraq sayı 1 mln 428 min 540 nəfərə çatmışdır. Bu 10 il ərzində əhalinin 30% artması demək idi ki, ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında gedən müsbət dəyişikliklərlə izah olunurdu. 1946-1950-ci illərdə SSRİ Böyük Vətən müharibəsi illərində aldığı yaraları sağaltdı və 1960-cı illərdən ölkədə bütün sahələrdə canlanma başladı. 1964-cü ildə L.İ.Brejnevin volyuntarist N.S. Xruşovu əvəz etməsi də ölkədəki sosial-iqtisadi vəziyyətə müsbət təsir etdi. Nəticədə, əhalinin artımında da artım qeyd olundu. 1970-ci ildə azərbaycanlıların sayı Dağıstan MSSR-də 54403 nəfərə çatdı ki, bu da respublika əhalisinin 3,8% demək idi. Göründüyü kimi, azərbaycanlıların da sayı 16 min 179 nəfər artmışdı ki, bu da 42,3% artım demək idi (bax.Cədvəl 8).

---

[178] Дербентский горсовет (1959 г.). www.ethno-kavkaz.narod.ru. Архивировано из первоисточника 30 мая 2012; Ибрагимов М-Р. Динамика численности и этнического состава Дербента в XIX веке./ AMEA-nın Tarix İnstitutu. Elmi əsərlər, Xüsusi buraxılış, 2012/40, s.347-354.

**Cədvəl 17. 1970-ci ilin əhalinin siyahıya alınmasına görə Dərbənd bölgəsinin əhalisinin etnik tərkibi[179]**

| **Dərbənd bölgəsində yaşayan xalqlar** | **Dərbənd şəhər sovetliyi** (Daqestanskiye Oqni ilə birlikdə) | | **Dərbənd rayonu** | |
|---|---|---|---|---|
| | sayı | faizlə | sayı | faizlə |
| azərbaycanlılar | 16507 | 24,5 | 22209 | 43,6 |
| avarlar | 439 | 0,7 | 162 | 0,3 |
| darginlər | 3241 | 4,8 | 5476 | 10,7 |
| kumıklar | 771 | 1,1 | 543 | 1,1 |
| ləzgilər | 9908 | 14,7 | 12595 | 24,7 |
| laklar | 406 | 0,6 | 322 | 0,6 |
| tabasaranlar | 4491 | 6,7 | 6736 | 13,2 |
| aqullar | 68 | 0,1 | 11 | 0,1 |
| rutullar | 9 | 0,1 | 31 | 0,1 |
| saxurlar | 2 | 0,1 | 2 | 0,1 |
| noqaylar | 39 | 0,1 | 13 | 0,1 |
| ruslar | 13307 | 19,8 | 1870 | 3,7 |
| çeçenlər | 30 | 0,1 | 44 | 0,1 |
| dağ yəhudiləri | 10177 | 15,1 | 380 | 0,7 |
| **Ümumi Dərbənd bölgəsi üzrə:** | 67313 | 100% | 50981 | 100% |

179 Дербентский горсовет (1970 г.). www.ethno-kavkaz.narod.ru. / derb-gorsovet70.html. Архивировано из первоисточника 30 мая 2012.

Maraq döğuran o məsələdir ki, əgər bütün Dağıstan üzrə azərbaycanlıların artım göstəriciləri orta Dağıstan göstəricilərini (30%) üstələyirdisə, bunu Dərbənd şəhərinin azərbaycanlı əhalisi haqqında demək olmaz. Aşağıda verilən cədvələ diqqət yetirək.

Beləliklə, Dərbənd şəhərində və Dərbənd rayonunda azərbaycanlıların say artımının templəri heç də eyni olmamışdır. 1959-1970-ci illərdə Dərbənd şəhərində azərbaycanlıların sayı cəmi 2358 nəfər artaraq 16507 nəfərə çatmışdır. Artımı faizlə ifadə etsək 16,6 rəqəmini alarıq. Yəni Dərbənddə azərbaycanlıların artım tempi ümumi Dağıstan göstəricilərindən demək olar ki, 2 dəfə aşağı olmuşdur (30%-ə qarşı 16,6%). 1959-1970-ci illərdə Dərbənddə Dağıstan xalqalrının, xüsusən tabasaranların, ləzgilərin sayı sürətlə artmışdır. Rəqəmlərə diqqət yetirək: 1959-cu ildə Dərbənddə 1852 nəfər təşkil edən tabasaranların sayı 10 ildə 24% artaraq 4491-ə çatmışdı. Ləzgilərin də sayında sürətli artım müşahidə olunmuşdu. Belə ki, 1959-cu ildən 1970-ci ilə Dərbənd şəhərində onların sayı 3410 nəfər artaraq 9908 nəfərə çatmışdır ki, bu da 60% artım deməkdir.

Dərbənd rayonuna gəldikdə, burada 10 il ərzində əhalinin sayı təqribən 91% artaraq 26 min 740 nəfərdən 50 min 981 nəfərə çatmışdır ki, onların da 43,6% - ni, yəni 22209 nəfərini azərbaycanlılar təşkil edirdilər. Dərbənd şəhərindən fərqli olaraq, Dərbənd rayonunda 1959-1970-ci illərdə azərbaycanlıların sayında əhəmiyyətli artımlar olmuşdur. Belə ki, 1959-cu ildə 13061 nəfər təşkil edən azərbaycanlıların sayı 70% artaraq 22209 nəfərə çatmışdır.

Beləliklə, 1970-ci ildə Dərbənd bölgəsində azərbaycanlıların ümumi sayı 38716 nəfər olmuşdur ki, bu da Dərbənd bölgəsinin ümumi əhalisinin 34%-i demək idi. Azərbaycanlılardan sonra Dərbənd bölgəsində ən çox saya malik xalqlar kimi ləzgiləri (22503 nəfər), rusları (15177 nəfər), tabasaranları ( 11227 nəfər), dağ yəhudiləri (10 177 nəfər), darginləri (8717 nəfər) göstərmək olar. Adı çəkilən bu 6 xalqın nümayəndələri Dərbənd bölgəsinin əhalisinin təqribən 97,5%-ni təşkil edirdilər.

1979-cu ilin siyahıya alınmasının nəticələri göstərdi ki, 1960-cı illərə xas olan meyllər davam etməkdə idi. 1970 -1979-cu illər ərzində ümumən Dağıstan MSSR əhalisinin artım tempi bir qədər aşağı düşdü. Belə ki, 1979-cu ildə respublikada 1mln. 628 min 159 nəfər qeydə alındı və bu onu göstərirdi ki, 1970-ci illə müqayisədə əhalinin sayı cəmi 199 min 619 nəfər artmışdı. Bu təqribən 14% artım idi. Dağıstanda yaşayan azərbaycanlıların sayı 10111nəfər artaraq 64514-ə çatdı ki, bu da ümumi əhalinin 4%-i demək idi.

Cədvəl 17-dən göründüyü kimi, 1979-cu ildə Dərbənd şəhərinin əhalisi 79883 nəfər, Dərbənd rayonunun əhalisi isə 60455 nəfər təşkil etmişdir və ümumilikdə bölgədə 140338 nəfər əhali yaşayırdı.

Azərbaycanlılar Dərbənd şəhərində 25,3% və Dərbənd rayonunda 44% təşkil edirdilər. Dərbənd bölgəsində ümumi sayı 46781 nəfərə çatan azərbaycanlıların faiz etibarı ilə çəkisi bir qədər də azalmışdır. Əgər bu rəqəm 1939-cu ildə 40%, 1959 və 1970-ci illərdə müvafiq olaraq 34% olmuşdursa, 1979-cu ildə artıq 33,2%-ə endi.

